# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 239 (8555) ÇƏRŞƏNBƏ AXŞAMI, 17 noyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar



Noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar.

*(Geniş hesabat qəzetin növbəti nömrəsində dərc ediləcək).*

## 17 Noyabr Milli Dirçəliş Günüdür



# Azərbaycanı ucaldan Qələbə

## İlham Əliyev həm də 32 il əvvəlki dirçəliş hərəkatının hədəflərini tam reallığa çevirdi

Torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsi xalqımızın qəhrəmanlıq salnaməsinə çevrildi. 44 günlük bu müharibədə Azərbaycan döyüş meydanında Ermənistanı darmadağın etməklə, 30 ilə yaxın davam edən işğala son qoydu. Bu qalibiyyətin fonunda bütün dünya güclü Azərbaycan dövlətini gördü. Beynəlxalq ictimaiyyət xalqımızın öz haqqı uğrunda mərdliklə mübarizə aparmaq əzminə şahidlik etdi. Prezident İlham Əliyev bu Qələbə ilə qalib Azərbaycan dövlətini dünyaya təqdim etdi.

### Əlamətdar günlərə təsadüf edən zəfər

Tarixə həm də ikinci Qarabağ müharibəsi kimi düşən 44 günlük savaş, Şuşanın azad edilməsi dövlət bayramları günü ərəfəsinə təsadüf edərək, onları daha da şərəfləndirdi. Qarabağın qəlbi Şuşada Azərbaycan bayrağının ucaldılmasından bir gün sonraya təsadüf edən Dövlət bayrağı günü tariximizdə görünməmiş dərəcədə coşqu ilə qeyd olundu. Noyabrın 10-da Ermənistanın kapitulyasiya bəyanatına imza atması ilə Azərbaycanın dövlətçilik tarixinə ən şərəfli hadisələrdən biri yazıldı. Xalqımızın qələbə sevinci həm də müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul edilməsinin 25-ci ildönümü günündə yaşandı.

Bu gün isə Milli dirçəliş günüdür. Azərbaycan xalqının öz azadlığı uğrunda mücadilə tarixinin önəmli mərhələlərindən biri olan milli dirçəliş hərəkatının növbəti ildönümü də Qələbə sevincinin yaşandığı günlərə təsadüf edir.

Milli dirçəliş hərəkatı Azərbaycanın müstəqilliyinin bərpa edilməsinə gedən yolda xalqımızın tarixinin əsas hadisələrindən biridir. Ermənilərin Topxanada törətdikləri vəhşiliklər, Ağdamda iki azərbaycanlını qətlə yetirmələri Bakıda milli hissləri alovlandırdı. XX əsrin əvvəllərində istiqlalın ləzzətini dadan xalq bu dəfə müstəqillik arzularını reallaşdırmaq üçün tarixi bir fürsətin yarandığını hiss etdi. 1988-ci ildən başlayaraq Azərbaycanda milli istiqlal hərəkatı geniş vüsət aldı. Həmin ilin noyabr ayında yüz minlərlə insanın toplaşdığı Bakının Azadlıq meydanında səslənən tələblərin mahiyyəti getdikcə dəyişərək müstəqil dövlət qurmaq ideyası milli düşüncəyə hakim kəsildi. Həmin günlər göstərdi ki, xalqımız müstəqil olmağa, azad yaşamağa layiqdir.

### Xalq həqiqi liderə ehtiyac duyurdu

Ötən əsrin 80-ci illərinin sonları ən narahat dövrlərimizdən biri idi. Azərbaycana rəhbərlik edənlər tamamilə milli hisslərdən, azərbaycançılıq dəyərlərindən uzaq idilər. Ermənilərin Azərbaycan ərazilərinə qarşı yeni baş qaldıran iddialarının qarşısının alınmaması, Moskva qarşısında bununla bağlı məsələ qaldırılmaması rəhbərliyin öz xalqına qarşı biganəliyinin təsdiqi idi.

*Ardı 5-ci səh.*

## Qarabağın çırağı gur yanacaq



Erməni vandalları 1990-cı illərin əvvəllərində soydaşlarımızı Qarabağdan - öz ata-baba yurdlarından didərgin salmaqla yanaşı, işğal etdikləri ərazilərdə uzun müddət talançılıqla məşğul olublar. İndi bütün dünya gördü ki, işğalçılar bu torpaqlarda hansı vəhşilikləri törədiblər.

Şəhər və kəndlərdə evlərin əksəriyyəti dağıdılıb, tarixi abidələr uçurulub, muzeylər talan edilib, təbiətə böyük ziyan vurulub, məscidlər təhqir olunub.

*Ardı 7-ci səh.*

## Təbiət qatilləri





...Əslində, bu, ilk deyil. Biz ermənilərin çirkin üzünü, murdar xislətini indi yox, yüz illər öncə görmüşük... Daim Azərbaycan xalqına qarşı ərazi iddiasında olub, çörəyimizi yeyib, sərvətlərimizdən istifadə edib, sonra da namərdcəsinə bizə arxadan zərbə vurublar. Tarixi torpaqlarımıza, dədə-baba yurdumuza abırsızcasına soxularaq işğal ediblər, xalqımıza qarşı soyqırımı törədiblər. Vəhşiliklərini, amansızlıqlarını, zalımlıqlarını tarixə qanla və dinc, əliyalın əhalini qırmaqla yazıblar.

Biz onları insanlıqdan kənar yırtıcılar kimi tanımışıq...

Biz onların vəhşi heyvanlara belə xas olmayan qəddar əməllərini canımızla, qanımızla yaşamışıq...

Biz onların körpələri, uşaqları diri-diri yandırmalarının, süngüyə keçirmələrinin, dərilərini soymalarının, qadın, qoca, yaşlı demədən olmazın işgəncələr vermələrinin, hamilələrin qarnını yarıb, qarınlarına pişik balası qoymalarının canlı şahidi olmuşuq...

Gözləri qanla örtülü olan bu vəhşilər ölülərimizi təhqir etməklə də ürəklərini soyuda bilməyiblər. Tək insanlarımıza qarşı yox, torpağımıza, təbiətimizə, meşələrimizə qarşı da terror törədiblər.

*Ardı 6-cı səh.*

## Ermənistanda repressiyalar güclənir

Ermənistanda müharibədəki məğlubiyyət fonunda müşahidə olunan proseslərdən biri də insan hüquqlarının, söz və fikir azadlığı sahəsində durumun pisləşməsidir.

“4rd.am” saytı yazır ki, baş nazir Nikol Paşinyanın siyasəti nəticəsində son iki ildə ökədə demokratiyanın inkişafı istiqamətində bir addım belə irəliyə atılmayıb: “Əksinə, vəziyyət əhəmiyyətli dərəcədə pisləşib. Bu gün Ermənistan dünyada totalitar ölkələr sırasında yer alır. Yerevanda keçirilən etiraz aksiyalarında gördük ki, burada insanlar daim polis repressiyası altındadır.

*Ardı 7-ci səh.*





# Prezidentlər Dağlıq Qarabağa dair üçtərəfli bəyanatda təsbit edilmiş razılaşmaların yerinə yetirilməsinin praktiki aspektlərini müzakirə ediblər

Noyabrın 14-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Telefon söhbəti zamanı Dağlıq Qarabağa dair üçtərəfli bəyanatda təsbit edilmiş razılaşmaların yerinə yetirilməsinin praktiki aspektləri müzakirə edilib.

Tərəflər atəşkəs rejiminə riayət edilməsindən və təmas xəttində vəziyyətin kifayət qədər sakit olmasından məmnun olduqlarını bildiriblər.

Telefon söhbəti zamanı Rusiya Prezidenti qeyd edib ki, üçtərəfli bəyanata müvafiq olaraq Azərbaycan Respublikasına qaytarılan rayonlarda xristian məbədləri və monastırları yerləşir. Bununla əlaqədar o, həmin ibadətgahların qorunub saxlanılmasının və normal fəaliyyətinin təmin edilməsinin vacibliyini vurğulayıb.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan çoxmillətli və çoxkonfessiyalı dövlətdir, burada bütün xalqların və bütün dinlərin nümayəndələrinin hüquq və azadlıqları tam təmin edilib.

Azərbaycan ərazisində yerləşən qədim müsəlman və xristian ibadətgahları dövlət tərəfindən mühafizə olunur.

Prezident İlham Əliyev bildirib ki, üçtərəfli bəyanata müvafiq olaraq Azərbaycana qaytarılan ərazilərdə yerləşən xristian məbədləri dövlət tərəfindən lazımi qaydada mühafizə olunacaq. Azərbaycanda yaşayan xristianlar bu məbədlərdən istifadə edə biləcəklər.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan və Türkiyə xarici işlər nazirləri arasında telefon danışığı olub

Noyabrın 16-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər bölgədəki son vəziyyəti, o cümlədən üçtərəfli bəyanatın həyata keçirilməsi, razılaşmadan irəli gələn bir sıra məsələlər, eləcə də humanitar xarakterli məsələlərin həlli ilə bağlı fikir mübadiləsi aparıblar. Tərəflər habelə qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Azərbaycan və Rusiya xarici işlər nazirlərinin telefon danışığı olub

Noyabrın 15-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiyanın xarici işlər naziri Sergey Lavrovun telefon danışığı olub.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, tərəflər bölgədə mövcud olan son durumu, 10 noyabr tarixli üçtərəfli bəyanatın icrası, razılaşmadan irəli gələn bir sıra məsələlərin, o cümlədən humanitar xarakterli tədbirlərin reallaşmasında əlaqələndirmənin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıblar. Nazirlər həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# *Gürcü dini icmasının sədri:* "Azərbaycanda xristianların dini-mədəni abidələri dövlət tərəfindən qorunur"

Azərbaycan çoxmillətli, tolerant ölkədir. Burada müxtəlif dinlərin, millətlərin nümayəndələri bir yerdə dostluq və qardaşlıq şəraitində yaşayırlar. Azsaylı xalqların, etnik qrupların milli-mədəni dəyərlərinin qorunmasına həmişə böyük diqqət yetirilir.

Azərbaycanın hər yerində olduğu kimi, Qax rayonunda da xristian abidələri, ibadət yerləri, kilsələr dövlət tərəfindən mühafizə edilir, qorunur. Rayonda yaşayan gürcülər digər azsaylı xalqlar kimi, cəmiyyətin ayrılmaz bir hissəsidir. Azərbaycanın əldə etdiyi uğurlar bizi də sevindirir. Azərbaycan Ordusunun Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazandığı tarixi qələbəni ürəkdən alqışlayırıq.

Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Qax rayonunun Qaxingiloy kənd "Müqəddəs Georgi" kilsəsinin gürcü-pravoslav xristian dini icmasının sədri İaqo Kasiaşvili söyləyib.

İcma sədri bildirib ki, XVIII əsrin sonlarında inşa edilmiş bu ibadətgahda dini ayinlərin icrası üçün hər cür şərait yaradılıb. Ötən əsrin sonlarında kilsə əsaslı təmir və bərpa olunub. Burada il ərzində müxtəlif dini bayramlar keçirilir, dini ayinlər icra olunur. Bu bayramlarda icmanın bütün üzvləri iştirak edir, kilsədə şam yandırırlar. Kilsə yerli əhəmiyyətli tarixi abidə kimi dövlət tərəfindən qorunur.

Ermənilərin Qarabağ torpağındakı Azərbaycan xalqına məxsus qədim tarixə malik dini-mədəni abidələrə, məscidlərə olan düşmən münasibətindən təəssüf hissi keçirdiyini bildirən icma sədri deyib: "Dini ibadət yerlərini, ziyarətgahları dağıtmaq, məscidlərdə heyvan saxlamaq günahdır. Tanrının evlərinə, insanların pənah gətirdiyi dini ocaqlara bu cür münasibət vəhşilikdir. Tanrı belələrini mütləq cəzalandıracaq, necə ki, indi cəzalandırır. Biz gürcülər bu ölkənin vətəndaşı olaraq, Azərbaycan dövlətini, xalqını bu haqq işində hər zaman dəstəkləyirik".

# *Prezidentin köməkçisi:* "Ermənistan Kəlbəcərin tam təhvil verilməsi üçün noyabrın 25-dək vaxt istəyib"




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin noyabrın 10-da imzaladığı birgə bəyanatın icrası istiqamətində işlər davam etdirilir. Ermənistan Kəlbəcərin tam boşaldılması üçün noyabrın 25-dək vaxt istəyib. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev noyabrın 15-də keçirilən brifinqdə bildirib.

Ermənilərin bəyanatda göstərilən rayonlardan çıxarılması işlərinin davam etdiyini bildirən Hikmət Hacıyev deyib: "Bəyanatın tələblərindən biri Kəlbəcərin noyabrın 15-dək təhvil verilməsi idi. Lakin Ermənistan tərəfi Rusiya vasitəsilə bu vaxtın uzadılması üçün müraciət edib. Hava şəraiti çətinləşir, o istiqamətdən yalnız bir yol var və yolun ötürücülük qabiliyyəti aşağıdır. Azərbaycan bunu nəzərə alaraq humanistlik nümayiş etdirib və Kəlbəcərin noyabrın 25-dək təhvil verilməsinə razılıq verib. Öhdəliklər qüvvədə qalır, vaxtın uzadılması ilə bağlı xüsusi bəyanat imzalanmasına ehtiyac yoxdur".

Azərbaycan Prezidentinin köməkçisi qeyd edib ki, noyabrın 20-də Ağdamın, dekabrın 1-dək isə Laçının təhvil verilməsi nəzərdə tutulur.

# *Hikmət HACIYEV:* "Ermənistanın Kəlbəcərdən çıxması da vandalizm aktları ilə müşahidə olunur"

"Ermənistanın Kəlbəcərdən çıxması da vandalizm aktları ilə müşahidə olunmaqdadır. Ərazilərimizin işğaldan azad edilməsi prosesində son məqamda da maddi mədəniyyət abidələrinə zərərlərin vurulması həyata keçirilir".

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev noyabrın 15-də keçirilən brifinqdə söyləyib.

"Ağdamda Tiqranakert adlandırdıqları ərazidə qanunsuz arxeoloji qazıntılar aparırdılar. Bu qazıntılar zamanı əldə edilənlərin Ermənistana aparılması cəhdləri də var. Bu, beynəlxalq qanunların pozulmasıdır. Azərbaycanın işğal olunmuş ərazilərində maddi-mədəni irsi talan edən də Ermənistan olub. Biz işğal olunmuş ərazilərdə maddi mədəniyyət abidələrinə, xüsusən məscidlərinə vurulan zərərləri görürük, hətta məscidlərdə donuzlar saxlanılıb. Daha ətraflı araşdırmalardan sonra Ermənistanın barbar əməllərinin nəticələri bir daha özünü büruzə verəcək", - deyə Prezidentin köməkçisi qeyd edib.

# Kəlbəcərdə mülki əhalinin məskunlaşması tamamilə qanunsuz xarakter daşıyır

Azərbaycanın Kəlbəcər rayonunda qeyri-qanuni məskunlaşmanın nəticələri aradan qaldırılmalıdır. BMT Təhlükəsizlik Şurasının da Kəlbəcərlə bağlı xüsusi qətnaməsi var.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev noyabrın 15-də keçirilən brifinqdə bildirib.

Prezidentin köməkçisi bildirib ki, Kəlbəcərdə mülki əhalinin məskunlaşması tamamilə qanunsuz xarakter daşıyır. Ona görə orada olan hər hansı bir mülkiyyətin heç bir hüquqi qüvvəsi yoxdur.

"Ərazini tərk edən ermənilər Kəlbəcərdəki mülki obyektləri yandırır, bu, xarici medianın görüntülərində də əksini tapır. Ermənilər ətraf mühitə və mülki obyektlərə ziyan vururlar. Ətraf mühitə vurulan zərərin, ekoloji terrorun qarşısı alınmalıdır. Ərazidə inşa edilmiş tikililər də qeyri-qanunidir. Son məqamda da bu ərazilərin işğaldan azad edilməsi prosesində maddi mədəniyyət abidələrinə zərərlərin vurulması həyata keçirilir", - deyə Prezidentin köməkçisi qeyd edib.

# *General-mayor Hüseyn MAHMUDOV:* "Azərbaycan Ordusunun qüvvələri Kəlbəcərə hərəkət etmək üçün tam hazır vəziyyətdədir"

Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri tərəfindən imzalanmış bəyanata əsasən planlaşdırılan Kəlbəcərin təhvil verilməsinə paralel olaraq, oraya yerləşdiriləcək Azərbaycan Ordusunun hissələri və qüvvələri rayon ərazisinə hərəkət etmək üçün tam hazır vəziyyətdədir.

AZƏRTAC xəbər verir ki, bunu noyabrın 15-də keçirilər brifinqdə Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov deyib.

General-mayor bildirib ki, Azərbaycan Ordusunun mühəndis qoşunları tərəfindən Kəlbəcərə bitişik olan və bu günədək Ordumuzun nəzarətindəki ərazilər minalardan təmizlənib.

Kəlbəcər rayonunun ərazisinə və əvvəlcədən müəyyənləşdirilmiş post və məntəqələrə hərəkət əsasən iki istiqamətdən - Göygöl və Daşkəsəndən həyata keçiriləcək. Kəlbəcərə daxil olacaq qüvvələrimiz, ilk növbədə, Azərbaycan-Ermənistan dövlət sərhədi və Qarabağ ərazisində sülhməramlılar tərəfindən yaradılmış nəzarət məntəqələri boyunca yerləşdiriləcək.

Hüseyn Mahmudov vurğulayıb ki, Azərbaycan Müdafiə Nazirliyi yüksək texnologiyaya malikdir və biz prosesi diqqətlə izləyirik. Heç bir təxribata yol verilmir. Brifinqdə göstərilən videodan göründüyü kimi, bir neçə kilometr uzunluğunda avtomobil karvanları hərəkət edir. Yol çox dar olduğu üçün bu proses ləngiyir. Əsas məqsədimiz prosesi diqqətlə izləmək və yaranmış vəziyyət barədə tam dəqiq məlumatı ictimaiyyətə çatdırmaqdır.

O bildirib ki, ermənilər işğal altındakı əraziləri tərk edərkən binaları, meşələri yandırır, öz postlarını dağıdır. Bu, bir daha onların əsl iç üzünü dünya ictimaiyyətinə göstərir. Biz bu proseslərə nəzarət edirik.

# Qaliblər mühakimə olunmur, onlarla hesablaşırlar

Azərbaycan torpağının böyük bir hissəsinin 30 illik işğalına son qoyan Vətən müharibəsi Qələbəmizlə başa çatdı. Xalqımızın sevincinin hədd-hüdudu yoxdur. Bu da çox təbiidir. Çünki işğal altında olan torpaqların uzun müddət keçəndən sonra, həm də qısa bir vaxtda azad edilməsi dünya tarixində baş verən azsaylı hadisələrdəndir.

Lakin müharibə zəfərimizlə başa çatsa da, Ermənistanın üzündən hələ də "toydan sonra nağara çalınır". Bu ölkədə hər ağızdan bir avaz gəlir, müxalifət partiyalarının bağlanan üçtərəfli sazişi ləğv etmək, yenidən müharibə apararaq torpaqlarımızı işğal altına salmaq barədə çağırışları səslənir. Həmin çağırışların müəllifləri arasında hətta iqtidarın özünü "təmiz"ə çıxarmaq istəyən nümayəndələri də var.

Ailənin bir üzvünün ağlını itirməsi həmin ailənin faciəsidir. Türk qardaşlarımız demişkən: "Dirisi ölən bir gün ağlar, dəlisi olan hər gün". İndi erməni cəmiyyətində kütləvi psixozluq, mübaliğəsiz desək, dəlilik müşahidə olunur. Ağıllarını hələ də başlarına yığa bilmirlər.

İndi müharibə çağırışlarını edən erməni siyasətçilərindən soruşmaq lazımdır: 44 gün sizinlə uşaq kimi "dava-dava" oynamışıq? Müharibədə ağır məğlubiyyətə uğramadınızmı? Demədinizmi ki, resurslarınız çatmadığı üçün məğlub olursunuz?! Döyüşməyə əsgər tapmadığınızı etiraf etmədinizmi?! Adamdan soruşarlar ki, indi Yerevan küçələrində "qan-qan" deyən, müharibənin davam etməsini istəyən həmin erməni gəncləri bu 44 gündə harada idilər? Həmin "meydan qəhrəmanları" səngər qəhrəmanları ola bilmədilər, bundan sonra da ola bilməyəcəklər. Onlar sadəcə, erməni yekəxanalığını, erməni hikkəsini nümayiş etdirirlər. Yəni bu, sadəcə meydan şousudur.

Belə yerdə bir atalar sözümüz yada düşür: "Sirkə nə qədər tünd olsa, öz qabını çatladar". Uzaq başı hakimiyyət uğrunda bir-birini qırıb sakitləşəcəklər. Əslində, bu axırıncı sözümüzə özümüz də bir qədər inanmırıq. Ona görə ki, ermənilər millətçilik, düşmənçilik xəstəliyinin ağır formasına tutulublar. Həmin xəstəlik uzunmüddətli olduğu üçün xroniki hala keçib. Belə xəstəliyi sağaltmaq mümkün deyil. O üzdən ermənilərə etibar edib çomağı yerə qoymaq olmaz.

Ermənilər əvvəl Paşinyanın istefasını tələb edirdilər. İndi bu cəzanın yüngül olduğunu düşünüb onu Qəddafi kimi linc etmək istəyirlər. Etirazımız yoxdur, çünki o, bu cəzaya layiqdir. Bizi maraqlandıran məsələ odur ki, yerinə gələnlər də onun ağlındamı olacaqlar?

Hələlik görünən odur ki, Ermənistanda ağıllı lider "defisit"dir. Bunu onların nankor çağırışları da sübut edir. Erməniləri daha ağır məğlubiyyətdən qurtaran Rusiyaya "kəllə atıb" sülhməramlıların çıxarılmasını tələb edirlər. Anlamırlar ki, axmaq hərəkətlərə yol versələr, Ermənistan daha böyük fəlakətə uğrayacaq.

Ermənistanda reallığı dərk edən siyasətçilərin sayı bir əlin barmaqları qədər də deyil. Həmin bir neçə nəfərin isə ağıllı çağırışlarına qulaq asan yoxdur. Görün Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan nə deyir: "Hakim "Mənim addımım" parlament fraksiyasının bəyanatı göstərdi ki, hazırkı hökumət Qarabağı və Ermənistanı hansı bəlaya düçar etdiklərini, bütün erməni xalqına qarşı bağışlanılmaz bir cinayət törətməklə yaratdıqları fəlakəti hələ də başa düşməyiblər". Ancaq Levon Ter-Petrosyan həqiqətin hamısını söyləmir. Demir ki, məğlubiyyətin qisasını almaq istəyən müxalifət daha böyük faciələrə yol açacaq, Ermənistanı birdəfəlik məhv edəcək. Çünki bu ölkədə həqiqəti söyləyəni linc edirlər. O, bunu 1997-ci ildə başına gələnlərdən yaxşı bilir.

Ermənilərin, xalq arasında deyildiyi kimi, "çörəyi dizlərinin üstündədir". Belə olmasaydı, Rusiyadan gördüyü bütün yaxşılıqları unudub Fransanın ətəyindən yapışmazdı. Amma əgər sabah üçüncü, dördüncü ölkə onlara üz göstərsə, Fransaya da arxa çevirəcəkləri şübhəsizdir. Bu səbəbdən bəzi rus və fransız siyasətçilərinin qalib Azərbaycanı mühakimə etməklərindənsə, dəstək verdikləri məğlub Ermənistanın etibarsız tərəfdaş olmasının fərqinə varmaları məsləhətdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

**Prezidentə yazırlar**

# "Siz bir sərkərdə, uzaqgörən siyasətçi, Müzəffər Ali Baş Komandan kimi xalqımızın birliyini daha da möhkəmləndirdiniz"




Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun əldə etdiyi tarixi Qələbə Azərbaycan vətəndaşlarına, xaricdə yaşayan soydaşlarımıza, eləcə də qardaş Türkiyənin vətəndaşlarına böyük sevinc hissi yaşadır. Onlar dövlət başçısına ünvanladıqları məktublarda bu hisslərə görə minnətdarlıqlarını bildirirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.

Türkiyənin Aydın şəhərindən **Mövlud Çelik** yazır: "Hörmətli cənab Prezident, mən Türkiyədə yaşayıram. Hər bir ölkə, hətta dünyanın bütün dövlətləri bilir ki, Türkiyə və Azərbaycan qardaş ölkələrdir. Türkiyə hər zaman Azərbaycanın yanındadır və olacaqdır. Hazırda təqaüddəyəm, bəzən hisslərimi şeirlə ifadə edirəm. 1974-cü ildə Türkiyə Kipri müdafiə edəndə "Kıbrıs" adlı bir şeir yazdım və onu ovaxtkı Prezident Rauf Denktaşa, Baş nazir Derviş Eroğluna təqdim etdim. Hər bir insanda, xüsusən, Azərbaycan və Türkiyə vətəndaşlarının ürəyində dərin yara açan Xocalı qırğınının ağrı və acısı sağalmamış 2020-ci il sentyabrın 27-də Ermənistan yenidən Azərbaycan torpaqlarına hücum etdi. Xalqlarımız yenidən üzüldü, lakin Azərbaycan öz haqqını döyüşlə, zəfərlə qazandı. Şəhidlərinizə görə Sizə və Azərbaycan xalqına başsağlığı verir, yaralılara şəfa diləyirəm. Azərbaycan Ordusunun daim müzəffər olması üçün dua edirəm".

Ağcabədi rayonundan **Mehdi Əhmədov:** "Möhtərəm cənab Prezident, Sizi qazandığımız böyük Qələbə münasibətilə təbrik edirəm, Sizə uzun ömür və möhkəm cansağlığı arzulayıram. Sizin necə bir sərkərdə, necə bir siyasətçi olduğunuza bütün dünya şahid oldu. Düşməni həm döyüş meydanında, həm də siyasi arenada diz üstə qoydunuz. Vətən uğrunda canından keçən şəhidlərimizin qanını yerdə qoymadınız. Allah Sizdən və qəhrəman əsgərlərimizdən razı olsun!

Allah Sizi və Azərbaycan xalqını qorusun!"

Füzuli sakini **İsa Hacıyev:** "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, Vətən müharibəsini Qələbə ilə başa vurduğumuz üçün Sizi, xalqımızı və rəşadətli Ordumuzu ailəmiz adından və öz adımdan ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, gələcək fəaliyyətinizdə böyük uğurlar arzulayıram. Sizinlə fəxr edirik. Ulu Tanrı Sizi qorusun!"

İsmayıllı sakini **Hüseynağa Kamilzadə:** "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, Sizə Azərbaycanın gələcəyi naminə gördüyünüz işlərə görə özümün, ailə üzvlərimin adından və İsmayıllı rayonunun Lahıc qəsəbəsinin ağsaqqalları adından böyük ehtiramımızı və təşəkkürümüzü bildiririk. Noyabrın 8-də Şuşanın alınmasına, 10-da isə qəbul olunmuş bəyanata görə çox sağ olun. Siz uzun illərdən qalmış problemləri həll etməyi bacardınız və Qarabağı Azərbaycana qaytardınız. Allah Sizə yar olsun!"

Zaqatala sakini **Tamara Nurəliyeva:** "Hörmətli cənab Prezident, Sizin yaratdığınız peşəkar Milli Ordumuz 28 il işğal altında qalan Qarabağı rəhbərliyinizlə azad etdi. Tam Qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm, cənab Prezident. Allah Sizi qorusun! Biz Sizinlə fəxr edirik, cənab Prezident. Sizin qətiyyətiniz sayəsində düşmənə qalib gəldik. Siz Azərbaycan xalqının qəhrəman oğlusunuz. Azərbaycan xalqına Qələbə sevinci yaşatdınız. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Sabirabad rayonundan **Telman Əzimov** yazır: "Hər bir azərbaycanlının əzizi, qarantı olan hörmətli cənab Prezident. Rəşadətli Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı. Ümummilli Lider Heydər Əliyev Azərbaycanı dağılmaqdan, parçalanmaqdan, məhv olmaqdan qoruyaraq dünya dövlətləri arasında öz dəstxəti olan bir dövlətə çevirməklə müasir Azərbaycan Respublikasının qurucusu və Ümummilli Lider adını qazandı. Ulu Öndərin siyasətini layiqincə davam etdirərək Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması, sabitliyin təmin olunması, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması ilə yanaşı, müasir dünyaya inteqrasiyanın təmin edilməsi, iqtisadiyyatın gücləndirilməsi, qeyri-neft sektorunun inkişaf etdirilməsi, əhalinin məşğulluğunun təmin edilməsi, aztəminatlı ailələrə yardımların verilməsi, yeni-yeni iş yerlərinin yaradılması ilə işsizliyin azaldılması, yoxsulluq səviyyəsinin minimuma endirilməsi, eləcə də fəaliyyətiniz müddətində Azərbaycan Respublikasının islami dəyərləri özündə qoruyub saxlamaqla dünyəvi dövlətə çevrilməsi, Şərq və Qərb mədəniyyətlərinin birgə fəaliyyətinin təşkili, multikultural fəaliyyətin təmin edilməsi, bir çox beynəlxalq tədbirlərə evsahibliyi etməyimiz, bir sıra beynəlxalq təşkilatlara sədrlik etməyimiz, dünya dövlətləri ilə qarşılıqlı anlaşma və dostluq münasibətlərinin yaradılması, saymaqla bitib-tükənməyən irimiqyaslı layihələrin həyata keçirilməsi ötən dövr ərzində ordu quruculuğuna yönəldilən diqqət nəticəsində müasir silahlarla təchiz olunmuş və müasir tələblərə cavab verən nizami ordunun qurulması ilə uzun illərdən bəri xarici havadarlarının dəstəyi ilə torpaqlarımızı xaincəsinə işğal etmiş erməni faşistlərindən qısa müddət - 44 gün ərzində işğaldan azad edən rəşadətli ordumuzun müzəffər Ali Baş Komandanı kimi Siz öz adınızı nəinki Azərbaycan tarixinə, həm də dünya hərb tarixinə qızıl hərflə yazdıra bildiniz. Siz tarixi dövlətçilik ənənələri olan Azərbaycana son yüzilliklərdə əldə olunmayan bir qələbəni yaşatdınız. İşğal altında olan torpaqlarımızı əsl sahibinə - Azərbaycan xalqına qaytara bildiniz. Bu, təkcə işğal olunmuş torpaqların geri qaytarılması kimi deyil, həm də Azərbaycanın, Azərbaycan Ordusunun tarixi Qələbəsidir. Siz haqqın necə güclü olduğunu və özünüzün necə bir sərkərdə olduğunuzu bir daha təsdiq etdiniz. Azərbaycan Ordusunun döyüşlərdə silahla döyüşərək düşmən üzərində qələbə qazanmağın səbəbkarı məhz siyasi arenada yorulmaq bilmədən hər kəsin öz dilində döyüşərək onlara öz yerlərini göstərməyə nail olmaqla xalqın qəlbində özünüzə layiqli yerinizi tapmaqla sözü ilə əməli bir olan, hər bir azərbaycanlının Prezidenti olan, özünü xalqın xidmətçisi elan edən, hər zaman xalqın yanında olan mərd-mübariz Azərbaycan oğlu olmağınızdır. Siz bizə ən xoş günləri, ən xoş arzumuzu Cəbrayılın, Zəngilanın, Qubadlının, Füzulinin, Ağdamın, Kəlbəcərin, Laçının Azərbaycanın döyünən qəlbi olan Şuşanın işğaldan azad olunması və qələbəmizin təmin olunması xəbərlərini bizə çatdırmaqla bizim məğlubedilməz xalq olduğumuzu bir daha təsdiq etdiniz, Xocalıda, Xocavənddə, Ağdərədə, Xankəndidə və adları hər birimiz üçün əziz olan digər yaşayış məntəqələrimizdə dünyanın ən gözəl bayrağı olan Azərbaycan bayrağının ucaldılması sevincini bizlərə yaşatdınız. Bu Qələbənin qazanılmasında canlarını qurban verən şəhidlərimizin ruhu qarşısında baş əyirik. Siz Azərbaycan xalqına, dünya azərbaycanlılarına, ürəyi Azərbaycanla döyünən hər kəsə, azərbaycansevərlərə əvəzsiz bir sevinc, qələbə, haqq-ədalət sevinci yaşatdınız. Bizə bu haqq işimizdə mənəvi dəstək olan dövlətlərə, xüsusilə də qardaş Türkiyə Respublikasına, bütün dünya türklərinə bir daha minnətdarlıq edirik. Müzəffər Ali Baş Komandan, qəlbimizdə Sizin haqqınızda bitib-tükənməyən xoş arzular o qədərdir ki, hamısını qeyd etmək olmur. Sadəcə olaraq, dünyada nə qədər ən gözəl, ən xoş arzular varsa, hamısını Sizə və əzizlərinizə arzu edirəm. Siz millətin xilaskarı kimi zirvəyə ucaldınız. Azərbaycanın yeni tarixini yazan cəsur sərkərdə, məharətli diplomat və siyasətçi olmaqla xalqımızı yumruq kimi birləşdirməyi bacardınız. Siz Azərbaycan xalqının qəhrəmanısınız. Siz Azərbaycanın ömürlük Prezidenti olmağa layiqsiniz. Bir daha Allahdan Sizə uzun, sağlam, sülh və əmin-amanlıqla keçən bir ömür arzu edirəm. Allah Sizi və əzizlərinizi qorusun! Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!"

Füzuli sakini **Ülviyyə Quliyeva:** "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, mən bir Milli Qəhrəman bacısı, Füzuli sakini olaraq Sizə minnətdaram. Çünki 27 il həsrətində olduğumuz o müqəddəs torpaqlarımıza yenidən qayıdacağıq. Mən müəlliməm, çalışıram ki, Füzuli rayonu 22 nömrəli tam orta məktəbdə dərs dediyim şagirdlərə də bu Qələbənin necə böyük tarixi əhəmiyyət kəsb etdiyini, Azərbaycan xalqı üçün nə ifadə etdiyini çatdırım. Öz adımdan və bütün füzulililər adından Sizə və şanlı Ordumuza təşəkkür edirəm. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!"

Xocavənd sakini **Gözəl Xəlilova:** "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, son günlərdə Sizin komandanlığınızla Qarabağ torpaqlarının rəşadətli Ordumuz tərəfindən işğaldan azad olunması və Qələbə qazanmağımız münasibətilə Sizi təbrik edirəm. Uca Yaradan bizi dünyada qalib xalq kimi tanıdan Ali Baş Komandanı və igid Ordumuzu qorusun!"

Naftalan şəhərindən **Kamran Muradovun** məktubunda deyilir: "Hörmətli cənab Prezident, Şuşanın azad olunması xəbərini eşitdikdə hər birimiz sevinc içində küçələrə axışdıq. Bu, bayram sevinci idi. 9 noyabr tarixində Bayraq Gününü qeyd edərkən Sizdən o qədər gözəl xəbərlər gəldi ki, ürəyimiz ikiqat sevinclə doldu. 10 noyabrın ilk saatlarından Sizin xalqa müraciətiniz isə bizə ən böyük hədiyyəni bəxş etdi. Mən Sizə heyranam, əziz Prezidentim. Ordumuzun qəhrəmanlığı, sadəcə, Azərbaycan tarixinə deyil, dünya tarixinə qəhrəmanlıq, ədalət və mərhəmət nümunəsi kimi düşəcək. Mən onu bilirəm ki, mənfur düşmən artıq heç zaman torpaqlarımıza əl uzada bilməyəcək. Allah şəhidlərimizə rəhmət eləsin. Artıq onların ruhu şaddır. Təşəkkürlər, Müzəffər Ali Baş Komandan, təşəkkürlər, rəşadətli Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!"

Mingəçevir şəhərindən **Ceyhunə Şəfiyeva:** "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, Sizin ərazi bütövlüyümüzün bərpası uğrunda apardığınız mübarizəni rəhbəri olduğum məktəbin pedaqoji kollektivi dəstəkləyir və alqışlayır. Qələbə sevincini bizlərə yaşatdığınız üçün Sizə təşəkkür edirik. Eşq olsun Ali Baş Komandanımıza! Yaşasın rəşadətli Ordumuz!"

Bakı şəhər sakini **Məmməd Səfa:** "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, Sizi düşmən üzərində möhtəşəm Qələbə münasibətilə ürəkdən təbrik edirəm. Sizə Azərbaycanımızın çiçəklənməsi yolunda uğurlar arzulayıram. Siz bir sərkərdə, uzaqgörən siyasətçi, Müzəffər Ali Baş Komandan olaraq bu gün xalqımızın birliyini daha da möhkəmləndirdiniz. Bu müqəddəs yolda canlarını fəda edən igid oğullarımıza Allahdan rəhmət diləyir, şəhidlərimizin ruhu qarşısında baş əyirəm. Fəxr edirəm ki, Sizin kimi dövlət başçımız var. Yaşasın Azərbaycan xalqı, müzəffər Ordumuz və Ali Baş Komandanımız!"

# İşğaldan azad edilmiş ərazilərimizdə də sosial xidmət və reabilitasiya müəssisələri yaradılacaq




Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun işğaldan azad etdiyi ərazilərdə geniş miqyasda quruculuq və abadlıq, habelə sosial infrastrukturun qurulması işləri çərçivəsində sosial xidmətlər və reabilitasiya müəssisələrinin yaradılması təmin olunacaq.

Qeyd edək ki, dövlət başçısının sosial inkişaf strategiyasının nailiyyətlərindən biri kimi, Azərbaycanda reabilitasiya infrastrukturunun müasir tələblərə uyğun yenidən qurulması və eyni zamanda reabilitasiya müəssisələri şəbəkəsinin bölgələr üzrə genişləndirilməsi, reabilitasiya imkanlarının artırılması sahəsində mühüm işlər aparılır. 2019-cu ildə və bu ilin ötən dövründə Bakı, Yevlax, Naftalan, Lənkəran, Xaçmaz, Şəki, Şirvan şəhərlərində reabilitasiya müəssisələri əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. Bu ilin sonunadək Sumqayıt və Şağan Reabilitasiya müəssisələri də açılacaq. Uşaqlar üçün reabilitasiya mərkəzləri şəbəkəsinin genişləndirilməsi işləri çərçivəsində bu il Şəmkir və Qəbələ şəhərlərində Uşaq Reabilitasiya müəssisələri fəaliyyətə başlayacaq.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, işğaldan azad edilmiş ərazilərimizdə əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların əlçatan bərpa müalicə imkanlarına malik olması üçün həmin ərazilərdə də yeni reabilitasiya müəssisələrinin yaradılması nəzərdə tutulur. Qısa müddətdə inşa olunacaq müəssisələr müasir avadanlıqlarla da təchiz ediləcək. Bərpa müalicə prosedurlarının formalaşdırılmasında bölgənin yerli təbii müalicəvi resurslarından da səmərəli istifadə olunması diqqətdə saxlanılacaq.

Həmçinin sosial xidmət mərkəzləri şəbəkəsinin genişləndirilməsi işləri işğaldan azad edilən ərazilərimizi də əhatə edəcək. Həmin bölgələrdə tənha ahıl və əlilliyi olan şəxslərin evlərində sosial məişət xidmətləri ilə təminatı həyata keçirilməklə yanaşı, stasionar və yarımstasionar tipli sosial xidmət müəssisələri də yaradılacaq. Eyni zamanda dövlət sosial sifarişləri əsasında həmin ərazilərdə günərzi qayğı və icma əsaslı reabilitasiya xidmətləri göstərən mərkəzlərin qurulması təmin olunacaq.

Bakı, Göyçay və Gəncə şəhərlərində peşə hazırlığı mərkəzləri fəaliyyət göstərir və işğaldan azad edilmiş bölgələrdə də yaxın dövrdə regional peşə hazırlığı infrastrukturunun qurulması nəzərdə tutulur.

Bu istiqamətdə aparılacaq işlər, yaradılacaq müəssisələr həmin bölgələrimizdə reabilitasiya və sosial xidmətlər sisteminin qurulması ilə bərabər, yeni iş yerlərinin və məşğulluq imkanlarının artmasına da müsbət təsir göstərəcək.

# İşğaldan azad olunmuş ərazilərdə FHN-in növbəti yerli strukturları fəaliyyətə başlayıb




Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (FHN) işğaldan azad olunan ərazilərimizdə yerli strukturlarının təşkilini davam etdirir.

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin Şuşa şəhər, Cəbrayıl, Zəngilan və Qubadlı rayon Dövlət Yanğından Mühafizə hissələri müvafiq olaraq Şuşa, Cəbrayıl, Zəngilan və Qubadlı şəhərlərində fəaliyyətə başlayıb. Bütün hissələr xidmətin yüksək səviyyədə həyata keçirilməsi üçün müvafiq texnika və avadanlıqlarla təchiz edilib.

Xatırladaq ki, bundan əvvəl Dövlət Yanğından Mühafizə Xidmətinin Füzuli şəhərində və Xocavənd rayonunun Hadrut qəsəbəsində yerli strukturları fəaliyyətə başlamışdı.



# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

2020-ci ilin 10 noyabrı Azərbaycan tarixinə Böyük Qələbə günü kimi daxil oldu. Rusiya Federasiyasının bütün regionlarında yaşayan azərbaycanlılar bu şanlı Qələbəni və əzəli, tarixi Azərbaycan torpaqlarının işğaldan azad olunmasını bayram edirlər.

Bu şanlı Qələbəyə dahi Ümummilli Liderimiz Heydər Əliyevin layiqli varisi kimi Sizin müdrik, uzaqgörən siyasətiniz, böyük zəhmətiniz, iradə və qətiyyətiniz sayəsində nail olundu.

Ötən 30 il ərzində münaqişənin sülh yolu ilə nizama salınması üzrə danışıqlar prosesində iştirak etməyiniz bizim sülh tərəfdarı olduğumuzun əyani sübutudur. Zəbt edilmiş bütün Azərbaycan ərazilərindən işğalçıların dərhal, qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinə Ermənistan 27 il məhəl qoymamışdı. Lakin Ermənistan silahlı qüvvələrinin hərbi təxribatı şanlı və rəşadətli Ordumuzu məcbur etdi ki, işğal olunmuş torpaqlarımızı öz qüvvəmizlə, hərbi yolla azad etsin. Sizin komandanlığınız altında Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində Dağlıq Qarabağa bitişik bir çox əraziləri, eləcə də Azərbaycanın tarixi mədəniyyət mərkəzi olan Şuşa şəhərini azad etdi.

Rusiya Azərbaycanlılarının Regionlararası Assosiasiyasının Məşvərət Şurası adından parlaq Qələbəyə görə, həmçinin Azərbaycanın Prezidenti vəzifəsində apardığınız xarici siyasətə görə Sizə səmimi minnətdarlığımızı bildiririk.

Biz hamımız tarixi Azərbaycan torpaqlarını işğaldan fədakarlıqla azad etmiş igid oğullarımız və şəhidlərimiz qarşısında baş əyirik. Şəhidlərimiz bizim qəlbimizdə əbədi yaşayacaqlar. Biz onların igidliyini heç zaman unutmayacağıq!

Bu müharibə Azərbaycan xalqının iradəsini və öz Ali Baş Komandanı ətrafında sıx birləşdiyini nümayiş etdirdi. Tarixi ədalət zəfər çaldı və Azərbaycan xalqı öz tarixi torpaqlarına qayıtdı.

Yaşasın Azərbaycan!

*Hörmətlə,*

**Rusiya Azərbaycanlılarının Regionlararası Assosiasiyasının Məşvərət Şurası:**

**Əliyev Ramil Tariyel oğlu** - Moskva vilayəti İstra şəhərinin Yerli İctimai Təşkilatının sədri

**Kərimov Qasım Xanbala oğlu** - Kursk şəhərinin Azərbaycan Diasporunun sədri

**Məmmədov Ələddin Nəsib oğlu** - Zabaykalsk vilayəti "Azerbaydjan" Milli-Mədəni Muxtariyyəti Şurasının sədri

**Bədirov Əziz Məhərrəm oğlu** - Çuvaşiya Respublikası "Azərbaycan İcması" Regional İctimai Təşkilatının sədri

**Əliyev Cəmil Paşa oğlu** - Krasnodar diyarı "Azərbaycan diasporu" Regional İctimai Təşkilatının sədri

**Xankişiyev Ərşad Adı oğlu** - Çelyabinsk vilayəti "Azərbaycan" İctimai Təşkilatının prezidenti

**Ağamalıyev İsa Budaq oğlu** - Mari El Respublikası Milli-Mədəni İctimai Təşkilatının prezidenti

**İskəndərov Məmməd Hümbət oğlu** - "Azərbaycanlılar Birliyi" Xabarovsk İctimai Təşkilatı sədrinin müavini

**Məmmədov Məmmədcamal Allahverdi oğlu** - Nijni-Novqorod şəhəri "Azərbaycan İcması" Yerli İctimai Təşkilatının sədri

**Mehdiyev Mehdi İnşallah oğlu** - Azərbaycan mədəniyyətinin inkişafı üzrə "Edinistvo - Birlik" Varonej Regional Təşkilatının sədri

**Qasımov Tərlan Qasım oğlu** - Arxangelsk vilayəti Azərbaycanlılarının Regional Milli-Mədəni Muxtariyyətinin sədri

**Məmmədov Akif -** Kabardin-Balkar Respublikası Nalçik şəhər "Azeri" Milli-Mədəni Mərkəzinin sədri

**Kazımov Əli Əliyeviç** - Moskva şəhəri Oçakovo-Matveyevski rayonunun Azərbaycanlıların Milli-Mədəni Muxtariyyətinin sədri

**Paşayev Naib Barat oğlu** - Leninqrad vilayəti Azərbaycanlılarının Regional Milli-Mədəni Muxtariyyəti (RNKAA LO) sədri

**Musayev Asif Maqomedoviç** - Stavropol diyarı, Kislovodsk şəhər "Araz" Azərbaycan Cəmiyyətinin sədri

**Məmmədov Mirzə** - Başqırdıstan Respublikası "Azərbaycan diasporu" Regional İctimai Təşkilatının sədri

**Gülməmmədov Murtuz** - Şimali Osetiya-Alaniya Respublikası Azərbaycanlıları Konqresinin sədri

**Zeynalov Ramiz Yusif oğlu** - Primorsk vilayəti Azərbaycan Diasporu "Dostluq" İctimai Təşkilatının sədri

**Əfəndiyev Ramiz Mürsəl oğlu** - Kirov vilayəti "Azərbaycan İcması" Regional İctimai Təşkilatının sədri

**Qarayev Samir Nəriman oğlu** - Ryazan şəhəri "Azərbaycan Milli-Mədəni Muxtariyyəti" Yerli İctimai Təşkilatının sədri

**Zeynalov Təhmasib Şəmistan oğlu** - Stavropol diyarı Pyatiqorsk şəhəri "Araz" Azərbaycan İcması İctimai Təşkilatının sədri

**Niftəliyev Tofiq Fati oğlu** - "Araz" Azərbaycan Milli-Mədəni Cəmiyyəti Amur vilayəti İctimai Təşkilatının sədri

**Əliyev Faiq Zakiroviç** - "Smolensk vilayəti Milli Konqresi" Regional İctimai Assosiasiyası İdarə Heyətinin sədri

**Qasımov Fikrət Şövkət oğlu** - Azərbaycanlıların "Drujba" Milli-Mədəni Mərkəzi Kemerovo Regional İctimai Təşkilatının sədri

**Həbibov Hikmət İbad oğlu** - "Azərbaycan Milli-Mədəni Mərkəzi" Meqion şəhər Yerli İctimai Təşkilatının sədri

**İsayev Çingiz Mikayıl oğlu** - Perm diyarı "Azərbaycan Milli-Mədəni Muxtariyyət" Regional İctimai Təşkilatının sədri

**Şıxlinski Şahin Mütvəli oğlu** - Sverdlovsk vilayəti "Azərbaycan" İctimai Təşkilatının sədri

**Heydərov Şəhriyar Cabbar oğlu** - Rusiya Azərbaycanlılar İttifaqının Bryansk vilayətindəki nümayəndəsi

**Cəfərov Yusif Həsən oğlu** - Buryatiya Respublikası "Azərbaycan Mədəniyyət Mərkəzi" Regional İctimai Təşkilatının sədri

**Məsimov Yaşar Dursun oğlu** - Orenburq vilayətinin "Orenburq şəhər Azərbaycan Milli-Mədəni Muxtariyyəti" Yerli İctimai Təşkilatının sədri

**Babayev Rəhmətulla Ramazan oğlu** - "İnquşetiya Respublikası Azərbaycan Milli-Mədəni Muxtariyyəti" Regional İctimai Təşkilatının sədri

**Məmmədov Axverdi Osman oğlu** - "Odlar yurdu" Azərbaycan xalqının sosial-iqtisadi, mənəvi və mədəni inkişafına yardım Karaçay-Çerkez Regional İctimai Təşkilatının təsisçisi

**Mikayılov Akif Ümid oğlu** - Komi Respublikasının "Azərbaycan" Milli-Mədəni Muxtariyyəti Regional İctimai Təşkilatının sədri

**Əzizov Rakif Abbas oğlu** - Dağıstan Respublikasının Mahaçqala şəhərinin Azərbaycanlıların Milli-Mədəni Muxtariyyətinin sədri

**Hüseynov Ramazan Vəlimməmməd oğlu** - Kamçatka "Azeri" Azərbaycanlıların Milli-Mədəni Muxtariyyətinin sədri

**İbrahimov Fuad Tacəddinoviç** - Rostov vilayəti Taqanroq şəhəri "Dostluq" İctimai Təşkilatı sədrinin müavini, Dövlət Duması deputatının köməkçisi

**Mahmudov Qabil Əhməd oğlu** - Omsk vilayəti "Odlar yurdu" Regional İctimai Təşkilatının sədri

**Hümbətov Bəhruz Əli oğlu** - İjevsk şəhər Dumasının deputatı, "Udmurtiya "Dostluq" Azərbaycan İctimai Mərkəzi" Regional İctimai Təşkilatının sədri

**Hacıyev Namiq Cənnətəli oğlu** - "Rusiya Xalqları Assambleyası" Ümumrusiya İctimai Təşkilatının Oryol Regional bölməsinin təsisçisi

**Məmmədov Ramiz Mustafa oğlu** - Tatarıstan Respublikası Leninoqorsk şəhəri "Azərbaycan İcması" Yerli İctimai Təşkilatının sədri

**Paşayev Fəyaz Ələddin oğlu** - "Azərbaycanlılar Konqresi" Azərbaycanlıların Milli-Mədəni Muxtariyyəti Tver Regional İctimai Təşkilatının sədri

**Əhmədov Fərhad Nadir oğlu** - Stavropol diyarı Yessentuki şəhəri "Araz" Yerli İctimai Təşkilatının sədri

**Burcuyev Füzuli Musa oğlu** - Tümen vilayəti "Odlar yurdu" Azərbaycan Xalqlarının Birliyi İctimai Təşkilatının sədri

**Salayev Əlirza Qurbanəli oğlu** - "İrkutsk vilayəti Azərbaycanlılar Konqresi" İctimai Təşkilatının sədri

**Qasımov Şahvələd Muxtar oğlu** - Cənubi Saxalinsk vilayəti "Edinistvo" Azərbaycanlılar Konqresinin Regionlararası Assosiasiyası

**Yarıyev Fəxrəddin Sərraf oğlu** - "Odlar yurdu" Azərbaycan Milli-Mədəni Mərkəzi Stavropol diyar İctimai Təşkilatının prezidenti

**Seyidov Azad Ramazan oğlu** - Surqut şəhəri Azərbaycanlıların Milli-Mədəni Muxtariyyəti "Birlik" İctimai Təşkilatının sədri

**Qurbanov Elşad Ağagül oğlu** - Novqorod vilayətinin Tohid Salmanov adına "Bakineü" Azərbaycan Mədəniyyət Mərkəzi İctimai Birliyinin sədri.

❖ ❖ ❖

Hörmətli cənab Prezident, əziz qardaşım.

Ermənistanın ölkənizə hərbi təcavüzünə qarşı mübarizədə qazandığınız strateji, siyasi və hərbi qələbələriniz münasibətilə Sizi təbrik edirəm. Sizin rəhbərliyiniz və komandanlığınız ilə düşməni ağır itkilərə məruz qoyan Azərbaycan Silahlı Qüvvələri yenilməz olduğunu sübut etdi. Bütün bu qələbələr isə beynəlxalq hüquq çərçivəsində, mülki hədəflərə heç bir ziyan vurulmadan əldə edilib.

Qardaş Azərbaycan xalqının Ermənistan tərəfindən işğal olunmuş ərazilərinin azad olunmasını bayram kimi qeyd etməyə hər cür haqqı var. Türkiyə xalqı erməniləri torpaqlarınızdan qovub çıxarmaqla bağlı ölkənizin ədalətli və haqlı mövqeyinin müdafiəsində daim Sizin yanınızda olub. Həmişə inanmışam ki, qarşı tərəfdən həm sərt, həm də yumşaq güc baxımından üstün olsanız qalib gələcəksiniz. Siz təcavüzkar Ermənistanı məğlub etməklə Türk millətinə də böyük hədiyyə etdiniz. Buna görə Sizə minnətdarıq.

Biz dünya ictimaiyyətinə bununla bağlı mesajlarımızı çatdırmaq məqsədilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzində çox vacib onlayn müzakirələr təşkil edir və birgə bəyanatlar yayırıq. Mərkəzdə fəaliyyətimizi əlaqələndirmək üçün həmsədrlərimiz və Baş katibimizlə gündəlik olaraq əlaqə saxlayırıq. Səkkiz il ərzində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin inkişafının və beynəlxalq səviyyədə tanınmasının şahidi olmuşam. Bütün bunlar məhz Sizin dəstəyiniz və sadiqliyiniz, eləcə də həmsədrlərimizin fədakarlığı sayəsində mümkün olub.

İndi Dağlıq Qarabağın Azərbaycanın bir hissəsi kimi hüquqi statusunu bərpa etmək istiqamətində çalışaraq qələbələrinizi möhkəmləndirməyin vaxtıdır. Bu, Sizin Ermənistanın son hərbi təcavüzünə qarşı məharətlə nümayiş etdirdiyiniz müdrik diplomatiyanın davamı olacaqdır. Rusiya Federasiyasının vasitəçiliyi ilə əldə edilmiş hərtərəfli atəşkəs razılaşması ölkənizə bütün torpaqlarınızı, nəhayət, geri qaytarmaq imkanı verir.

Bütün dualarımız və düşüncələrimiz Sizinlədir. Qoy, Sizin müdrik rəhbərliyiniz Azərbaycanı azadlıq, ədalət və tərəqqi yolunda yeni zirvələrə doğru irəli aparmaqda davam etsin.

*Ən xoş arzularla,*

***Hikmət ÇƏTİN,***
***1991-1994-cü illərdə Türkiyənin xarici işlər naziri,***
***Türkiyə Böyük Millət Məclisinin 20-ci sədri,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan.

Sizin dərin zəkanız, uzaqgörənliyiniz, müdrikliyiniz, siyasi və diplomatik məharətiniz, polad iradəniz, rəşadətli, şanlı Ordumuzun igidliyi, qəhrəmanlığı və peşəkarlığı, xalqımızın birliyi və dəstəyi sayəsində əldə olunmuş tarixi Qələbə və zəfər münasibətilə Sizi Monteneqroda yaşayan azərbaycanlılar adından böyük qürur və sevinc hissi ilə təbrik edirəm.

Böyük Sərkərdə və Lider kimi Sizin rəhbərliyinizlə qazanılan bu zəfər tarix kitablarına qızıl hərflərlə yazılacaq. Mənfur və məkrli düşmənin ən azı iki əsrlik bütün planları puç oldu, Azərbaycan xalqının isə hələ də yuxu kimi görünən arzuları çin oldu.

Sizi özünün siyasi varisi hesab edən Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" sözləri yalnız Onun kimi bir dühanın bu qədər dəqiq uzaqgörənliyi ola bilərdi. Siz dahi Liderin həm vəsiyyətini yerinə yetirdiniz, həm də Sizə olan inamını hər kəsə sübut etdiniz.

Azərbaycan xalqının sındırılmış qürurunu, mənliyini, kimliyini geri qaytardınız, əzəli torpaqlarımızı düşmən tapdağından qurtardınız, müstəqilliyimizin və suverenliyimizin atributu olan ərazi bütövlüyümüzü bərpa etdiniz, əsrlərboyu xalqımıza təlqin olunan məğlubiyyət, inamsızlıq və ümidsizlik sindromunu darmadağın edərək, uşağından yaşlısına hər birimizə qürurlu və sevincli anlar yaşatdınız. Azərbaycan dövlətinin və xalqının gücünü və mərhəmətini bütün dünyaya göstərdiniz.

Bu, Vətən müharibəsində dini və milli mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarımızın torpaqlarımızın azad olunmasında iştirakı və bir yumruq kimi Sizin ətrafınızda birləşməsi isə Azərbaycançılıq ideyasının növbəti təntənəsi oldu və düşmənlərimizin ölkəmizdə dini və milli nifaq yaratmaq planlarını da birdəfəlik alt-üst etdi.

Sizin xarici ölkələrin kütləvi informasiya vasitələrinə müsahibələrinizi, xüsusilə də dövlətimizə qarşı qərəzli münasibət sərgiləyən mətbuat nümayəndələri ilə dialoqlarınızı, tutarlı və kəskin cavablarınızı, onları susdurmağınızı, informasiya cəbhəsini yararaq Azərbaycanın haqlı mövqeyini dünyaya çatdırmağınızı da böyük qürur və iftixar hissi ilə izləyirdik.

Müraciətlərinizdə bir neçə dəfə ürəkdən kövrəlməyiniz də nəzərimizdən qaçmadı. Bu hissləri yalnız Vətənini və xalqını, həqiqətən də, ürəkdən sevən və ona bağlı olan insan yaşaya və yaşada bilər. Sizin bu müharibə günlərində inamlı çıxışlarınız, xalqın dilində əzbərə çevrilmiş və düşməni mənəvi və psixoloji cəhətdən gündən-günə rəzil edən ifadələriniz və kəlamlarınız da həm Ordumuzun, həm də insanlarımızın ruh yüksəkliyini daha da artırırdı və qələbəyə inamını möhkəmləndirirdi.

Ordumuz düşməni döyüş meydanında layiq olduqları kimi qovduğu halda, Siz də düşmənlərimizi siyasət və diplomatiya meydanında diz çökdürdünüz. Biz çox gözəl anlayırıq ki, sentyabrın 27-də başlamış əks-hücum əməliyyatlarının və döyüşlərin dayandırılması ilə bağlı hər cür siyasi təzyiqlərə mərdliklə, cəsarətlə və məharətlə sinə gərərək, qazandığınız hər bir əlavə gün və bəlkə də saat ordumuzun daha da irəliləməsini təmin edirdi və bu, Şuşa uğrunda inanılmaz qələbə ilə nəticələndi. Siz əcdadlarımızdan dərin və acı yara kimi miras qalan Qarabağ düyününü kökündən həll etdiniz və gələcək nəsillərə başıuca, alnıaçıq, qürurlu, məğrur bir dövlət bəxş etdiniz. Bu tarixi qələbə o qədər möhtəşəm və böyükdür ki, bəlkə də ictimaiyyət hələ də onu tam qavraya bilmir. Bu qələbənin əhəmiyyəti illər, on illiklər keçdikcə daha da artacaq.

Bu tarixi qələbə Sizin "Nəyi, necə və nə vaxt etməyi mən yaxşı bilirəm" sözlərinizin də qəti və birmənalı təsdiqi oldu. Xalqımızın Sizə olan inamı sonsuzdur.

Rəhbərliyinizlə qazanılan bu Qələbə Azərbaycanı oyatdı, yenidən yaratdı, yatmış vulkanı ayağa qaldırdı. Bu böyük oyanış, böyük qurtuluş, dirçəliş və geri dönüşdür, özünüdərkdir! Bu günləri bizə yaşatdığınız üçün Sizə və Ordumuza nə qədər təşəkkür etsək, xoş sözlər yazsaq, azdır. Bu hissləri sözlərə sığışdırmaq mümkün deyil.

Əgər siyasət mümkün olanı əldə etmək sənətidirsə, mümkünsüz olanı əldə etmək artıq siyasət deyil, dahilik və qəhrəmanlıqdır!

Mənfur düşmənlərimiz təhrif olunmuş tarix yazarkən, əsl tarix yaradan Müzəffər Ali Baş Komandanımızın və rəşadətli Ordumuzun miras qoyduğu Yeni Azərbaycanımız mübarək olsun!

*Dərin ehtiramla,*

***Seyran MİRZƏZADƏ,***
***Azərbaycan-Monteneqro İqtisadi və Mədəni Əlaqələr Mərkəzinin direktoru***

*Monteneqro, Podqoritsa şəhəri.*

❖ ❖ ❖

Allahın salamı, rəhməti və bərəkəti üzərinizə olsun!

Müsəlman Alimləri Beynəlxalq Birliyi böyük qələbə xəbərini - Qarabağın Ana Vətənin qoynuna, əsl sahibinə qayıtması xəbərini böyük xoşbəxtlik və məmnunluq hissi ilə almışdır. Biz bu xoş hadisə münasibətilə Sizi öz adımızdan, eləcə də özündə on minlərlə islam alimi və onlarca islam alimləri birliklərini cəmləşdirən Müsəlman Alimləri Beynəlxalq Birliyi təşkilatının Sədrliyi, Baş katibliyi və üzvləri adından təbrik edirik. Eyni zamanda mücahid Azərbaycan xalqına, bütün alimlərə, möhtərəm dövlətinizə və rəşadətli Ordunuza salamlarımızı çatdırırıq.

Dünyanın hər yerində islam ümmətinin xidmətində olmaqda davam edən Müsəlman Alimləri Beynəlxalq Birliyi islam ümməti və bəşəriyyətə daha çox xidmət etmək naminə təşkilatımızla bərəkətli ölkəniz arasında əməkdaşlıq və tərəfdaşlığın dəstəklənməsinə ümid edir.

Birliyimiz Azərbaycan Respublikasını dəstəkləyən bəyanat və açıqlamalar vermiş, Azərbaycanın Qarabağı qaytarmaqla bağlı ədalətli haqqını dəstəkləmişdir. Bununla yanaşı, işğal edilmiş bütün ərazilərdən dərhal çəkilmək, Azərbaycanın haqqını etiraf etmək və Azərbaycanın öz torpağı üzərindəki hüquqlarını bərpa etmək üçün danışıqlara başlamaqla bağlı Ermənistana çağırışlar etmişik. Problemin köklü və son həlli, davamlı sülhün və əmin-amanlığın bərqərar olması məhz bundan keçir.

Sonda Uca Allahdan zati-alinizə müvəffəqiyyətlər və uğurlar arzulayır, sevdiyi və razı qaldığı, əziz xalqınızın və islam ümmətinin xeyrinə olan işlərdə Sizə kömək göstərməsini diləyirik.

Allahın salamı, rəhməti və bərəkəti üzərinizə olsun!

*Hörmətlə,*

***Dr. Əhməd bin Əbdüssəlam Ər-RAYSUNİ,***
***Müsəlman Alimləri Beynəlxalq Birliyinin sədri,***

***Dr. Əli Muhyiddin Əl-QARADAĞİ,***
***Birliyin baş katibi***

*Qətər Dövləti, Doha şəhəri*

# Muxtar respublikanın torpaq və su ehtiyatlarından səmərəli istifadə edilir

## Kəngərli rayonunda yeni qapalı suvarma şəbəkəsi qurulub

Ümummilli Liderimiz Heydər Əliyev deyib: "Azərbaycanın kənd təsərrüfatı potensialı - torpaqlarımız, hava, su kənd təsərrüfatı məhsulları istehsalının sürətlə artırılmasına yönəldilməli, bundan səmərəli istifadə olunmalıdır".



Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bütün sahələri ilə yanaşı, kənd təsərrüfatının inkişafı da diqqətdə saxlanılır. Muxtar respublikada torpaq ehtiyatlarından düzgün istifadə olunur, meliorativ tədbirlərin həcmi genişləndirilir, mütərəqqi suvarma şəbəkələri qurularaq istifadəyə verilir. Naxçıvanda torpaq və su ehtiyatları kompleks şəkildə əkinçiliyin inkişafına yönəldilir. Uzun müddət suvarılmayan torpaq sahələrindən bol məhsul götürülür, əhalinin məşğulluğu və rifahı yaxşılaşdırılır. Son illər muxtar respublikanın Babək, Culfa, Kəngərli və Şahbuz rayonlarında dövlət vəsaiti hesabına 5 min hektardan artıq qapalı suvarma şəbəkələri qurularaq sakinlərin istifadəsinə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, noyabrın 16-da Kəngərli rayonunun Böyükdüz kəndində yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Məlumat verilib ki, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 810 hektar əkin sahəsini əhatə edən qapalı suvarma şəbəkəsinin tikintisi yerli mütəxəssislər tərəfindən qısa müddətdə və keyfiyyətlə aparılıb. Su sahələrə Araz Su Anbarından qidalanan nasos stansiyası vasitəsilə vurulur və öz axını ilə şəbəkəyə ötürülür. Ərazidə 6100 metr ana xətt, uzunluğu 79 min 287 metr olan paylayıcı suvarma şəbəkəsi çəkilib, 763 hidrant və 3 istiqamətdə çıxışı olan dəmir-beton hovuzları quraşdırılıb. Boru xəttinin deformasiyasına qarşı 15 temperatur kompensatoru quraşdırılıb. Suyun sahəyə növbə ilə verilməsini təmin etmək üçün xətlərin üzərində 131 siyirtmə qoyulub. Həmçinin bildirilib ki, Kəngərli rayonu ərazisində "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus 339 hektar sahədə də yeni qapalı suvarma şəbəkəsi qurulacaqdır. Ərazidə 40 kilometrə yaxın boru xətti çəkiləcək, 251 hidrant qoyulacaq, drenaj və kollektorlar quraşdırılacaqdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qapalı suvarma şəbəkəsinin qurulması və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması münasibətilə tədbir iştirakçılarını təbrik edərək deyib: "Yeraltı şəbəkənin qurulması ərazidəki torpaqların əkin dövriyyəsinə qatılmasını təmin etmişdir. Kəngərli rayonunda işlərə 2015-ci ildən başlanılmış və 2 min hektara yaxın ərazidə qapalı suvarma şəbəkəsi qurulub istifadəyə verilmişdir. Torpaqların əkin dövriyyəsinə qatılması muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmin olunmasına mühüm töhfədir. Eyni zamanda yeni iş yerləri açılır, ailələrin yaşayışı yaxşılaşır, ən əsası isə muxtar respublikada məhsul bolluğu yaradılır. Görülən işlər yalnız "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin deyil, həm də bələdiyyə və dövlət mülkiyyətinə aid olan torpaqların da su təminatını yaxşılaşdıracaqdır. 810 hektarın 574-ü "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin, 46 hektarı bələdiyyə, 190 hektarı isə dövlət mülkiyyətinə məxsus torpaqlardır. Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlar da icarəyə götürülərək əkiləcəkdir. Artıq bu torpaqların bir hissəsində əkin işləri aparılır. Həmçinin ərazinin davamlı su təminatını yaxşılaşdırmaq üçün Araz çayı üzərində müasir nasos stansiyası tikilir. Həmin nasos stansiyası istifadəyə verildikdən sonra əlavə 1000 hektara yaxın torpaq sahəsi də əkin dövriyyəsinə qatılacaqdır".

Ali Məclisin Sədri deyib ki, su təminatı, əkinəyararlı və bərəkətli torpaqlar olan yerdə inkişaf təmin olunur və ərzaq bolluğu yaranır. Çünki ölkə iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Əgər bu sahədə işlər düzgün qurularsa, o zaman iqtisadiyyat da inkişaf edəcəkdir. İqtisadiyyatın lokomotivi isə kənd təsərrüfatıdır. Ona görə aqrar sahənin inkişafı daim diqqət mərkəzindədir. Hər il qurulan qapalı suvarma sistemləri, nasos stansiyaları, eləcə də müxtəlif suvarma metodlarından - damcı və çiləmə üsullarından istifadə muxtar respublikada müasir suvarma şəbəkələrinin yaradılmasına imkan vermişdir. Müasir suvarma şəbəkələri məhsuldarlığın və gəlirlərin artması, torpaqların şoranlaşmasının qarşısının alınması və yeni iş yerlərinin yaradılması deməkdir. Torpaqların əkin dövriyyəsinə qatılması ailə təsərrüfatlarının inkişafına da böyük dəstək verəcəkdir.

Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsinin tikintisinin yerli mütəxəssislər tərəfindən keyfiyyətlə aparıldığını bildirib, bu işdə əməyi olanlara təşəkkür edib.

Böyükdüz kənd sakini Qılman Əhmədov göstərilən qayğıya görə sakinlər adından Ali Məclisin Sədrinə minnətdarlıq edərək deyib: "Bu gün qədim diyarımızın bütün bölgələri abadlaşır, yeni məktəblər, sosial obyektlər tikilərək sakinlərin istifadəsinə verilir. Ordu quruculuğuna muxtar respublikada göstərilən diqqət və qayğının nəticəsidir ki, Ali Baş Komandan cənab İlham Əliyevin də dediyi kimi, naxçıvanlılar Vətən müharibəsində də böyük qəhrəmanlıq və şücaət göstəriblər. Bu, çox qürurvericidir. Mən kənd sakinləri adından Ali Məclisin Sədrini qələbə münasibətilə təbrik edirəm. Kəngərli də yarandığı dövrdən böyük inkişaf yolu keçib. Qısa zamanda rayonunun bütün kəndləri abadlaşdırılıb, yollar salınıb. İnsanların rahat yaşayışı təmin edilib. Kəngərli rayonu aqrar bölgə olduğundan burada kənd təsərrüfatının inkişafı daim diqqətdə saxlanılıb. Torpaqların su təminatının yaxşılaşdırılması, xüsusilə istifadəyə verilən qapalı suvarma şəbəkələri Böyükdüz, Xok və Yurdçu kəndlərində əkinçiliyin inkişafına səbəb olub. Böyükdüz kəndinin sakinləri əsasən əkinçilik və heyvandarlıqla məşğul olurlar. Əvvəllər yem ehtiyatını qonşu kəndlərin hesabına təmin edirdik. Lakin torpaqların su təminatının yaxşılaşdırılması əkin sahələrinin genişləndirilməsi ilə yanaşı, bol yem ehtiyatı da yaradıb".

Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsinin tikintisində iştirak edənləri hədiyyələrlə mükafatlandırıb.

Sonra Ali Məclisin sədri qapalı suvarma şəbəkəsini işə salıb və ərazidə qoruyucu yaşıllıq zolaqlarının salınması, qapalı suvarma şəbəkələri tikilərkən kollektor və drenaj sistemlərinin qurulmasına diqqət yetirilməsi, Tivi və Külüs kəndlərində yeni qapalı suvarma şəbəkələrinin layihələrinin hazırlanması barədə tapşırıqlar verib.

* * *

Muxtar respublikada torpaqlarımız qorunmaqla yanaşı, həm də əkilir. Çünki ordu ölkənin müdafiə təhlükəsizliyini, kənd təsərrüfatı isə iqtisadi təhlükəsizliyini təmin edir. Hazırda Naxçıvan Muxtar Respublikasında yerli istehsalın həcminin artması, daxili tələbatın ödənilməsi və kənd təsərrüfatı məhsullarının ixrac potensialının yaradılması son 25 ildə həyata keçirilən aqrar islahatların bəhrəsidir. Böyükdüz kəndinin torpaq sahələri də uzun müddət əkin dövriyyəsindən kənarda qalmışdı. Lakin 2015-2020-ci illərdə kəndin torpaqlarında 2 min hektara yaxın qapalı suvarma şəbəkəsi tikilib, "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti üçün əkin sahəsi ayrılıb. Vaxtilə əkilməyən bu torpaqlar hazırda muxtar respublikanın toxuma olan tələbatını ödəyir. Eyni zamanda kənd sakinləri bol məhsul istehsal edirlər. Bütün bunlar isə iqtisadi inkişafın mühüm göstəricisi olmaqla yanaşı, həm də torpağa sahiblik və bağlılıq nümunəsidir.



## 17 Noyabr Milli Dirçəliş Günüdür



# Azərbaycanı ucaldan Qələbə

## İlham Əliyev həm də 32 il əvvəlki dirçəliş hərəkatının hədəflərini tam reallığa çevirdi

*Əvvəli 1-ci səh.*

Milli dirçəliş hərəkatı da bu antimilli fəaliyyətə qarşı etirazlardan yaranmış və istiqlal uğrunda mücadilə əsas tələbə çevrilmişdi. Lakin hərəkatın rəhbərlərinin bununla bağlı təkmil ideyaları yox idi. Hər kəs başa düşürdü ki, yalnız yüksək amallara xidmət edən bir milli ideya bu gün haqqında hər birimizin böyük qürur hissi ilə danışdığımız müstəqil və güclü Azərbaycan dövlətini ərsəyə gətirə bilərdi. İnsanlar getdikcə daha dərindən əmin olurdular ki, həqiqi liderə böyük ehtiyacları var.

Tarix sübut edib ki, xalqların və dövlətlərin taleyində böyük şəxsiyyətlərin, həqiqi liderlərin və siyasətçilərin müstəsna rolu olub. Ötən əsrin 80-ci illərinin sonunda belə tarixi şəxsiyyətin və siyasətçinin Heydər Əliyev olduğu Azərbaycan ictimaiyyəti tərəfindən birmənalı qəbul olunurdu. Bunu ovaxtkı ittifaq və respublika rəhbərliyi də aydın dərk edirdi. Ona görə də dahi siyasətçini siyasi təqiblərə, əsassız böhtanlara məruz qoyur, xalqın onun ətrafında birləşəcəyindən qorxur, Azərbaycana qayıdaraq siyasi fəaliyyətlə məşğul olmasına əngəllər törədirdilər.

### Heydər Əliyev istiqlal mücadiləsini yeni mərhələyə yüksəltdi

Mənəvi və siyasi təqiblərə və əngəllərə sinə gərən Heydər Əliyevin 1990-cı ildə Azərbaycana qayıdışı milli azadlıq hərəkatında yeni keyfiyyət dəyişikliklərinin əsasını qoydu. Cəsarətlə milli mübarizə meydanına atılan Ulu Öndər Azərbaycanın müstəqilliyinin əldə olunmasında, milli dövlətçiliyinin yaşadılmasında, milli birliyinin qorunub saxlanılmasında tarixi missiya həyata keçirdi. Bu mənada Azərbaycanda dövlət müstəqilliyi yolunda mücadilə 1988-ci ildə xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər Heydər Əliyevin Azərbaycana qayıdışından sonra cərəyan etdi. 1990-cı ilin bu günündə - noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə öz işinə başlayan Naxçıvan Ali Məclisinin sessiyası tariximizdə Azərbaycan dövlətçiliyinin dirçəlişi prosesinin həyata keçirilməsi ilə bağlı məsələlərin müzakirə olunması, Azərbaycanı müstəqilliyə aparan yolda tarixi qərarların qəbul edilməsi ilə əlamətdar oldu.

Tarix sübut etdi ki, 1990-cı ildən başlayaraq SSRİ-nin və kommunist idarəçiliyinin perspektivsizliyi, Azərbaycanın müstəqil, demoktatik dövlət qurmasının mümkünlüyü və mütləqliyi haqqında Heydər Əliyevin uzaqgörən bəyanatları, bunu əsaslandıran siyasi baxışları öz işini gördü, gələcək proseslərin gedişinə həlledici təsir göstərdi.

Moskvadakı avqust hadisələrindən dərhal sonra Naxçıvan ərazisində Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi. Bu proses bütün Azərbaycana sirayət etdi və beləliklə, sovet hakimiyyət orqanları xalqın əzmi qarşısında geri çəkilməli oldu. Proseslərin gedişatı göstərirdi ki, respublika rəhbərliyi xalqın milli azadlıq mübarizəsinin, müstəqil və demokratik dövlətçilik hərəkatının qarşısında tab gətirmək iqtidarında deyil. Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il avqustun 30-da növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul etmək məcburiyyətində qalması faktı bu həqiqəti bir daha sübut etdi. Ali Sovetin 1991-ci il 30 avqust tarixli iclasında bəyanatla yanaşı, "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Konstitusiya Aktının layihəsini iki həftə müddətində hazırlamaq barədə qərar qəbul edildi. Lakin respublika rəhbərliyi bu prosesi iki aya yaxın ləngitdi. Siyasi hakimiyyət Heydər Əliyev və Azərbaycan xalqının müstəqil və demokratik dövlətçilik uğrunda apardıqları mübarizənin qarşısında tab gətirə bilməyərək 1991-ci il oktyabrın 18-də nəhayət ki, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının" qəbul edilməsinə razılıq verdi. 1991-ci il oktyabrın 19-da Azərbaycan Ali Sovetinin sessiyasına ünvanladığı müraciətdə bu hadisəni yüksək qiymətləndirən Heydər Əliyev yazırdı: *"Biz bu gün xoşbəxtik ki, nəhayət, Azərbaycan Respublikasının ali hakimiyyət orqanı milli azadlıq niyyətlərimizin həyata keçirilməsi üçün ilk addım atdı".*

1991-ci il 18 oktyabrda Dövlət Müstəqilliyinin elan olunması Azərbaycanın yeni intibahının bünövrəsi demək idi. Fəqət müstəqilliyin ilk illərində hakimiyyətdə olan qüvvələr Konstitusiya Aktının prinsiplərinə əməl edə bilmədilər. O zamanlar hakimiyyətdə olan siyasi dairələrin səriştəsizliyi az qala bu müstəqilliyin də məhv olmasına gətirib çıxaracaqdı. 1991-1993-cü illərdə hakimiyyətdə olanlar yeni yaranan müstəqil dövlətçiliyin möhkəmlənməsi üçün nəinki bir iş görmədilər, əksinə ölkəni dünyada gedən bütün proseslərdən uzaq salaraq təklənməsinə, təcrid olunmasına xidmət göstərdilər. Bütün bunlar isə nəticə etibarilə müstəqilliyin məhvinə aparırdı. Belə bir vəziyyətdə Azərbaycan vətəndaşlarının mütləq əksəriyyətinin tələb və istəyi ilə hakimiyyətə gələn xalqımızın böyük oğlu Heydər Əliyev müstəqil dövlətçiliyimizi, suverenliyimizi bütün təhlükələrdən, təhdidlərdən xilas etdi. 1993-cü ilin iyunundan dövlətimizin idarəçilik sükanının arxasına keçən Heydər Əliyev xilaskarlıq missiyasını müdrikliklə, yenilməz iradə, qətiyyət və böyük uzaqgörənliklə yerinə yetirməyə başladı. Ölkədə formalaşmağa başlayan yeni siyasi kurs vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, separatçılıq meyillərinə son qoydu, ən əsası Azərbaycanın dövlət müstəqilliyini təmin etdi.

### Ermənistana elə bir zərbə vuruldu ki…

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi Ulu Öndər Heydər Əliyevin ideyalarının başlıca qayəsini təşkil edir. Son 17 ildə ölkəmizdə həyata keçirilən siyasi kursun mahiyyətində məhz bu amil dayanır. Prezident İlham Əliyev dərin məzmunlu və çoxşaxəli siyasi kursu ilə müstəqilliyimizi daha möhkəmləndirib. Ən əsası da odur ki, indi Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır.

Bu siyasətin nəticəsi olaraq Azərbaycan hazırda dünyada söz sahibi olan dövlətlərdəndir. Eyni zamanda Cənubi Qafqazın lideri statusunu daşıyır. Tam müstəqil siyasət yürütməsi də respublikamızın beynəlxalq imicinə müsbət təsir edən əsas amillərdəndir. Vətən müharibəsindəki Qələbə isə Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmlənməsində, nüfuzunun yüksəlməsində böyük rol oynadı.

Bu qələbə həm də vaxtilə milli istiqlal hərəkatında xalqımızın səsləndirdiyi arzu və istəklərin həyata vəsiqə almasıdır. Prezident İlham Əliyev bu qələbə ilə ermənilərin bütün iddialarının qarşısını birdəfəlik aldı. İlham Əliyevin Ali Baş Komandanlığı ilə ordumuz Ermənistana elə bir zərbə vurdu ki, bu ölkə bir daha işğal siyasəti yürüdə və Azərbaycana qarşı iddia ilə çıxış edə bilməyəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanın xalça sənətinin UNESKO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına salınmasının 10 illiyi münasibətilə tədbir keçirilib

Noyabrın 16-da Azərbaycan Milli Xalça Muzeyində Azərbaycanın ənənəvi xalçaçılıq sənətinin UNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsinin 10 illiyi münasibətilə tədbir keçirildi. AZƏRTAC xəbər verir ki, tədbirdən əvvəl Vətən müharibəsində həlak olan şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Muzeyin direktoru Şirin Məlikova şanlı qələbəmiz münasibətilə tədbir iştirakçılarını təbrik edib. Bildirib ki, tədbir çərçivəsində "Azərbaycan Milli Xalça Muzeyi təcrübəsində boyanmamış yundan toxunan xalçalar" layihəsinin təqdimatı olacaq. Təqdim olunan layihə çərçivəsində Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasında qorunan beş klassik xalçanın - "Şamaxı", "Xiləbuta", "Xətai", "Əjdahalı", "Naxçıvan" xalçalarının təbii yunun öz rəngindən istifadə edərək replikaları toxunub. Xalçatoxumada bu ən erkən texnoloji üsul sayılır. Təbii boyaq maddələri ilə boyanma prosesi başlanandan sonra bu üsuldan daha az istifadə olunurdu. Müasir dövr Azərbaycan xalçaçılığında ilk dəfə tanınmış xalçaçı-rəssam Cəfər Müciri yunun öz təbii rənglərinin müxtəlif çalarlarından məharətlə istifadə edərək yaratdığı XVII əsrdə yaşayıb-yaratmış şair Saib Təbriziyə həsr etdiyi xalça hazırda Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasında saxlanılır. Yunun öz təbii rəngindən istifadə edilərək toxunulan xalçalar görünüşünə və bədii xüsusiyyətlərinə görə ilk baxışdan diqqəti cəlb edir. Azərbaycanda xalçaçılıq sənətində Mazex, Qarabağ və Bozax cinsli qoyunların yunlarından istifadə edilir.

Qeyd edək ki, bu layihə Azərbaycan Milli Xalça Muzeyinin Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramının 7.1.2. (Ənənəvi çeşnilər əsasında və bölgələrin ənənələrinə uyğun naxış və rəng ahənginin seçilməsi yolu ilə xalq sənətkarlarının bədii və texniki iş üsullarının öyrənilməsi və təbliği) bəndinin icrası ilə bağlı həyata keçirdiyi tədbirlərdən biridir.

Tədbirdə mədəniyyət nazirinin birinci müavini, nazirin vəzifələrini müvəqqəti icra edən Anar Kərimov Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qazandığı Qələbə münasibətilə hər kəsi təbrik edib. Ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarına Allahdan rəhmət diləyib.

Anar Kərimov Azərbaycanın ənənəvi xalçaçılıq sənətinin UNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsinin 10 illiyi münasibətilə qonaqları və bu sahədə çalışanları təbrik edərək onlara yaradıcılıq uğurları arzulayıb. Diqqətə çatdırıb ki, Azərbaycanda xalçaçılığın tarixi çox qədimdir. Onun ilk nümunələrinin meydana gəldiyi dövr eramızdan xeyli əvvələ təsadüf edir. Azərbaycan mədəniyyətində xalça sadəcə bir ev bəzək elementi deyil, o həm də bir-birini əvəz edən tarixi dövr və üslubları cəmləşdirərək bədii zövqün və mentalitetin özünəməxsusluğunu əks etdirir. Bu səbəbdəndir ki, hər zaman dəyərli qonaqlara qiymətli xalçalar hədiyyə edilmişdir.

"Tarixboyu zaman-zaman işğala məruz qalan ölkəmizin əsrlərlə yaşı olan maddi-mədəni nümunələri, o cümlədən xalçalar qarət edilmiş və xarici ölkələrə aparılmışdır. Sevindirici haldır ki, bu istiqamətdə mühüm irəliləyişlər vardır. Belə ki, muzeylər tərəfindən xarici muzeylərlə əməkdaşlıq əlaqələri qurulur, birgə fəaliyyətlə bağlı memorandumlar imzalanır. Azərbaycan Milli Xalça Muzeyi də öz növbəsində bu istiqamətdə mühüm işlər görür.

Dövlətimiz tərəfindən daim diqqət və qayğı göstərilən xalçaçılıq sənətinin inkişafı, beynəlxalq arenada tanıdılması, dünya şöhrətli muzeylərdə qorunan Azərbaycan xalçalarına düzgün atribusiyanın verilməsi, xarici hərrac və auksionlarda satışa çıxarılan xalçalarımızın alınaraq ölkəmizə geri qaytarılması istiqamətində xüsusilə son 10 ildə böyük işlər görülmüşdür. Belə ki, "Azərbaycanın ənənəvi xalçaçılıq sənəti" 2010-cu ildə UNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir. Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən 2017-ci ildə 20-dən çox ölkədən mütəxəssislərin iştirakı ilə "Ənənə və innovasiyalar" mövzusuna həsr olunmuş Azərbaycan xalçası üzrə V Beynəlxalq simpozium keçirilmişdir.

Dövlət başçısı tərəfindən imzalanmış "Azərbaycan Respublikasında xalça sənətinin qorunması və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar çox əhəmiyyətli nailiyyətlər əldə edilib və bu sahədə işlər müvəffəqiyyətlə davam etdirilir.

Heydər Əliyev Fondu tərəfindən, xüsusilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və dəstəyilə UNESKO-nun baş qərargahında və xarici ölkələrdə Azərbaycan xalça sənətinin təbliği məqsədilə çoxsaylı layihələr reallaşdırılır. Belə ki, cari il yanvarın 29-da Heydər Əliyev Fondunun təşkilatçılığı ilə UNESKO-nun baş qərargahında "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı sərgi keçirilmişdir",-deyə Anar Kərimov vurğulayıb.

Hazırda xalqımızın böyük qürur və iftixarla şanlı qələbə tarixini yaşadığını qeyd edən natiq Qarabağda vaxtilə mövcud olan muzeylərin və muzey filiallarının bərpasına başlanılacağını bildirib. İllərdir doğma məkanından uzaq düşən Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialı da öz vətəninə qayıdacaq və 30 ilə yaxındır qəribçilik həyatı yaşayan xalçalar öz doğma yurdunda sərgilənəcəkdir.

Anar Kərimov çıxışının sonunda yaxın zamanlarda dünya hərraclarında Azərbaycana məxsus iki Qarabağ xalçasının da əldə edilərək vətənə qaytarılacağını diqqətə çatdırıb və bildirib ki, XVIII-XIX əsrə aid olan bu xalçalar Xalça Muzeyinə gətirildikdən sonra geniş ictimaiyyətə təqdim olunacaq.

Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri - UNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının Baş katibi Elnur Sultanov çıxış edərək deyib ki, Qarabağ özünün Quruçay mədəniyyəti ilə, Şuşa qalası və zəngin tarixi-mədəni abidələri ilə Azərbaycanın qədim tarixinin simvoludur. Qarabağ bəşəriyyətin incilərindən hesab olunan və UNESKO tərəfindən irs siyahılarına daxil edilmiş Azərbaycan muğamının, tarımızın, kamanımızın, xalça sənətimizin, çovqan oyunumuzun və bir çox digər qeyri-maddi mədəni irs nümunələrimizin əsrlərcə yaşadıldığı bir məkandır: "Bu irs nümunələrindən biri kimi Azərbaycan xalçaçılıq sənəti 10 il öncə UNESKO tərəfindən Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısına daxil edilmişdir. Xoş təsadüfdür ki, xalçaçılıq sənətimizin 10 illik yubileyi həm də UNESKO-nun yaradılmasının 75 illik yubileyinə təsadüf edir. Azərbaycan 1992-ci ildən təşkilatın üzvüdür. Azərbaycan-UNESKO əməkdaşlığının əsası xalqımızın Ulu Öndəri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi siyasəti hazırda dövlət başçısı tərəfindən uğurla davam etdirilir. UNESKO ilə əməkdaşlığımızın genişləndirilməsində, təşkilatın ideya və məqsədlərinin beynəlxalq səviyyədə və ölkə daxilində təşviq edilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müstəsna xidmətləri vardır. Azərbaycanın mədəni irs nümunələrinin UNESKO siyahılarına daxil edilməsi Mehriban xanımın məqsədyönlü fəaliyyəti nəticəsində mümkün olmuşdur. Bu gün ölkəmizin Ümumdünya İrs Siyahısında 3, Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısında 11, Qeyri-Maddi İrsin Təcili Qorunma Siyahısında isə 2 irs nümunəmiz yer almaqdadır. Mehriban xanım Əliyeva Azərbaycan xalçaçılıq sənətinin qorunması, təbliği və gələcək nəsillərə ötürülməsi istiqamətində də böyük işlər görmüşdür".

Elnur Sultanov diqqətə çatdırıb ki, 16 noyabr həm də BMT tərəfindən Beynəlxalq Tolerantlıq Günü kimi qeyd olunmaqdadır. Azərbaycan mədəni müxtəlifliyin, multikulturalizmin və tolerantlığın təbliğinə xüsusi əhəmiyyət verir. Fəxrlə deyə bilərik ki, tolerantlıq və multikulturalizm ənənələri Azərbaycan dövlət siyasətinin bir hissəsidir və xalqımızın gündəlik həyat tərzidir. Azərbaycanda bütün etnik və dini qruplar sülh və əmin-amanlıq şəraitində yaşayırlar.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri, professor Vidadi Muradov deyib ki, Ordumuzun qələbəsi ilə biz işğaldan azad olunan torpaqlarımızla yanaşı, Qarabağın maddi-mənəvi mədəniyyətinə, tarixi abidələrinə qayıdırıq. Qarabağ xalçasının yarandığı, inkişaf etdiyi ərazilərə qayıdırıq. Bu illər ərzində Qarabağın xalçası çox sınaqlardan üzüağ çıxdı. Qarabağın qədim xalçalarının xalqımıza məxsusluğu uğrunda mübarizəmiz bir gün belə səngimədi.

Vidadi Muradov deyib: "Hazırda bütün ölkəmiz, əlaqədar qurumlar, vətəndaşlarımız dövlətimizin Qarabağa dair bərpa-inkişaf proqramını səbirsizliklə gözləyir. Əminik ki, bu proqram xalqımızın illərlə Qarabağa dair ürəyində olan arzularını əks etdirəcək. Azərbaycan xalçaçılarının da işğaldan azad edilmiş ərazilərimizin bərpasında böyük xidmətləri olacaqdır".

2016-cı ildə yaradılmış "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti haqqında məlumat verən İdarə Heyətinin sədri bildirib ki, hazırda respublikamızın 20 rayonunda 21 xalça emalatxanası, 5 regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsi fəaliyyət göstərir. Azərbaycan xalçalarının Bakı-Abşeron, Qarabağ, Naxçıvan, İrəvan, Qazax-Borçalı, Gəncə, Quba, Şirvan, Təbriz kimi 9 qrupunun çeşniləri üzrə müxtəlif ölçülü xalçalar toxundu, yerli və xarici bazarlara çıxarıldı.

"Bu gün Qarabağda yazılan yeni tarixin hər səhifəsinə Azərbaycan xalçası və xalçaçısı da daxil olmalıdır. Bunun üçün bizim kifayət qədər gücümüz, istedadımız var",-deyə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri vurğulayıb.

Sonda qonaqlar "Azərbaycan Milli Xalça Muzeyi təcrübəsində boyanmamış yundan toxunan xalçalar" adlı sərgi ilə tanış olublar.





Felyeton

# ERMƏNİLƏRİN AYRILA BİLMƏDİKLƏRİ KƏLBƏCƏR UNİTAZLARI



**Sentyabrın 27-dən sonra ən xoş və sevimli məşğuliyyətimiz mavi ekranın qarşısında oturaraq müharibəni - Milli Ordumuzun Ermənistan ordusuna toytutma mərasimini izləməkdir!**

**Dünyanın işinə bax: öz evində otura-otura əsl müharibənin gedişinə baxasan!**

**Lap kinodakı kimi!**

Həm də bu "əsl kino"ların qəhrəmanları Azərbaycan Ordusu, türk "Bayraqdarları", İsrail dronları ola!

Elə ki, erməni tankının, mərmi dolu yük maşınının, yaxud səngərdə komalanmış düşmənlərin ortasına dəqiq zərbə ilə bir mərmi dəyir, adama xüsusi ləzzət verir!

Sanki "Qarabağ"ın hansısa hücumçusu rəqib qapısına "doqquzluq"dan bir qol vurur!

Əlini-əlinə vurub "əhsən" deyirsən!

Azərbaycan Ordusunun apardığı yeni müharibə nümunəsinə hazırda bütün dünya heyran qalaraq "afərin" söyləyir.

❖ ❖ ❖

Noyabr ayının 10-dan isə tam fərqli mənzərəyə baxırıq. Yeddi şərtini hara neylədiyi bilinməyən Paşinyan hərbi "kapitulyasiya aktı"nı imzaladıqdan sonra ermənilər 27 ildir işğalda saxladıqları torpaqlardan çıxarılmağa başlayıblar!

Həm də müzəffər Ali Baş Komandan İlham Əliyevin tələb etdiyi və nail olduğu qrafik əsasında!

Azərbaycan torpaqlarına gülə-gülə gələn ermənilər indi ordan ağlaya-ağlaya gedirlər!

Amma bu məqamda da əsl erməniliklərini göstərirlər.

Biz ev-eşiyimizi, mal-mülkümüzü olduğu kimi qoyub gəlmişik!

Ermənilər isə bizə məxsus evlərdə 27 il yaşayıb şelləndikdən sonra indi qovulanda oğru xislətlərinə sadiq hərəkətlər edirlər.

Hətta evlərinin üstünün dəmirini, pəncərələrin çərçivəsini belə çıxarıb aparırlar!

Sonra da boş evlərə, meşələrə od vurub cəhənnəm olurlar!

Sanki ürəklərinin yanğısını, məğlubiyyətlərinin acısını bununla soyutmaq istəyirlər!

Amma onlara tutduğumuz toy, vurduğumuz zərbə nə unudulandır, nə də sağalan!!!

Bütün dünya da məşhur telekanalların hazırladıqları reportajlara baxıb bu murdarlıqları görür.

Bizim üçün adi, dünya üçün maraqlı olan bir mənzərə...

❖ ❖ ❖

Kəlbəcərdə yaşadığı özgə evindən Yerevana qayıdan erməni ailəsi maşına son dərəcə "hörmət və ehtiyatla" bir əşya da yükləyir:

Adi unitaz!

Hər bir kəlbəcərlinin evində olan məişət əşyası.

Dünyanın işinə bax, ey!

Sən demə, "dünyanın ən qədim milləti", "ən qədim mədəniyyətə malik xalq"

Kəlbəcərə gələnə qədər unitaz görməyibmiş!!!

Hiss olunur ki, ilk dəfə bu "möcüzəli əşyaya" kəlbəcərlilərin evlərində rast gəliblər...

Yəqin ki, hələ bir neçə ay nə olduğunu başa düşməmiş, içərisində əllərini, üzlərini də yuyurmuşlar.

Sonralar görünür Avropadan gələn turistlər bu ağ rəngli əşyanın təyinatını onlara izah ediblər.

Xoşlarına gəlib, möhkəm seviblər!

Hətta özgə torpaqlarından birdəfəlik çıxıb gedəndə sevginin gücündən ayrıla bilməyiblər.

Evlərinin ən qiymətli, ən əziz əşyalarından biri kimi özləri ilə Yerevana aparmağı qət ediblər.

❖ ❖ ❖

Gördünüzmü Mkrtıç onu necə bağrına basmış vəziyyətdə (heç özlərinin haxçıx və harsınlarını elə bərk-bərk qucaqlamırlar) aparıb yük maşınına qoyur. Maşındakı Arakel də (erməninin adı ya Mkrtıç olar, ya Arakel, ya da Aşot) eyni ehtiyat və həssaslıqla həmin unitazı alıb yumşaq yerdə yerləşdirir ki, qırılıb eləməsin.

Deyirlər "evro nyus"un bu riqqət doğuran köç mərasimini çəkib dünyaya göstərməsi sayəsində Yerevandakı ermənilər də bu qəribə əşyanı görüblər, hətta ona yaxından baxmaq, toxunmaq üçün Mkrtıçı təntənə ilə qarşılamağa da çıxıblar.

Təəssüf ki, köç məsələsindən dilxor olan Mkrtıç heç bir erməniyə unitaza əllə toxunmağa icazə verməyib (Kim bilir, paxıllıqdan sındıracaqlarından qorxub, ya da əllərinin ləkəsinin qalacağından ehtiyat edib). Yəqin bu barədə erməni mətbuatı əlavə açıqlama verəcək.

❖ ❖ ❖

Mkrtıç bütün ermənilərin valeh olduğu həmin əşyanın adını hələlik yerevanlılar üçün açıqlamayıb. Görünür Arakellə birlikdə onun istehsalını qaydaya salmaq və müəlliflik hüququ almaq istəyirlər (ermənilər bizdən o qədər mahnı, musiqi, hətta xörəklər oğurlayıb öz adlarına çıxıblar ki, qoy bu da olsun onlardan biri).

Amma bir neçə erməni elə həmin tanışolma mərasimində bəyan ediblər ki, əgər bu adsız əşyadan əldə edə bilsələr və xoşlarına gəlsə, ona atalarının adını qoyacaqlar!

Noolar! Qoy olsun!

Dünya gör-götür dünyasıdır!

**Bəxtiyar SADIQOV**

# Ermənistan ordusunun Mingəçevirə, Beyləqana, Bərdəyə vurduğu ziyanın qiymətləndirilməsi işləri yekunlaşmaq üzrədir

Məlum olduğu kimi, noyabrın 6-da Prezident İlham Əliyev "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin etmək məqsədilə Dövlət Komissiyası yaradılıb.

Müxtəlif dövlət qurumlarının əməkdaşları və mütəxəssislərdən ibarət işçi qruplar vəziyyətlə yerində tanış olmaq və qiymətləndirmə işlərinin aparılması məqsədilə Ermənistan silahlı qüvvələrinin zərər vurduğu şəhər və rayonlara ezam olunublar.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, işçi qrupu Mingəçevir şəhərində də qiymətləndirmə işlərinə başlayıb.

Maliyyə nazirinin müşaviri, Mingəçevir şəhəri üzrə işçi qrupun rəhbəri Rafiq Hüseynov AZƏRTAC-a bildirib ki, indiyədək 34 akt tərtib edilib. Bir ev və bir yarımçıq tikili tamamilə yararsız hala düşüb.

"Hazırda işlərimiz yekunlaşmaq üzrədir. Dəymiş ziyanın aradan qaldırılması üçün tələb olunan maliyyə vəsaitinin həcminə dair təkliflər dekabrın 10-dək dövlət komissiyasına təqdim ediləcək", - deyə R.Hüseynov əlavə edib.

* * *

Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində Beyləqanda evlərə, sosial obyektlərə və təsərrüfatlara dəyən ziyanın qiymətləndirilməsi istiqamətində iş aparılır, bölgəyə ezam olunan işçi qrup tərəfindən dağıntı yerlərinə baxış keçirilir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Ermənistanın hərbi təcavüzü nəticəsində cəbhədən kilometrlərlə uzaqda olmasına baxmayaraq, Beyləqanda da dağıntılar baş verib. Erməni faşistləri tərəfindən rayon ərazisi ağır artilleriyadan atəşə tutulub. Nəticədə 2 dinc sakin həlak olub, sosial obyektlər, evlər dağılıb, infrastruktur sıradan çıxıb.

Rayon ərazisində qeydə alınan dağıntıların ilkin qiymətləndirilməsi üçün hazırda işçi qrup tərəfindən əraziyə baxış keçirilir. İşçi qrupun rəhbəri Samir Şahhüseynli bildirib ki, 4 gün ərzində baxış keçirilən zaman ilkin məlumata görə, 60-dan çox evə, sosial obyektə və infrastruktura ziyan dəydiyi müəyyənləşib. Belə ki, çoxmənzilli binada yerləşən 2 ev, 44 fərdi yaşayış evi dağıdılıb, 11 sahibkarlıq subyektinə ziyan dəyib. Bir uşaq bağçası, istirahət parkı və vergilər idarəsinin binası zərər görüb. Bundan başqa, bir yük maşını və minik avtomobili yararsız hala düşüb.

İşçi qrup tərəfindən rayonda digər ərazilərə baxış keçirilməsi davam etdirilir.

* * *

Sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələrinin mərmi və raket atəşinə tutulması nəticəsində mülki əhaliyə, evlərə, mənzillərə, dövlət əmlakına, infrastruktur obyektlərinə xeyli ziyan dəyib.

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri xəbər verir ki, Bərdə rayonunun sakinləri də erməni vandalizmindən əziyyət çəkib. Hazırda Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə rayonunun raketlərdən atəşə tutulması nəticəsində mülki əhaliyə, evlərə, mənzillərə, dövlət əmlakına, infrastruktur obyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi işləri davam etdirilir.

Bərdə rayonu üzrə işçi qrupun rəhbəri, İqtisadiyyat Nazirliyinin şöbə müdiri Elçin İbrahimov müxbirimizə bildirib ki, ilkin məlumata görə, Bərdə şəhərində və rayonun altı kəndində 160 subyektə ziyan dəyib. Artıq Bərdə rayonunun 6 kəndində dəymiş ziyan qeydiyyata alınıb, vətəndaşların iştirakı ilə aktlar tərtib edilib.

Qeyd edək ki, Prezident İlham Əliyev noyabrın 6-da "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin etmək məqsədilə Dövlət Komissiyası yaradılıb. Müxtəlif dövlət qurumlarının əməkdaşları və mütəxəssislərdən ibarət işçi qruplar vəziyyətlə yerində tanış olmaq və qiymətləndirmə işlərinin aparılması məqsədilə Ermənistan silahlı qüvvələrinin zərər vurduğu şəhər və rayonlara ezam olunublar.







# Təbiət qatilləri









*Əvvəli 1-ci səh.*

Torpaqlarımız erməni işğalında qaldığı 30 il müddətində məzarlıqları, evləri, ağacları da soyqırıma məruz qoyublar...

Biz bu vəhşətləri illərdir görürük, yaramaz əməllərini bilirik və bunu hər yana car çəkirik. Dünya isə hələ indi bunun şahidi olur... Nəhayət, gec də olsa, dünya da görür ki, ermənilər tək insan, uşaq qatili deyil, həm də ağac, meşə, təbiət qatilidir. İnsandan ala bilmədiyi intiqamı, qisası ağacdan, evdən alır. Bu hərəkətlər insanlığa sığmır, amma erməniliyə sığır. Bax, budur erməni xisləti! Bax, budur erməni faşistlərinin murdar üzü! Bax, budur erməni barbarlığı, vandalizmi!



## Ermənilər Kəlbəcərdə ekoloji terror törədirlər

30 ildir ki, mənfur ermənilər işğal etdikləri ərazilərimizdə maddi-mədəni sərvətlərimizi dağıdıb, tarixi abidələri, evləri, inzibati binaları, bütün tikililəri terrora məruz qoyub, dağıdıb, yararsız hala salırlar. Mebel istehsalına yararlı bütün ağacları qırıb başqa ölkələrə satıblar. Təbiətimizi talan ediblər. Bunun isə bir səbəbi var. Ermənilər dildə əksini iddia etsələr də, daxilən hər zaman biliblər ki, onlar bu torpaqların həqiqi sahibi deyillər. Ona görə ki, bu yerləri ürəkdən sevməyiblər, oraya bağlanmayıblar. Görünən odur ki, qorumayıblar, qayğı göstərməyiblər o torpaqlara. Bir neçə gündür Kəlbəcərdən çıxarılan ermənilərin törətdiyi vəhşiliklər də elə bunun əyani sübutudur.

25 noyabra qədər Kəlbəcəri tərk etməli olan ermənilər aparılması mümkün olan hər şeyi özləri ilə götürür, hətta pəncərə çərçivələrini, dam örtüklərini, unitazları belə aparırlar. Mal-qaranı kəsib ətini götürür, içalatını, baş-ayağını həyətə, çölə-bayıra tökürlər. Apara bilmədikləri bir çox şeyi isə yandırır, məhv edir, kütləvi şəkildə ekoloji terror törədirlər. 27 il əvvəl buradan çıxarılmış azərbaycanlıların evlərində yaşayan ermənilər indi həmin evlərə od vuraraq gedirlər. Bununla da ermənilər 30 illik işğalçılıq tarixində həm də vandal və terrorçu imicini formalaşdırırlar.





## Azərbaycanlılar evlərinin qapılarını açarla bağlayıb çıxmışdılar

Kəlbəcərin azad olunması BMT Təhlükəsizlik Şurasının 822 saylı Qətnaməsinin yerinə yetirilməsi deməkdir. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunsa da, indiyədək bu öhdəliklər yerinə yetirilməmişdi.

Bu gün Kəlbəcəri tərk edən erməni əhalisi rayonun işğalından sonra orada qeyri-qanuni məskunlaşıb. BMT-nin və ATƏT-in prinsiplərinə zidd olaraq 1999-cu ildən işğalçı Ermənistan Kəlbəcər ərazisində ermənilərin fəal məskunlaşdırılmasına başlayıb. Qeyri-qanuni yaşadıqları əraziləri - Azərbaycan torpaqlarını indi tərk edən ermənilər təhlükəsiz şəkildə, atəşə məruz qalmadan rahatlıqla əşyalarını götürür, hətta evlərin dam örtüyü və unitazlarına qədər çıxarıb aparırlar. Üstəlik yaşadıqları və yaşamadıqları evləri yandırır, meşələrə od vurur,vandallıq edirlər. Halbuki 27 il əvvəl azərbaycanlılar məhz bu evlərdən qovulanda qapıları açarla bağlayıb çıxmışdılar. Çünki bura məhz onların evi idi...

Bu gün baş verənlər həm də Azərbaycan və Ermənistan arasındakı fərqi anlamaq üçün mühümdür. Azərbaycan tərəfi Kəlbəcərdəki erməni hərbi birləşmələrinin ərazidən çıxması üçün humanitar qaydalara tam uyğun olaraq, qabaqcadan razılaşdırılmış müddət ayırıb, lakin erməni tərəfi işğal zamanı bunların heç birini etməyib. Bu gün təhlükəsiz şəkildə və öz seçimi ilə ərazini tərk edən ermənilərdən fərqli olaraq, 1993-cü ildə rayonun azərbaycanlı əhalisi oradan zorakılıqla qovulub, dağ yolları ilə ayaqyalın, piyada şəkildə erməni təcavüzkarlarından qaçıb xilas olublar. Onların bir çoxu qırğına məruz qalıb, atəşə tutulub, meyitləri belə təhqir edilib. Azərbaycan əhalisi özü ilə heç nə götürə bilməyib, sakinlərin bütün əmlakı erməni ordusu tərəfindən qarət olunub.

## Kəlbəcərin öz əhalisi evini heç vaxt yandırmazdı

Xatırlatmaq yerinə düşər ki, 1992-ci il aprelin 8-də Kəlbəcərin Ağdaban kəndi ermənilərin amansız hücumlarına məruz qalaraq işğal olunub. Bu zaman 39 kənd sakini qəddarcasına öldürülüb, 5 nəfər girov götürülüb, 100-dən artıq ev yandırılıb. 1993-cü ilin mart ayında isə düşmənlər strateji əhəmiyyətli bir neçə yüksəkliyi tutub. Təkəqaya, Zağalar, Çıraq kəndlərinə soxulub evlərə od vurub, dinc əhalini diri-diri yandırıblar. Ən əhəmiyyətli mövqeydə yerləşən Keçiliqaya yüksəkliyinə sahib çıxıblar. Aprelin 2-də isə erməni silahlı qüvvələri Kəlbəcərə bir neçə istiqamətdən hücuma keçdilər. Rayon əhalisi mühasirədə qalmışdı, kənardan heç bir kömək yox idi. Yeganə qurtuluş yolu Murovdağ silsiləsi idi. Həmin gün Murovdağın bəzi yerlərinə 70 santimetr, bəzi yerlərinə isə 1 metrə yaxın qar yağmışdı. Qarın yağması vəziyyəti daha da çətinləşdirmişdi. Rayon əhalisi uşaqları, qocaları, xəstələri necə xilas etmək yolunu bilmirdilər. Bu faciədə erməni faşistləri dinc əhaliyə vəhşicəsinə divan tutdular, bir neçə yüz nəfəri öldürdülər, bir neçə yüzünü isə əsir götürdülər. İşğal nəticəsində 53340 yerli sakin min illər boyu yaşadığı ata-baba torpağından qovularaq didərgin salındı, 511 dinc insan qətlə yetirildi, yüzlərlə adam şikəst oldu, 321 nəfər əsir götürüldü və itkin düşdü. Ermənilər rayonu talan edib yandırdılar. 130 yaşayış məntəqəsi, dünya şöhrətli "İstisu" sanatoriyası, 500-dən artıq sənaye, tikinti, məişət, ticarət obyekti, 172 mədəniyyət obyekti, 96 ümumtəhsil məktəbi, 76 səhiyyə obyekti, 1 muzey darmadağın edildi.

Bütün bu əzab-əziyyətlərə rəğmən azərbaycanlılar Kəlbəcərdəki kəndlərə ziyan vurmamışdılar. Kəlbəcərin öz əhalisi evini heç vaxt yandırmazdı, çünki bu onların dədə-baba ocağı, ana vətəni, torpağı idi. Hazırda BMT səviyyəsində hüquqları qorunaraq öz yerlərinə qaytarılan gəlmə ermənilər isə xeyli müddət yaşadıqları evləri yandıraraq zərər vurmaqla məşğuldurlar. Vətəni olmayan ermənilər üçün isə bunu etmək heç də çətin bir şey deyil. Çünki onların bu torpaqlarla mənəvi bağları yoxdur. Bu isə bir daha onu göstərir ki, Azərbaycan torpaqlarının həqiqi sahibləri onlar yox, bizik.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Qarabağın çırağı gur yanacaq



## Bu regionda müxtəlif enerji mənbələrindən istifadə üçün böyük potensial var





*Əvvəli 1-ci səh.*

Artıq mənfur düşməndən etdiyi vəhşiliklərin, törətdiyi qətllərin və soyqırımlarının qisası döyüş meydanında alınıb. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtması üçün Azərbaycan dövləti əlindən gələni edəcək, işğaldan azad olunmuş şəhərlər və kəndlər yenidən qurulacaq.

Xoşbəxtlikdən, həmin ərazilərin təbiəti, torpağı, təbii ehtiyatları orada iqtisadiyyatın bir sıra sahələrinin inkişafına imkan verir. Belə ki, kənd təsərrüfatında həm əkinçiliyi, həm də heyvandarlığı, sənayedə emal, mədənçıxarma və digər sahələri inkişaf etdirmək üçün böyük potensial var.

Məlum olduğu kimi, erməni işğalçıları regionun energetika infrastrukturunu da dağıdıblar. Azərbaycan Respublikası Energetika Nazirliyinin bildirdiyinə görə, Qarabağ regionunda 10 elektrik şəbəkə rayonu (Şuşa, Xocalı, Xocavənd, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilan, Füzuli, Kəlbəcər və Ağdam) üzrə 20 yarımstansiya mövcud olub. Eyni zamanda 2000 kilometrlik təbii qaz xətləri və 34 qazpaylayıcı qurğu istismar edilib. Qarşıda dağıdılmış və talan edilmiş infrastrukturun bir daha dəqiq qiymətləndirilməsi vəzifəsi dayanır.

Nazirlik, eləcə də, bölgədə energetika sahəsinin inkişafı üçün mövcud olan potensialı açıqlayıb. Belə ki, burada müxtəlif enerji mənbələrindən istifadə üçün böyük potensial var. O cümlədən hidroenerji yaradılması üçün geniş imkanlar mövcuddur. Ümumiyyətlə, Qarabağın ərazisi bərpaolunan enerji resursları ilə də çox zəngindir.

Qarabağ Azərbaycanda yerli su ehtiyatlarının formalaşdığı əsas rayonlar sırasında dayanır. Ölkənin yerli su ehtiyatlarının 25 faizi, yəni ildə təqribən 2 milyard 560 milyon kubmetr su ehtiyatları bu ərazidə formalaşır. Regionun Tərtər, Bazarçay (Bərgüşadçay), Həkəri kimi əsas və digər kiçik çayları böyük su enerji potensialına malikdir. Bunların bir hissəsindən hələ sovet dönəmindən istifadə edilir, qalanlarından isə gələcəkdə bəhrələnmək mümkün olacaq.

İşğaldan azad olunmuş ərazilərdə əvvəllər 3 iri su elektrik stansiyası (SES) fəaliyyət göstərib. Bunlardan biri - "Tərtər" SES 1976-cı ildə Tərtər rayonu ərazisində, Tərtərçayın üzərində "Sərsəng" su anbarı ilə birgə inşa edilib. Stansiya hər birinin gücü 25 meqavat olan 2 hidroaqreqatdan ibarətdir. Bəndinin 125 metrlik hündürlüyünə görə "Sərsəng" ölkədə ən hündür bəndli su anbarlarından biri sayılır.

Vaxtilə "Sərsəng" su anbarı 6 rayonun (Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi) 125 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin edirdi. 1990-cı ildə stansiyanın il ərzində istehsal etdiyi elektrik enerjisi 81,9 milyon kilovat/saat olub. Lakin 1993-cü ildə stansiya işğala məruz qalıb. Təbii ki, bundan sonra kompleksə lazımi texniki xidmət göstərilməyib, istifadə olunan avadanlıqlar köhnəlib. Bu səbəbdən də indi, ilk növbədə, stansiyanın texniki vəziyyətinin qiymətləndirilməsinə, daha sonra isə bərpa işlərinin aparılmasına ehtiyac var.

Regiondakı digər mühüm enerji obyektləri "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyalarıdır. Cəbrayıl rayonundakı Xudafərin kəndindən bir kilometr şimal-qərbdə yerləşən "Xudafərin" SES layihəsinin ərazisi 1992-ci ildə işğal nəticəsində Ermənistanın nəzarəti altına düşmüş və beləliklə, tikinti dayandırılmışdı. Lakin İran tərəfdən stansiyanın inşası davam etdirilmişdir. Azərbaycan tərəfində bu enerji obyektinin hər biri 50 meqavat gücündə 2 hidroaqreqatdan ibarət olması planlaşdırılır.

Araz çayı üzərində tikintisi nəzərdə tutulmuş "Qız qalası" SES-in isə hər biri 20 meqavat gücündə 2 hidroaqreqatdan ibarət olacağı planlaşdırılır və stansiyanın İran tərəfindən inşaat işləri davam etdirilir.



"Xudafərin" hidroqovşağı bəndinin tikintisi demək olar ki, tamamlanıb, "Qız qalası" hidroqovşağının bəndində isə işlər yekunlaşmaq üzrədir. Bu hidroqovşaqların və su elektrik stansiyalarının tikintisi və istifadəsi Azərbaycanla İran arasında 2016-cı ildə imzalanmış sazişlə tənzimlənir.

Müzəffər Ordumuzun Cəbrayıl rayonunu işğaldan azad etməsi, İran İslam Respublikası ilə dövlət sərhədinin tam nəzarətə götürülməsi "Xudafərin" və "Qız qalası" hidroqovşaqları üzərində elektrik stansiyalarının inşasının başa çatdırılmasına imkan yaradır. Bu layihələr işğaldan azad edilmiş ərazilərin həm elektrik enerjisi ilə təmin olunmasında, həm də torpağın suvarılmasında xüsusi rol oynayacaq.

Qarabağın günəş enerjisi istehsalı üçün də potensialı böyükdür. Yer səthinə düşən günəş radiasiyasının miqdarına görə Qarabağın cənub düzənlik hissəsi - Füzuli, Cəbrayıl, Zəngilan rayonları Naxçıvan Muxtar Respublikası ərazisindən sonra ikinci yerdə dayanır. Burada bir kvadratmetr üfüqi səthə düşən günəş radiasiyası ildə 1600-1700 kilovat/saat təşkil edir. Bu ərazilərin ümumi günəş enerjisi potensialı 3000-4000 meqavatdır. Ərazidə ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə potensialın daha dəqiq hesablanması həyata keçiriləcək.

Qarabağda, eləcə də, külək enerjisi istehsal etmək mümkün olacaq. Belə ki, regionun dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürətinin saniyədə 7-8 metr olduğu geniş ərazilər mövcuddur. Kəlbəcər və Laçın rayonlarının Ermənistanla sərhəd ərazilərində küləyin orta illik sürəti saniyədə 10 metrə çatır. Ümumilikdə Qarabağın dağlıq ərazilərində külək enerjisinin potensialı 300-500 meqavat kimi qiymətləndirilir. Ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə bu sahənin də dəqiq potensialı hesablanacaq.

Bütün bunlardan başqa, Kəlbəcərdə və Şuşada termal su ehtiyatları mövcuddur. Qarşıda dayanan vəzifələrdən biri də termal mənbələrdən enerji məqsədli istifadənin mümkünlüyünü tədqiq etməkdir.

Qarabağ bölgəsində, həmçinin daş kömür yataqları mövcuddur. Belə ki, Tərtər rayonunun Çardaqlı kəndində 8,5 milyon ton daş kömür ehtiyatı var.

İşğaldan azad olunmuş rayonlarımıza yeni layihələrlə gələcəyik. Bu layihələrlə yurd-yuvasına qayıtmış insanların həyatı rövnəqlənəcək. Qarabağın təbii resursları burada işığın da bol olmasına imkan verəcək. Qarabağın çırağı gur yanacaq.

***Flora SADIQLI, "Azərbaycan"***

# Ermənistanda repressiyalar güclənir

*Əvvəli 1-ci səh.*

Siyasi məhbusların sayına görə postsovet məkanında Ermənistan lider hesab oluna bilər. Bütün bunlar beynəlxalq miqyasda da ölkənin nüfuzuna ciddi zərbə deməkdir".


















## "Nikol xaindir!"

Yerevanda artıq günlərdir etirazçılar davamlı şəkildə mitinqlər, yürüşlər keçirir, paytaxtın mərkəzi küçələrini bağlayır və dövlət orqanlarının işinə mane olmağa çalışırlar. Onlar ağır məğlubiyyətə görə baş nazir Nikol Paşinyanın məsuliyyət daşıdığını və cavab verməli olduğunu bildiriblər. Qarabağ müharibəsi veteranları "Sisakan" könüllü dəstəsinin komandiri Aşot Minasyanın müdafiəsinə qalxıblar. Məhkəmə binası qarşısında toplaşan erməni veteranlar "Nikol xaindir!" və "Tribunal!" şüarları səsləndiriblər.

Xalq arasında nüfuzunu tam itirən Paşinyan özünə qarşı edilən bütün çıxışları birmənalı şəkildə güc yolu ilə susdurmağa, etiraz aksiyalarını polis dəyənəyi və rezin gülləsi hesabına dağıtmağa üstünlük verir. Baş nazirin göstərişinə əsasən, kütləvi həbslər həyata keçirilir, siyasi partiya rəhbərləri, fəallar saxlanılır, həbs edilir, deputatlara qarşı hücumlar təşkil olunur.

Baş verənlərlə bağlı müxalifət partiyaları dəfələrlə bəyanat yayaraq polis zorakılığını pisləyib. Bildirilir ki, etiraz aksiyalarını dağıtmaq məqsədilə polis özü əvvəlcədən təxribat təşkil edir və bundan sonra hücuma keçərək qəddarlıqla aksiyaları dağıdır. Bu zaman əsl qəddarlıq nümayiş etdirilir, hətta qadınlara qarşı da zorakılıq tətbiq edilir.

Bunun nəticəsidir ki, son bir həftədə Yerevanda həbs olunanların sayı artıb. Müxalifət hakimiyyəti siyasi dözümsüzlükdə ittiham etməklə yanaşı, rejimin daha da qəddarlaşdığını bildirir. Həmçinin müxalif qüvvələr hakimiyyətin repressiv və güc siyasəti qarşısında geri çəkilməyəcəklərini, apardıqları mübarizəni bundan sonra da qətiyyətlə davam etdirəcəklərini bəyan ediblər.

Ermənistan müxalifəti onu da bəyan edir ki, hakimiyyət öz mövqeyini qorumaq üçün bundan sonra da onun əleyhinə yönələn digər kütləvi etiraz aksiyalarını zorakılıqla dağıtmaqda israrlıdır. Bu işdə Paşinyan iqtidarının polislə yanaşı, Ermənistan Milli Təhlükəsizlik Xidmətinin qüvvələrindən də istifadə etdiyi vurğulanır. O da qeyd edilir ki, hakimiyyət lazım gəlsə, hərbçilərin gücündən də bu məqsədlə istifadə etməyə hazırdır.

Ermənistanın "Respublika" partiyasının deputatı, keçmiş prezident Serj Sarkisyanın ən yaxın adamlarından biri hesab olunan Baqram Baqdasaryan N.Paşinyana sui-qəsd hazırlamaqda ittiham olunur. B.Baqdasaryanın vəkilinin sözlərinə görə, o, sadəcə müxalifətin mitinqlərində iştirak edib, indi onu baş nazirə sui-qəsd hazırlamaqda ittiham edirlər. Sübut kimi isə hansısa telefon danışıqlarından kəsilmiş fraqmentlər göstərilir.

Bütün bunlar bir daha Ermənistanın mövcud hakimiyyətinin tam repressiv metodlara üstünlük verdiyinin göstəricisidir. Maraqlıdır ki, insan haqları haqqında gen-bol danışan Qərb dairələri Ermənistanda baş verən bu biabırçılığa göz yumurlar. Belə görünür ki, Ermənistan rəhbərliyi həmin dairələrin gözündə xüsusi imtiyaza malikdir, bu ölkədə hakimiyyət tərəfindən insanları öldürmək, həbs etmək, işgəncə vermək olar.

## Sadə vətəndaşlar təhqir olunur

Göründüyü kimi, tənəzzül yaşayan Ermənistanda insan hüquqları sahəsində dözülməz vəziyyət yaranıb. Ölkədə məmur özbaşınalığının tüğyan etməsi, müstəqil məhkəmə hakimiyyətinin olmaması insan hüquqlarının ümumi vəziyyətinin daha bərbad hala düşməsi ilə nəticələnir. Amma Ermənistanda insan hüquqlarının durumunun pisləşməsi ilə bağlı narahatlıqları bölüşməyən hakimiyyət ciddi müqavimətlə üzləşmədiyindən belə demək olarsa, daha da azğınlaşıb, ona qarşı olanların neytrallaşdırılması üçün sərt repressiyalara start verib.

İnsan hüquqları sahəsində bərbad durumun olmasına dair çoxsaylı faktların üzərinə isə demək olar ki, hər gün yeniləri əlavə olunur. Təqib və təzyiqin adi hal aldığı Ermənistanda təkcə siyasi fəallar deyil, onların yaxınları da basqılara məruz qalır. Hüquq mühafizə orqanlarının əməkdaşları "Ayrenik" partiyasının sədri Artur Vanesyanın valideynlərinin mənzilinə daxil olaraq orada axtarış həyata keçiriblər.

Bu xüsusda diqqətçəkən məqamlardan biri də Yerevanda keçirilən etiraz aksiyalarında yaşanıb. "İravnuk" qəzeti yazır ki, etirazların başladığı ilk vaxtlar bir çoxları təsadüfən həmin ərazidən keçərkən onları da həbs ediblər. Həbsdə saxlanılan iqtisadçı David Minosyanı alçaldıblar: "Ona polis idarəsində deyiblər ki, əyil, ayaqqabımdan öp".

## Baş nazir ordunu Yerevana çağırdı

Baş nazir Nikol Paşinyan "Facebook"dakı paylaşımında yazıb: "Bu gün cəbhə bölgəsindən onlarca videoya baxdım. Uşaqlar, haqlısınız. Yerevanda sizi gözləyirəm. Hasarın altında ulayanlarla məsələlərin birdəfəlik həlli üçün. Sizinlə qürur duyuram".

Müxalifətçilər bildirirlər ki, məhkəmələrdə siyasi rəqiblərinə qarşı mübarizədə uğursuzluğa düçar olduğuna görə, hökumətin başçısı özünə sadiq hərbi birləşmələri Yerevana çağırıb. Qeyd edək ki, bundan əvvəl Ermənistan məhkəmələri istintaq orqanlarının müxalifət liderlərinin cinayət məsuliyyətinə cəlb edilməsi barədə qərarlarını ləğv ediblər. Erməni müxalifətinin fikrincə, hökumət başçısı narazı insanları və müxalifəti ordunun siyasi proseslərə müdaxiləsi ilə hədələdiyi üçün bu vətəndaş müharibəsinə doğru ilk addımdır.

Bu arada Paşinyan mətbuata müsahibəsində Rusiya və Azərbaycan prezidentləri ilə Qarabağla bağlı üçtərəfli razılaşmanın bəndlərini dəyişdirməyin mümkün olmadığını bildirib. Qeyd edib ki, bəndlərin dəyişdirilməsi hərbi vəziyyətin dəyişdirilməsinə səbəb olacaq. Baş nazir, eyni zamanda yüzlərlə erməni hərbçisinin itkin düşdüyünü bəyan edib.

Separatçı rejimin sabiq "baş naziri" Anuşavan Danielyan deyib ki, Ermənistan hakimiyyəti dərhal istefa verməlidir. Bildirib ki, Ermənistan hökuməti üzvlərinin baş nazirin təslim bəyannaməsini imzalamaq niyyətindən xəbərdar olub-olmamasından asılı olmayaraq, bu 2,5 ildə baş verən hər şey üçün hökumət məsuliyyət daşıyır. Ancaq bu gün hökumət üzvləri istefa verməklə vətəndaş müharibəsinin qarşısını ala bilərlər.

## Sabiq prezidentdən etiraflar

Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan isə yaydığı bəyanatında deyir ki, "erməninin sonrakı ağlı" mənasında deyimdən böyük yalan yoxdur, əks halda erməni xalqı 1915-ci ildəki faciədən və tarixi vətənlərini itirəndən sonra yeni faciələr yaşamazdı. Vurğulayır ki, təəssüf ki, axırıncı bəladan sonra belə yaşanan hadisələr və onlara verilən reaksiyalar göstərdi ki, biz "erməninin sonrakı ağlı" xəstəliyindən yaxa qurtara bilməyəcəyik.

Sabiq prezident qeyd edib ki, bununla bağlı həm Ermənistanda, həm də diasporda hansı fikirlərin səsləndirildiyini izləmək kifayətdir. İstər Nikolun tərəfdarları, istərsə də əleyhdarları bu bəladan sonra "bir qarış da olsun torpaq yox" tezisindən əl çəkməyərək "ermənin sonrakı ağlının" sağalmaz bir xəstəlik olduğunu bir daha sübut etdilər: "Bizim nəsil bu fenomenin yetkin xalqlar arasında təzahür etməsinin bir sıra nümunələrinin şahidi olub. Bu barədə 2007-ci ildəki çıxışlarımın birində danışmışam. Düşünürəm ki, təkrarlamamaq üçün aşağıdakı sitat kifayətdir: "Bir çox millətlər və dövlətlər fərqli şəraitdə və fərqli səbəblərlə milli fəlakətlə qarşılaşıblar. Ermənilər və yəhudilər soyqırımına məruz qalıblar.

Sarsıdıcı məğlubiyyətdən sonra Almaniya və Yaponiya tamamilə məhv edildi. Osmanlı Türkiyəsi, Böyük Britaniya və Rusiya güclü imperatorluqlarını itirdilər. Onların hər biri faciələrini bənzərsiz hesab edir. Lakin milli faciəni yaşamış demək olar ki, bütün xalqlar və dövlətlər həmin faciəni ümidsizlik yox, güclənmək amilinə çevirdilər. Təkcə tarixi komplekslərdən qurtulmaq üçün yox, eyni zamanda, yenidən doğulmaq və dünyanın ən firavan ölkələrindən biri olmaq üçün özlərində güc tapdılar. Daim kədərlənmək, dünyadan şikayətlənmək və ədalət istəmək əvəzinə bu xalqlardan nümunə götürməyimizə nə mane olur?"

Göründüyü kimi, Azərbaycan tərəfindən hərbi məğlubiyyətə uğradılan Ermənistan tarixinin ən ağır və əzablı günlərini yaşayır. Hazırda ölkədə bütün sahələrdə ciddi və dərin xaos hökm sürür. Bütövlükdə, proseslərin gedişi Ermənistanı qarşıdakı dövr ərzində daha çətin günlərin və qarşıdurmaların gözlədiyini göstərir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Qaydalara əməl edərək pandemiya üzərində qələbə qazana bilərik

2020-ci ilin əvvəlində olduğu kimi, sonunda da koronavirus infeksiyası tüğyan etməkdə davam edir. Ümumdünya Səhiyyə Təşkilatının son hesabatında bildirilib ki, dünyada koronavirusa yoluxma hallarının sayı 53 milyonu keçib, ölüm sayı isə 1 milyondan çoxdur. Sutkalıq yoluxma hadisələrinin 42 faizdən çoxu Şimali və Cənubi Amerikada qeydə alınıb, Avropada 246 mindən, Cənub-Şərqi Asiyada isə 51 mindən artıq yoluxma hadisəsi baş verib.





Göründüyü kimi, bütün ölkələrdə infeksiyaya yoluxanların sayı rekord sayda artaraq epidemik vəziyyəti gərginləşdirir. Eyni zamanda payız və qış fəsillərində mövsümi qrip və digər tənəffüs yolları infeksiyalarının sayının artması da müşahidə edilir.

Azərbaycanda koronavirus infeksiyasının yayılmağa başladığı ilk dövrlərdən etibarən ona qarşı hərtərəfli mübarizə aparılır. Elə buna görədir ki, ölkəmizdə COVID-19-a yoluxma və ölüm faizi digər ölkələrlə müqayisədə minimal həddədir. Hökumət tərəfindən koronavirus infeksiyasının yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, sanitar-epidemioloji vəziyyətin təhlilinə əsasən lazımi iş aparılır.

## Vəziyyətə uyğun addımlar atılır

Bütün dünyada olduğu kimi, son aylar Azərbaycanda da koronavirusa yoluxma sayında artım müşahidə olunmağa başlanıb. Bunun obyektiv və subyektiv səbəbləri var. Sentyabrın 27-dən ölkəmizin Vətən müharibəsinə başlaması, işğalda olan torpaqlarımızın bir-bir azadlığa qovuşması, çox keçmədən isə şanlı qələbə qazanması bizə pandemiyanı unutdurdu. Vətəndaşlarımızda ikinci təhlükəli düşmənə qarşı etinasızlıq yaratdı, maska taxmadan bir yerə toplaşdıq, sosial məsafə saxlamadıq. Bütün bunlar isə, təəssüf ki, sanitar-epidemioloji vəziyyətin kəskinləşməsinə birbaşa rəvac verdi.

Buna görə də Nazirlər Kabineti ölkə ərazisində xüsusi karantin rejiminin müddətini dekabrın 1-dək uzadıb. Bütün təhsil pillələri üzrə tədrisin distant təşkilinə başlanılıb. Eyni zamanda adıçəkilən qurum tərəfindən infeksiyanın yayılma sürəti nəzərə alınaraq müxtəlif şəhər və rayonların ərazisində xüsusi karantin rejiminin yeni qaydalarının tətbiq edilməsinə dair qərar qəbul edilib. Qərara əsasən, noyabrın 7-dən 23-dək sərtləşdirilmiş xüsusi karantin rejimi dövründə Şəki, Lənkəran şəhərlərinin, Qax, Zaqatala, Biləsuvar, Cəlilabad, Masallı, İsmayıllı, Quba, Xaçmaz rayonlarının inzibati ərazisində müxtəlif sahələr və istiqamətlər üzrə fəaliyyət dayandırılıb.




Eyni zamanda həmin ərazilərdə ictimai nəqliyyatın fəaliyyəti də tam dayandırılıb.

## Koronavirusla bağlı pik nöqtəyə gəlib çatırıq

Baş infeksionist Təyyar Eyvazov bildirib ki, hazırda koronavirusla bağlı sabit vəziyyət yoxdur. Ötən ayın ortalarından başlayaraq yoluxma halları artmaqda davam edir. Bu gün mənfi dinamikanın dayandığını demək mümkün deyil: "Yoluxma hallarının artması bizdən qabaq başlayan ölkələrdə də stabilləşmə müşahidə olunmur. Hesab edirəm ki, pik nöqtəyə gəlib çatırıq. Pik nöqtəyə çatanda yoluxma sayları yüksək rəqəmlərlə davam edəcək, xəstəlikdən sağalanların sayı da artacaq. Bir müddət bu stabilləşmə dövrü davam edəcək, ondan sonra karantin tədbirlərinin lazımi səviyyədə yerinə yetirildiyi təqdirdə azalmalar olacaq. Nə vaxt olacağını indidən demək mümkün deyil. Yəqin ki, noyabrın sonları və dekabr ayı bu suala müəyyən cavab tapılar. Proqnoz vermək çətindir".

T.Eyvazov qeyd edib ki, kütləvi peyvənd olunmayana və ya kollektiv immunitetin formalaşmasına qədər tam effektiv olan heç nə yoxdur: "Hələ ki, effektiv olan maska taxmaq, məsafə saxlamaq, əl gigiyenası, asqırıb, öskürəndə ağzın bağlanması və təmasların minimuma endirilməsidir. Əhali yeni koronavirusa qarşı kütləvi peyvənd olunduqda kollektiv immunitet yaranacaq, onda xəstəliyə yoluxma sayı idarə olunacaq, yoluxmalar kifayət qədər azalacaq. Amma bu, indi deyil, yəqin ki, yaydan sonra baş verəcək. Peyvəndlərin də kliniki sınaqları gedir. Rusiya, ABŞ və digər ölkələr bu sınaqları aparır. Amma müəyyən vaxt lazımdır ki, bu sınaqlar çox sayda insanları əhatə etsin və onun nəticələri öyrənilsin ki, peyvəndlərin nə qədər təsirli və təhlükəsiz olması müəyyən edilsin. Bundan sonra bizim ölkə də hansısa beynəlxalq miqyasda tövsiyə olunmuş peyvəndi əldə edəcək. Gələn il bu vaxt çox güman ki, artıq müəyyən məsələlər həll olunacaq. Ən yaxın müsbət proqnoz bundan ibarətdir".

## Qriplə müqayisədə koronavirus daha davamlı virusdur

Baş infeksionistin sözlərinə görə, koronavirusun simptomlarında heç bir dəyişiklik yoxdur: "Ümumiyyətlə, bu xəstəliyin elə bir tipik simptomu yoxdur ki, buna əsasən yeni koronavirus infeksiyasını təsdiqləyək. Müəyyən simptomlar qrupu var ki, onlar da müxtəlif tezlikdə rast gəlinir. Xüsusən xəstəliyin başlanğıcında ən çox rast gəlinən qızdırma, ümumi zəiflik, quru öskürək və bir qədər az hallarda boğaz ağrısıdır. Amma digər əlamətlər də var, məsələn, kimlərdəsə kürək ağrılarının olması, iy və dadbilmənin itirilməsi, digərlərində isə ishal olması və başqa əlamətlər. Bu hallar olsa da, daha kiçik və fərqli tezlikdə baş verir. Yəni üç-dörd simptoma daha çox rast gəlinir, digərləri isə bu və ya digər xəstələrdə olur. İnfeksiyanın gediş xüsusiyyətlərinin dəyişməsi üçün virus kifayət qədər dəyişməli, əsaslı mutasiyaya uğramalıdır. Belə qısa vaxtda bu, baş verə bilməz. Qrip virusu ilə müqayisədə koronavirus daha davamlı virusdur. Dəyişiklik üçün ən azı 1-3 il vaxt lazımdır. İnsanlar düşünürlər ki, virus dəyişəcək, digərləri kimi olacaq və artıq buna əhəmiyyət verilməyəcək. Ola bilər bu baş versin və çox güman ki, baş verəcək də. Amma indi yox".

O vurğulayıb ki, qripdən fərqli olaraq koronavirus ev şəraitində bir çox hallarda böyüklərdən uşaqlara keçir: "Qripdən fərqli olaraq uşaqlar koronavirusa yoluxanda ya simptomsuz, ya da yüngül keçirirlər. Azyaşlı uşaqlar COVID-19 infeksiyasının fəsadlaşması risk qrupuna aid deyil. Risk qrupuna yaşlılar və yanaşı xroniki xəstəlikləri olanlar aiddir. Amma qripdə bunun əksinə olaraq 5 yaşadək, xüsusən 1 yaşadək uşaqlar risk qrupuna aiddirlər, onlar qripi daha ağır keçirirlər. Təbii ki, uşaqlar koronavirusa yoluxur, müəyyən dövrdə virusu gəzdirirlər. Yoluxanların sayı çoxdursa, virusdaşıyıcılarının başqasına virus ötürmə ehtimalı az da olsa realizə olunur. Ancaq uşaqlar da koronavirusu ağır keçirə bilər, çünki onlar arasında immunodefisiti, yanaşı xroniki xəstəlikləri olanlar var. Belə hallar varsa, azyaşlılarda da böyüklər kimi ağır formalar inkişaf edə bilər və edir də. Amma ümumilikdə belə halların sayı böyüklərlə müqayisədə çox azdır".

Göründüyü kimi, hazırda ölkəmizdə də epidemioloji vəziyyət ürəkaçan deyil. Halbuki bir müddət əvvəl vətəndaşlarımızın məsuliyyətli davranışı, dövlətimiz tərəfindən müəyyənləşdirilən qaydalara əməl etməsi sayəsində pandemiyanı nəzarət olunan həddə saxlaya bilmişdik.

Elə hazırda da gec deyil və çox sadə qaydalara əməl edərək ikinci düşmənimiz pandemiya üzərində də qəti qələbə qazana bilərik. Çünki biz birlikdə güclüyük və bu gücümüz sayəsində məğlub edib diz çökdürə bilməyəcəyimiz heç bir düşmən yoxdur!

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Tarix terrorizmi və saxtakarlığı bağışlamır

Hər bir xalqın tarixi çox ciddi və önəmli bir problemdir. Bu tarix əsaslı elmi təhlillərə istinad etməli, faktları düzgün, obyektiv araşdırmalı, ağ ləkələrdən mümkün qədər uzaq olmalıdır. Bir şərq müdriki demişdir: "Tarix ... gəminin arxasındakı işıqlar kimidir, ancaq iz buraxır. Tanrı mənə qüvvət versin ki, bacardığımı dəyişdirim, fədakarlıq versin ki, dəyişdirə bilmədiklərimi qəbul edim və müdriklik versin ki, birini digərindən fərqləndirə bilim".

Biz tarixin buraxdığı izi həyatın reallığı kimi hərtərəfli araşdırmaqla nəyin dəyişməli olduğunu, nəyi qəbul etməyin məqbulluğunu, bunların fərqli məqamlarını dəqiqləşdirə bilərik, keçiləcək yolu optimallaşdırmağı bacararıq. Lakin görkəmli filosof G.Hegelin qeyd etdiyi kimi, işin mahiyyəti öz məqsədilə yox, özünün həyata keçirilməsi ilə ehtiva olunur.

Tarixi faktların, hadisələrin necə təqdim olunması ilə tanışlıq göstərir ki, son iki əsr ərzində bu məsələ kifayət qədər aktuallaşıb. Bu baxımdan bəzi məqamları yığcam şəkildə nəzərdən keçirməyə ehtiyac var.

Rusiya Federasiyası Prezidentinin 14 fevral 2012-ci il tarixli fərmanı ilə 2012-ci il "Rusiya tarixi ili" elan edilmişdir. Fərman istər Rusiya, istərsə də dünya tarixi prosesində Rusiyanın roluna cəmiyyətin diqqətini gücləndirməyi, bu ölkənin milli maraqlarına zərər vurmaq məqsədi ilə tarixi faktların və hadisələrin saxtalaşdırması cəhdlərinin qarşısını almağı nəzərdə tutur. Araşdırmalar göstərir ki, Rusiya kimi böyük dövlətçilik ənənələrinə malik olan ölkənin tarixində müxtəlif səbəblərlə əlaqədar müxtəlif xarakterli ağ ləkələr mövcuddur. Onları şərti olaraq üç dövrə bölmək olar.

Birinci dövrə nəzər salmaq üçün XIX əsrin sonlarına qayıdaq. Çar III Aleksandr erməni millətçiliyinə qarşı qətiyyətli ölçülər görülməsi ilə bağlı 1882-ci ildə Daxili İşlər naziri Tolstoya müvafiq göstərişlər verir. 80-ci illərin sonlarında hökumətin sərəncamı ilə, demək olar ki, bütün ermənilər yüksək dövlət vəzifələrindən kənarlaşdırılır. 1885-ci ildə 160 erməni prixod məktəbi bağlanır. 1889-cu ilin mart ayında Ermənistanın tarixi və coğrafiyasının tədrisinin orta məktəb proqramından çıxarılması haqqında fərman verilir. Maraqlı bu idi ki, bu sərt tədbirlər daşnakların Rusiyanın dövlət quruluşunun əsaslarını dağıtmağa yönələn xain niyyətlərinə adekvat cavab idi.

Amma bunlar da hələ hamısı deyildi. 1902-ci ildə rus çarı II Nikolay erməni kilsəsinin mülkiyyətinin müsadirəsi və erməni məktəblərinin bağlanması haqqında fərman vermiş, erməni kilsəsinin fəaliyyətinə qadağalar qoymuş, Rus pravoslav kilsəsi erməni kilsəsini lənətləyən çağırışlar etmişdir.

Faktlar göstərir ki, II Nikolayın öz babası I Nikolayın siyasətinin tam əksinə olaraq, bu qədər radikal tədbirlər görməyə məcbur olması səbəbsiz deyildi. Məsələ ondadır ki, birinci rus inqilabı ərəfəsində bütün Qafqaz üzrə bir çox erməni kilsələrində gizli silah saxlanan yerlər, döyüş sursatları, qeyri-leqal mətbəələr aşkar edilmişdir. Çar mütləqiyyəti anlamışdır ki, Qafqazdakı təbii görünən çaxnaşmalar xaricdən idarə olunur və başlıca tədbirlər erməni təşkilatları, əsasən Daşnaksütyun vasitəsilə həyata keçirilir. Erməni terrorçularının cinayətkarlığı haqqında məlumatları B.Veliçko, imperator Elmlər Akademiyasının müxbir üzvü N. Kapterev, kilsənin tarixi üzrə doktor A. Anninski, məşhur qafqazşünas İ. Kanadeyev və başqaları ürək ağrısı ilə yazmışlar. Amma bu gün həmin müəlliflərə az diqqət yetirilir. Rusiya tarixinin bu səhifələrində ağ ləkələr hələ də qalmaqdadır.

1912-ci ildə Peterburqda 150 müttəhim və 850 şahid cəlb edilməklə Daşnaksütyun partiyasının üzərində möhtəşəm məhkəmə prosesi getmişdir. Təsəvvür etmək çətin deyildir ki, XX əsrin birinci onilliyində Rusiyanın ərazisində erməni millətçilərinin qanlı terroru hansı həddə çatmışdır.

Məlum həqiqətdir ki, erməni millətçi hərəkatının əsasını terror təşkil edir. Mütəmadi olaraq dövlət məmurlarına qarşı bir sıra sui-qəsdlər təşkil olunmuşdu. 1903-cü ilin oktyabrında terror dalğası özünün ən yüksək pik nöqtəsinə çatdı. Erməni terroristləri Rusiyanın Qafqazdakı canişini knyaz Q.S.Qolitsını ağır yaraladılar. Başından xəncər zərbəsi almış knyaz tezliklə öldü. Araşdırmalar göstərir ki, 1897-ci ildə Q.S.Qolitsın Tiflisdə və Bakıda ermənilərin bütün hakimiyyəti ələ keçirdikləri barədə məlumatlar vermişdir. Buna görə də çar ermənilərin şəhər seçkilərində iştirakdan tamamilə kənar edilməsi haqqında fərman vermişdir. Çar məmurlarına Daşnaksütyun partiyasından erməni terrorçularının hücumu II Nikolayı Daşnaksütyunun fəaliyyətini qadağan etməyə məcbur etdi və uzun müddət ərzində partiya qanundan kənar elan edildi.

Rusiya milli tarixində ağ ləkələrin ikinci dövrü M.Qorbaçovun Sovet İttifaqı Kommunist Partiyası MK-nın baş katibi vəzifəsində fəaliyyəti ilə erməni terrorçularının Qafqazda tam şəkildə fəallaşmasına, qol-qanad açmasına kömək etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci ilin oktyabrın 28-də Rusiyanın İnterfaks agentliyinin müxbirinə müsahibəsində demişdir: "Son 200 ilin tarixini, Qafqazın tarixini izləsək, ermənilərin ucbatından neçə müharibə baş verməsini, onların başqa ölkələr üçün necə təxribat yaratmasını görərik".

1988-ci ildə Daşnaksütyunun ofisi Afinadan Yerevana köçdü və bu hadisə keçmiş SSRİ-nin əsas televiziya proqramlarında təntənəli surətdə nümayiş etdirildi. Beləliklə, Rusiyanın dövlət quruluşuna qarşı sistematik dağıdıcı fəaliyyətinə görə qadağan edilmiş partiya SSRİ-nin dağılması ərəfəsində imperiyanın yeritdiyi siyasətin ön cəbhəsinə qayıtdı. Elə bu dövrdə M.Qorbaçov Dağlıq Qarabağın Ermənistana verilməsinin mümkünlüyü barədə Daşnaksütyun partiyasının liderlərinə vədlər verdi. Daşnaksütyun şovinist bir partiya olaraq Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlarda daim barışmaz mövqelər göstərməyə başladı. Burada da ciddi izah tələb edən ağ ləkə hələ qalmaqdadır. Həmin ağ ləkənin arxasında hiyləgərliyin və saxtalaşdırmanın çoxəsirlik tarixi durur. Yeni dünya nizamının formalaşdığı müasir dövrdə onların araşdırılması və aradan qaldırılması mühüm əhəmiyyət kəsb edir.

Sözügedən dövrdə SSRİ-yə rəhbərlik edən şəxslərin Dağlıq Qarabağ münaqişəsinə münasibətdə ciddi yanlışlıqlara və qanun pozuntularına yol verdikləri məlumdur. Məlumdur ki, həmin dövrdə Ermənistan SSR Ali Sovetinin Dağlıq Qarabağı Ermənistana birləşdirmək haqqındakı qərarı SSRİ Konstitusiyasına zidd idi və bu səbəbdən problem həmin anda həll oluna bilərdi. Lakin M.Qorbaçov nəinki ermənilərin bu qanunazidd hərəkətinin qarşısını aldı, əksinə, onların separatçı, işğalçı siyasətinə dəstək verdi. Nəticədə bu yanlışlıq, ədalətsizlik, həmrəylik sovet dövlətinin özünün başında çatladı və SSRİ-nin süqutunu şərtləndirən mühüm səbəblərdən biri oldu.

Üçüncü ağ ləkələr dövrü isə müstəqillikdən sonrakı mərhələni əhatə edir. Hadisələr göstərdi ki, özünü SSRİ-nin varisi elan etmiş Rusiya gözləntilərin əksinə olaraq, sözügedən məsələdə Sovet İttifaqının səhvlərindən yetərincə nəticə çıxarmamışdır. Bu münaqişədə Rusiya ATƏT-in Minsk qrupunun üzvü kimi öz öhdəliklərini icra etmək əvəzinə, digər üzv ölkələrlə birlikdə 28 il "problemin hərb yolu ilə həlli yoxdur" deyərək vəziyyətin dəyişilməz qalmasına üstünlük verdi. Cəzasızlıqdan, zəruri təzyiqlərin olmamasından istifadə edən Ermənistan isə ölkəmizin yeni ərazilərini işğal etmək arzusuna düşdü.

Sonrakı hadisələr məlumdur. Ermənistanın təcavüzü üzündən sentyabrın 27-də Azərbaycanın apardığı əks-hücum əməliyyatı işğalçıların silahlı qüvvələrinin darmadağın edilməsi ilə sona çatdı. Ermənistan ağ bayraq qaldıraraq təslim oldu. Bununla Qarabağın 30 illik işğalına birdəfəlik son qoyuldu.

İndi Ermənistan keçdiyi yolu diqqətlə təhlil edərək terrordan əl çəkməli, terrorçu təşkilatlarını buraxmalı, mövcud reallıqları hərtərəfli nəzərə almalıdır. Çünki erməni terrorizmi artıq çoxdan milli hüdudları aşmışdır. Bu terror siyasəti beynəlxalq arenada möhkəmlənmək üçün səylərini artırmaqla yeni-yeni fəlakətlər törədir. Erməni terrorist qrupları müxtəlif vasitələrdən (müəyyən insan qruplarının oğurlanması, ictimai yerlərdə bomba partladılması, təyyarələrin, digər nəqliyyat vasitələrinin qaçırılması mülkiyyət, vəsait əldə etmək üçün qarışıqlıq salınması, bankların talan edilməsinə, işgəncə verilməsinə cəhdlər və s.) istifadə edirlər. Belə qrupların fəaliyyəti çox vaxt konkret dövlətə qarşı çevrilir, ölkələrdə sabitliyin pozulmasına xidmət edir.

O üzdən bu gün Azərbaycan Ermənistan terrorizminə, vəhşiliyinə və mənəviyyatsızlığına qarşı da müharibə aparmalı olur. Müstəqilliyimizi möhkəmləndirmək üçün müxtəlif istiqamətli tədbirlərin reallaşdırılması vacib olsa da, qüdrətli bir ölkəyə çevrilmək, müstəqilliyi qorumaq üçün bu da lazımdır. Ulu Öndər demişdir: "Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumağa və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun".

Yazımızı görkəmli sosioloq R.Darendorfun münaqişələrlə bağlı əsaslı bir mülahizəsi ilə bitirmək istəyirik: "Kim münaqişələrin etiraf olunması və nizamlanması yolu ilə onların öhdəsindən gələ bilirsə, o, tarixin ritmini öz nəzarətinə götürür. Kim bu imkanı əldən buraxırsa, ritmi özünə düşmən kimi qəbul edir".

Bəli, bu gün qürurla deyə bilərik ki, Azərbaycan mövcud münaqişənin nizamlanmasında həlledici rol oynayan, tarixin ritmini nəzarətə götürməyi bacaran və "Qarabağ Azərbaycandır!" ifadəsini Böyük Qələbənin rəmzinə çevirən qüdrətli dövlət olduğunu sübut etmişdir.

***Fazil VAHİDOV,***
***Tahir AĞAYEV,***
***BDU-nun Sosiologiya kafedrasının dosentləri***

# Avropa Səhiyyə İttifaqı yaradılır

## Köhnə dünya ÜST-dən ayrılmaq niyyətindədir

Payız mövsümünün gəlişi ilə əlaqədar dünyanın müxtəlif regionlarında yeni tip koronavirusa yoluxma hallarının sayında, gözlənildiyi kimi, artım müşahidə olunur. Bu tendensiya Avropa ölkələrindən də yan keçməyib. Köhnə dünyanın bir çox ölkələrində, xüsusilə İtaliya, Almaniya, Avstriya, İspaniyada xəstələnənlərin sayında nəzərəçarpan azalma qeyd olunmur. İş o yerə gəlib çatmışdır ki, qitənin bəzi ölkələrində karantin rejiminə qayıdış məsələsi gündəliyə çıxarılır.



Artıq Avstriya hökuməti sərt karantin rejiminin tətbiq olunması barədə qərar qəbul etmişdir. Koronavirusun ölkədə sürətlə yayılması barədə məlumatlar daxil olduqdan sonra belə bir addım atmaq lazım gəlmişdir. Baş nazir Sebastyan Kurts vurğulamışdır ki, hər bir yeni sosial təmas artıqdır. Öz növbəsində Vyana Universitetinin mikrobiologiya mərkəzinin direktoru Mixael Vaqnerin dediyinə görə, indi sanitar tədbirlərə uzun müddət riayət olunması vacibdir. O hesab edir ki, yayda əhali COVID-19-un qurtardığını zənn edirdi. İndisə vətəndaşların əksəriyyəti artıq başa düşür ki, bu qənaət səhv idi və belə bir səhvi təkrarlamaq arzuolunmaz nəticələrə gətirib çıxara bilər.

Bu gündən etibarən Avstriyada yalnız üzrlü səbəblərə görə küçəyə çıxmaq mümkün olacaq. Məktəblər distant təhsilə keçir, xidmət sahəsi müəssisələri və əksər mağazalar bağlanır, ofis əməkdaşları isə imkan daxilində evdən işləməli olacaqlar.

Almaniya hakimiyyət orqanları da cari ayın 2-də tətbiq olunmuş "yumşaq karantin" məhdudiyyətlərini sərtləşdirməyə hazırlaşır. Əsas vəzifə insanlar arasında təması daha da daraltmaqdır: uşaq və yeniyetmələrə asudə vaxtda yalnız bir "daimi dost" ilə, böyüklərə isə yalnız bir "daimi mehriban ev"in nümayəndələri ilə görüşməyə icazə veriləcək.

Köhnə dünyada yaranmış vəziyyətin təkrarlanmaması üçün Avropa Komissiyası (AK) Avropa Səhiyyə İttifaqı yaratmaq niyyətinə düşmüşdür. Səhiyyə məsələləri üzrə Avropa komissarı Stella Kiriakides bu ideyanı irəli sürərkən qeyd etmişdir ki, Avropa İttifaqı (Aİ) ölkələri səhiyyə sahəsində hazırkı koronavirus kimi irimiqyaslı böhranlarla mübarizə aparmaq üçün öz hərəkətlərini əlaqələndirməlidirlər. O xatırlatmışdır ki, yeni tip pandemiyanın ilk həftələrində və aylarında ayrı-ayrı ölkələrin əlaqələndirilməmiş addımları istənilən nəticəni verməmişdir.

Yeni qurum yoluxucu xəstəliklərin inkişafını izləyəcək və zəruri olanda Aİ səviyyəsində fövqəladə vəziyyət elan edəcək. Söhbət Aİ-nin Ümumdünya Səhiyyə Təşkilatından (ÜST) ayrılmasından gedir. Bir sıra avropalı ekspertlər hesab edirlər ki, COVID-19 pandemiyası başlayanda qitə ölkələri ÜST-ə həddən artıq etibar edirdilər. Amma ÜST də səhvsiz deyildi. Məsələn, ekspertlərin fikrincə, Çinin təzyiqi altında ÜST fövqəladə vəziyyəti çox gec elan etdi. Odur ki, Avropanın gələcəkdə ÜST-dən ayrıca fəaliyyət göstərməsi məsləhətdir. Digər tərəfdən, hazırda yeni epidemiyaların meydana çıxması riski yüksəkdir və ona görə də Avropa belə hallara yaxşı hazırlaşmalıdır.

Bununla yanaşı, Brüssel səhiyyə məsələləri ilə əlaqəli strukturların səlahiyyətlərini genişləndirmək istəyir. Belə ki, Avropa Dərman Vasitələri Agentliyi yalnız peyvənd və dərmanların bazara buraxılmasına cavabdeh olmayacaq, həm də Aİ ölkələrində dərman və tibbi avadanlıq çatışmazlığını izləyib belə problemləri erkən mərhələdə aradan qaldıracaq. Eləcə də AK Stokholmdakı Avropa Xəstəliklərin Profilaktikası və Nəzarəti Mərkəzinin fəaliyyətini gücləndirməyi planlaşdırır. Mərkəz gələcəkdə konkret ölkə barədə məlumat ala və ona müvafiq tövsiyələr verə biləcək, halbuki bu il, məsələn, qoruyucu maskalardan istifadə məsələsində Avropa ölkələri aylar boyu razılığa gələ bilməmişdi.

Məlum olduğu kimi, Aİ-nin üzvü olan dövlətlər səlahiyyətlərinin hansısa hissəsini Brüsselə verməyə həvəsli deyillər. Bununla belə, koronavirusun ilk dalğası zamanı müşahidə edilmiş xaos göstərdi ki, bu məsələnin qitə səviyyəsində tənzimlənməsi vacibdir. Avropa Parlamenti də belə planları yalnız alqışlayır.

Avropanın aparıcı siyasətçiləri Səhiyyə İttifaqı ideyasına müsbət yanaşırlar. Onların fikrincə, Aİ ərazisində sərhədlərin razılaşdırılmadan bağlanması, vacib dərman və tibbi avadanlıqların ixracının dayandırılması kimi fərdi milli təşəbbüslərə son qoyulmalıdır. Başqa sahələrdə olmasa da, səhiyyə sahəsində Brüsselə daha çox səlahiyyət verilməlidir ki, böhrana uyğun və yekdil reaksiya verə bilsin. Siyasətçiləri belə bir məqam da narahat edir ki, ölkələrin pandemiya ilə mübarizənin aparılmasında fərqli yanaşmalarında qarmaqarışıqlıq üzündən Aİ vətəndaşları özlərinə inamsızlıq hiss edir, maska taxılması, sosial məsafənin saxlanılması, testləşdirmə və karantin tətbiqi kimi elmi cəhətdən təsdiqlənmiş tədbirlərə elə də ciddi yanaşmırlar.

Səhiyyə İttifaqının 2023-cü ildən sonra fəaliyyətə başlayacağı ehtimal olunsa da, Aİ səhiyyənin bəzi sahələrində artıq mərkəzləşdirilmiş formada fəaliyyət göstərir. İndi əsas məsələ üzv-ölkələrdə "BioNTech" və "Pfizer" şirkətlərinin hazırladığı peyvəndlərin necə paylanacağıdır. Hələlik təkcə o məlumdur ki, hansı kateqoriya əhalinin, ilk növbədə, peyvəndlənməsini üzv-dövlətlər qəraralaşdıracaq. Aİ ölkələrində ilk peyvənd dozalarının dekabrın axırları-gələn ilin əvvəllərində paylanacağı gözlənilir.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Ermənistanın təxribatları nəticəsində 94 mülki şəxs həlak olub, 414 nəfər yaralanıb

Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 16-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını təqdim edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 94 nəfər həlak olub, 414 nəfər xəsarət alıb. Bundan başqa, Ermənistan ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 3410 ev, 120 çoxmənzilli yaşayış binası və 512 mülki obyekt yararsız vəziyyətə düşüb.

# Beynəlxalq ictimaiyyət Azərbaycanın zəfərini yüksək qiymətləndirir



“Hazırkı geosiyasi vəziyyətə baxanda aydın olur ki, İkinci Qarabağ müharibəsinin mütləq qalibi Azərbaycan və Azərbaycan Prezidentidir”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri İsrail diplomatı, “Nativ” xüsusi xidmətinin keçmiş rəhbəri Yakov Kedmi YouTube-da yayımlanan “Solovyov live” verilişində söyləyib. O deyib ki, Azərbaycan Prezidenti bütün məqsədlərinə çatıb, ermənilərin işğalı altında olan torpaqları azad edib. Y.Kedminin fikrincə, növbəti danışıqlarda Dağlıq Qarabağın statusu Ermənistanın xeyrinə dəyişməyəcək. “Boşboğaz və məsuliyyətsiz ermənilərin indiki rüsvayçı məğlubiyyətdən əvvəl Azərbaycanla razılığa gəlmək və Ermənistan sərhədlərində qalmaq imkanı var idi”, - deyə o vurğulayıb.

Aparıcı Vladimir Solovyov həmsöhbətini dəstəkləyərək Azərbaycan Prezidenti İlham Əliyevin Paşinyanla bilavasitə qarşıdurmada mütləq qalib olduğunu etiraf edib: “O, Paşinyanı məhv etdi. Paşinyan naməlum səbəbdən Şuşada rəqslər təşkil etmiş bacarıqsız rəqqas, Əliyev isə peşəkar prezidentdir”.

Y.Kedmi qeyd edib ki, Azərbaycan Prezidentini həm təhsilinə, həm təcrübəsinə, həm də dövlətçilik təfəkkürünə görə Paşinyanla müqayisə etmək olmaz. İsrail güc strukturlarının sabiq nümayəndəsi deyib: “Əliyev Azərbaycan tarixində hələ heç kimin etmədiyini etdi. O, öz qüvvəsi ilə Azərbaycanın milli problemlərindən birini həll etdi, Azərbaycanı həm beynəlxalq, həm də milli baxımdan möhkəmləndirdi. O təsdiq etdi ki, Azərbaycan hakimiyyəti xalqın maraqlarına xidmət edir”.

Dağlıq Qarabağda ermənilərə qarşı Azərbaycan Ordusunun tərkibində əcnəbilərin vuruşduğunu iddia edənlərə cavabında Y.Kedmi sual edib: “Siz bir türk əsgərinin və ya suriyalının cəsədini tapmışınız? Bir nəfər də olsun qeyri-azərbaycanlının meyitini tapmışınız?” V.Solovyovun “üç suriyalı əsir dindirilib” iddiasına cavab olaraq o, “üç suriyalı ermənilərə qalib gəlib?” sualını verib və deyib: “Azərbaycan Ordusu qalib gəlib, çünki onun döyüş qabiliyyəti, ciddi əməliyyatlar həyata keçirmək bacarığı yüksək səviyyədə idi”.



Noyabrın 5-də “The Times” qəzeti Britaniya parlamentinin Lordlar Palatasının bir qrup üzvünün Cənubi Qafqaz tarixində baş verən hadisələrin kontekstini təhrif etməyə və bununla ərazi bütövlüyü prinsipinin üstünlüyünə xələl gətirməyə cəhd edən məktubunu dərc edib.

Həmin məktuba cavab olaraq Lordlar Palatasının regionun tarixini daha dərindən bilən başqa bir qrup üzvü “The Times” qəzetinə regionun gələcəyinin xalqların öz müqəddəratını təyin etməsi prinsipi ilə müəyyən edilməsinin, sadəcə, mümkünsüz olduğunu izah edən məktub göndərib. Təəssüf ki, qəzet tərəfindən dərc olunmayan məktubda aşağıdakılar qeyd olunur:

“Biz Lordlar Palatasından olan bir qrup həmkarımızın 5 noyabr tarixində dərc olunmuş məktubu ilə razı deyilik. Unutmamalıyıq ki, Qarabağ Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisidir. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi (822, 853, 874, 884) Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır. Bu qətnamələrdə erməni qoşunlarının Qarabağdan çıxarılması tələb olunurdu və bu tələb hələ də yerinə yetirilməyib.

Xalqların öz müqəddəratını təyinetmə hüququ Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərə münasibətdə birtərəfli sessiya formasında tətbiq edilə bilməz. Bölgədəki ermənilər 1992-ci ildə müstəqillik tələb edən zaman artıq 1991-ci ildə qurulmuş Ermənistan Respublikası mövcud idi. Buna görə də Ermənistan öz müqəddəratını təyinetmə hüququndan artıq istifadə edib və beləliklə, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində ikinci erməni dövləti yarada bilməz.

Unutmamalıyıq ki, Qarabağda yaşayan ermənilərin birtərəfli şəkildə müstəqillik elan etməsindən sonra yüz minlərlə azərbaycanlı ərazidən qaçmalı olub və bugünədək məcburi köçkün kimi yaşayır.

Ən əsası, beynəlxalq sənədlər (məsələn, 1945-ci il BMT Nizamnaməsinin 1-ci fəsli və 1975-ci il Helsinki Yekun Aktı) təsdiqləyir ki, öz müqəddəratını təyin etmək iddiaları beynəlxalq hüququn dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə qarşı güc tətbiqindən istifadənin qadağan edilməsi kimi təməl prinsiplərininin - Jus Cogenlərin - kobud şəkildə pozulması ilə müşahidə olunduqda təmin edilə bilməz.

Hesab edirik ki, regionda sülhün bərqərar olması və əziyyətlərə son qoyulmasına təcili ehtiyac var, lakin buna öz müqəddəratını təyinetmə prinsipi ilə nail olmaq mümkün deyil”.

Məktubu Lord Şeyx, Lord Brus, Lord Evans, Baronessa Uddin və Baronessa Hüseyin-Ece imzalayıblar.



“Rusiya mətbuatında Qarabağdan çıxarılan ermənilərin evlərini yandırmağa başladıqları barədə məlumat yayılır. Bu məlumatda yalnız bir həqiqət var - həqiqətən ermənilər son 25 ildə yaşadıqları evləri yandırırlar. Lakin doğrudanmı fakt olaraq, özlərinə məxsus evləri yandırırlar?”

AZƏRTAC xəbər verir ki, bu barədə “Facebook” səhifəsində Q.V.Plexanov adına Rusiya İqtisadiyyat Universitetinin politologiya və sosiologiya kafedrasının dosenti, hərbi ekspert Aleksandr Perenciyev yazıb.

“Mən diqqəti ona cəlb edirəm ki, ermənilər tərk etdikləri rayonlarda 90-cı illərin ortalarına qədər yaşamırdılar. Orada demək olar ki, azərbaycanlılar yaşayırdılar və Ermənistan tərəfindən başlanmış soyqırımı nəticəsində ya öldürülmüş, ya da öz evlərini atıb qaçmağa macal tapmışdılar. Sonradan orada ermənilər məskunlaşmışlar. İndi ermənilər Laçın, Kəlbəcər, Ağdam rayonlarında əvvəllər azərbaycanlılara məxsus olan özlərinin 25 il yaşadıqları evləri yandırırlar”, - deyə ekspert yazır.

A.Perenciyevin sözlərinə görə, indi şikayətlənən erməni qaçqınlarını mediada göstərən zaman 1990-cı illərin əvvəllərində bu torpaqlarda öldürülən və ya sağ qalan, tələsik kiçik vətənlərini tərk etməyə məcbur olan azərbaycanlıları xatırlamaq lazımdır. “Ədalət ikili standartlar üzərində qurula bilməz! Xüsusilə tarixi ədalət. Azərbaycan Qarabağda sülh tərəfdarıdır, Qarabağ isə Azərbaycandır!”, - deyə o yazıb.




“Rusiya 1” kanalında yayımlanan “Vesti nedeli” verilişində Qarabağda hərbi əməliyyatlara son qoyan üçtərəfli bəyanat barədə danışılıb.

AZƏRTAC xəbər verir ki, verilişin aparıcısı Dmitri Kiselyov Azərbaycan Prezidenti İlham Əliyevin, Rusiya Prezidenti Vladimir Putinin və Ermənistanın baş naziri Nikol Paşinyanın imzaladıqları sülh bəyanatından sonra Qarabağda müharibəyə son qoyulduğunu qeyd edib.

Kiselyov Ermənistan baş nazirinin Cıdır düzündə rəqs etdiyi kadrların nümayişi fonunda qeyd edib ki, Paşinyanın bu hərəkəti Bakıda təxribat kimi qarşılanmışdı.

“İlham Əliyev prezidentliyi dövründə, - onun dövlətin sükanı arxasında uzun müddət qalmaq şansı böyükdür, - Qarabağın statusu olmayacağını bəyan edib”, - deyə D.Kiselyov bildirib.

Jurnalist vurğulayıb ki, hazırda Azərbaycan İkinci Qarabağ müharibəsində qələbəsini qeyd edir. Azərbaycan Ordusu indiyədək görünməmiş qüdrətə malikdir və bütün bunlar İlham Əliyevin xidmətləridir.

D.Kiselyov xatırladıb ki, iki il yarım bundan əvvəl rəngli inqilablar texnologiyası əsasında hakimiyyətə gələn Paşinyan Azərbaycan ilə danışıqlardan imtina edərək “Qarabağ Ermənistandır və nöqtə” demiş, danışıqlar masası arxasına oturmaq əvəzinə Şuşaya rəqs etməyə getmişdi. Paşinyanın bu “özgüvəni”nin arxasında Ermənistanı və Qarabağı aldatmaq məqsədi dururdu. Vəziyyətin yetərincə qiymətləndirilməməsi son nəticədə Paşinyanın bacarıqsız komandasını döyüşlər zamanı lap əvvəldən sonadək öz xalqını aldatmağa vadar etmişdi.

“İndi nə olacaq” deyə D.Kiselyov soruşur və əlavə edir ki, Ermənistan ordusu yerləyeksan olub. Ermənistanın indi çətin dövrlər yaşadığını vurğulayan D.Kiselyov itki yarasının zamanla qasnaq bağladığını yada salaraq bu zamanı inkar, qəzəb, alver, depressiya və qəbuletmə kimi mərhələlərə bölüb. Rusiyalı jurnalist deyib: “Ermənistan inkar mərhələsini artıq ötüb, indi qəzəb mərhələsini yaşayır. Növbəti mərhələ isə ölkə daxilində və xaricdəkilərlə alverdir”.



“Azərbaycan xalqı əzm, məqsədyönlü fəaliyyət və liderliklə tarixi yenidən yazmağın mümkün olduğunu sübut etdi”.

AZƏRTAC xəbər verir ki, bu fikir “Azərbaycanın dostları” şəbəkəsinin rəhbəri Malik Ayyub Sumbalın Qarabağ müharibəsində qazanılan möhtəşəm qələbə münasibətilə Azərbaycan xalqına təbrikində əks olunub.

“Bu qələbə güclü və qətiyyətli lider olan Prezident İlham Əliyevin strategiyasına əsaslanır”, - deyən Malik Ayyub Sumbal əlavə edib ki, qələbə həm də Vətən üçün canlarından keçən şəhidlərin sayəsində mümkün olub.

Qeyd edək ki, pakistanlı geosiyasi təhlilçi, jurnalist Malik Ayyub Sumbalın təsisçisi olduğu “Azərbaycanın dostları” şəbəkəsi Azərbaycan həqiqətlərinin, o cümlədən Qarabağ münaqişəsi barədə reallıqların dünyaya çatdırılmasına çalışır.




“Yerevanın Qarabağı istilası nəticəsində Ermənistan-Azərbaycan arasında başlayan münaqişənin həlli üçün 1992-ci ildə yaradılmış və həmin vaxtdan bu böhrandan çıxmaq üçün böyük rol oynaması gözlənilən Minsk qrupu uduzdu. ATƏT-in himayəsi altında yaradılmış, ABŞ, Rusiya və Fransanın həmsədrlik etdiyi bu qrup münaqişənin tez həlli istiqamətində öz nüfuzundan istifadə etməyi bacarmadı. Bir tərəfdə başqa prioritetləri olan Donald Tramp, eləcə də güclü və etibarlı diplomatik rol oynamaq üçün Fransadakı ermənipərəst təzyiq qruplarının təsiri altında zəruri bitərəfliliyi saxlaya bilməyən Emmanuel Makron. Digər tərəfdə isə hər iki ölkə ilə yaxşı münasibətləri olan, ənənəvi olaraq Ermənistanı siyasi və hərbi baxımdan dəstəkləyən, eləcə də Azərbaycana da hərbi sursat təchiz edən və hər iki tərəfi danışıqlar masasına yönəldə bilən tək Rusiya”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri fransız jurnalist Sebastyən Bussua “RT France” telekanalının saytındakı yazısında vurğulayıb.

“Bakının dəfələrlə təsdiqlədiyi kimi, müharibənin məqsədi 30 ildir qəbul edilmiş və Azərbaycanın de-fakto tanınan ərazilərindən erməni silahlı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxmasını tələb edən beynəlxalq qətnamələri yerinə yetirməkdir. Bunlar BMT Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı, BMT Baş Assambleyasının 62/243 (2008) saylı qətnamələridir. Azərbaycan bizim tətbiq etməyi bacarmadığımız beynəlxalq hüququ tətbiq etməyi bacardı”, - deyə jurnalist Sebastyən Bussua yazır.

O, 44 gün davam edən müharibənin Ermənistanın açıq məğlubiyyəti ilə bitdiyini qeyd edib.




Dünya İqtisadi Forumunun məsləhətçisi, “Meyer Resources” konsaltinq şirkətinin icraçı direktoru Kornelia Meyer Səudiyyə Ərəbistanının ingilis dilində nəşr olunan “Arabnews” qəzetinə “Qafqazda qaliblər və məğlublar” sərlövhəli analitik məqalə yazıb.

AZƏRTAC xəbər verir ki, müəllif Qarabağ müharibəsinin qalibinin Azərbaycan olduğunu qeyd edib. O əlavə edib ki, Azərbaycan xalqının Qələbəni sevinclə bayram etdiyi bu günlərdə ermənilər Yerevanın küçələrində Paşinyanın istefasını tələb edirlər.

Müəllif yazır ki, Qarabağa sülhməramlı qoşun hissələri göndərən Rusiyanın Cənubi Qafqaz regionunda təsirinin güclənməsi uzun illər münaqişənin nizama salınmasına biganə yanaşan Avropa İttifaqı və ABŞ üçün heç də yaxşı perspektiv vəd etmir. Türkiyəyə gəldikdə isə, K.Meyer qeyd edir ki, rəsmi Ankara öz müttəfiqi Azərbaycana dəstəyini gücləndirərək, eyni zamanda, sülhməramlı missiyada fəal iştirak edəcək.

Məqalədə ATƏT-in Minsk qrupunun müharibə günlərində fəaliyyətsiz olmasına da diqqət çəkilir. K.Meyer qeyd edir ki, müharibənin dayandırılması üzrə danışıqlarda heç bir rol oynamayan Avropa ölkələrini də məğlub hesab etmək olar. “Qarabağ və Qafqaz ərazi olaraq bizdən uzaqda yerləşir, lakin bu region strateji əhəmiyyətə malikdir. Koronavirus pandemiyasının yayıldığı və neftin qiymətlərinin aşağı düşdüyü, habelə Çinin İpək yolu və Kəmər layihələri ilə bölgədə təsirini artırdığı bir şəraitdə sözügedən regionda Avropa ölkələri və ABŞ deyil, məhz Rusiya və Türkiyənin təsiri artdı. Bu, Azərbaycan və müharibənin dayanmasında həlledici rol oynayan ölkələr üçün geosiyasi qələbədir”, - deyə müəllif vurğulayır.

K.Meyer sonda yazır ki, çətinliklə əldə olunan razılaşma ermənilərə çox baha başa gəlib və yaxın gələcəkdə Ermənistanda olduqca ağır proseslərin şahidi ola bilərik.




“Ermənilərdən fərqli olaraq, azərbaycanlılar Kəlbəcərdən ayaqyalın qaçırdılar. Aradan çox illər keçsə də, bunu unutmaq olmaz”.

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiyanın “Rossiya 1” telekanalında yayımlanan “60 dəqiqə” proqramında Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti Aleksey Naumov Kəlbəcəri tərk edən ermənilərin oradakı evlərini və digər tikililəri yandırmasını əks etdirən videogörüntüləri şərh edərkən bildirib.

Qarabağın beynəlxalq hüquqa əsasən Azərbaycan torpağı olduğunu, onun öz ərazilərini geri qaytarmaq üçün mübarizə apardığını vurğulayan ekspert deyib: “Ən əsası isə rəsmi Bakı Şuşa şəhərini aldığı zaman alicənablıq göstərərək razılıq verdi ki, sülhməramlılar əraziyə buraxılsın, rayonlar mərhələ-mərhələ, tədricən Azərbaycana qaytarılsın. Azərbaycanın özünü bu vəziyyətdə bundan da artıq necə alicənablıqla apara biləcəyini təsəvvür edə bilmirəm. Ermənilərə bu rayonlardan çıxmaları üçün vaxt verildi”.

Aleksey Naumov 1993-cü ildə azərbaycanlıların Kəlbəcərdən çılpaq, ayaqyalın qaçmasını da xatırladıb: “Bu tamamilə faciəli vəziyyət idi və onu bu gün də unutmaq olmaz. Bəli, bu, çoxdan olub, amma biz bunu unuda bilmərik”.

Ekspert Ermənistan hakimiyyətinin bu vəziyyətdə belə, özünü qeyri-adekvat aparmasından danışaraq deyib: “Aydındır ki, hərbi məğlubiyyətdən sonra qisas almağı, yumruğunu sıxaraq, onların hesab etdiyi kimi - “özününkünü” qaytarmaq istəyirsən. Lakin biz qisasçılığın nəyə gətirib çıxardığını bilirik. Biz bunu Avropada XX əsrdə çox yaxşı görmüşük”.

Rusiyalı ekspert çıxışının sonunda Ermənistanın baş naziri Nikol Paşinyanın öz qürurunu udaraq İlham Əliyevə zəng etməli olduğunu bildirib.

“Azərbaycan bu gün belə bir vəziyyətdə özünü maksimum alicənab aparır, çünki 1993-cü ili unuda bilmərik”, - deyə o əlavə edib.



“Azərbaycan şanlı bir zəfərlə onillikləri əhatə edən “yenilməz erməni” mifini darmadağın edib öz torpaqlarına döndü. Qəhrəman əsgərlərimiz cəbhədə qazandığı Qələbə ilə siyasi və diplomatik masada can Azərbaycanın gücünə güc qatdı. Türkiyənin atəşkəs missiyasında tərəf olması hər iki qardaş ölkənin strateji maraqlarını tamamladı. Bütün bu uğurlara görə Ali Baş Komandan, Prezident İlham Əliyevin timsalında bütün hərbçilərimizi, şəhid və qazilərimizin ailələrini təbrik edir və onlara təşəkkürümü ifadə edirəm”.

Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç AZƏRTAC-a müsahibəsində bildirib.

Azərbaycana bağlı bütün işlərə eynilə öz vətəninin və xalqının məsələsi kimi yanaşdığını diqqətə çatdıran səfir Hulusi Kılıç deyib: “Azərbaycan əsgəri 44 günlük savaşda qanı, canı və sağlamlığı bahasına bizlərə bu şərəfli qalibiyyəti qazandırdı. Nəticəyə görə, Azərbaycanın ərazi bütövlüyü təmin edilir, qaçqın və məcburi köçkünlər öz yurdlarına dönür, Naxçıvanla Azərbaycanın əsas hissəsi arasında quru əlaqələri bərpa olunur. Lakin bunların hamısından əsas odur ki, Prezident İlham Əliyevinin qətiyyəti və düzgün siyasəti nəticəsində qürurumuzun öz yerini almasıdır. Azərbaycan xalqı hər zaman qürurlu və şücaətli olub. Lakin işğal faktı milli kimliyimizin üstünə ləkə salmışdı. Bu ləkənin təmizlənməsi istiqamətində göstərilən şücaətin dəyərini tarix daha düzgün verəcək”.

Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyədə inkişaf dinamikasında olduğunu diqqətə çatdıran diplomat bildirib: “Türkiyənin atəşkəs prosesində Rusiya ilə bərabər iştirak etməsi rəsmi Ankara ilə Bakının regional proseslərə birgə təsirini gücləndirəcək. Ən yaxın zamanlarda Azərbaycan və Türkiyən liderliyi ilə yeni beynəlxalq iqtisadi layihələrin şahidi ola bilərik. Ən əsası, Azərbaycan rəşadətli hərbi qələbəsi ilə bölgəyə sülh, inkişaf və tərəqqi bəxş etdi”.




Almaniya Bundestaqının Solçular fraksiyasının deputatı, ATƏT Parlament Assambleyasında Almaniya nümayəndə heyətinin üzvü, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədr müavini Helin Evrim Zommer Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı bəyanat verib.

AZƏRTAC xəbər verir ki, deputat Ermənistan ilə Azərbaycan arasında imzalanan atəşkəs razılaşmasını alqışlayıb, bunun regiondakı insanlar üçün yaxşı xəbər olduğunu və döyüşlərin getdiyi bölgədə humanitar fəlakətin qarşısını aldığını bildirib.

Deputat, eyni zamanda, Dağlıq Qarabağ uğrunda müharibənin münaqişələrin dondurulmasının kifayət etmədiyi dərsini verdiyini, problemlərin həlli üçün fəal sülh siyasətinə ehtiyacın olduğunu diqqətə çatdırıb. Vurğulayıb ki, başqa dövlətin ərazisinin hərbi işğalı və birtərəfli ayrılmalar beynəlxalq hüquqa ziddir və sülhə maneədir.

Helin Evrim Zommer qeyd edib ki, AFR hökuməti Minsk qrupunun üzvü kimi passivlikdən əl çəkməli, Ermənistan ilə Azərbaycan arasında sülh prosesi üçün fəal çalışmalıdır. Üçüncü dövlətlər ATƏT kimi sülh diplomatiyasının əsaslarından faydalanmalı və sülh prosesində fəal şəkildə iştirak etməlidirlər. Bu mənada, AFR hökuməti də Minsk qrupu çərçivəsində öz məsuliyyətinə uyğun davranmalı və iştirakçı dövlətləri sülh prosesində dəstəkləməlidir.



“Bu şanlı zəfəri bizlərə qazandıran Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev başda olmaqla, bütün Azərbaycan xalqını və qəhrəman Ordumuzu təbrik edir, şəhid övladlarımıza rəhmət, yaralılara şəfa diləyirəm. Azərbaycanın qazandığı bu Qələbə bütün türk dünyasının zəfəridir”.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə Böyük Millət Məclisinin sabiq deputatı Sinan Oğan ifadə edib.

Qazanılan tarixi Qələbəni Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin türk dünyasına əvəzsiz hədiyyəsi kimi dəyərləndirən Sinan Oğan deyib: “İki böyük xəyalımız var idi. Onlardan biri işğal altındakı torpaqların azad olunması, digəri isə türk dünyası arasında birbaşa əlaqənin qurulması idi. Bir zəfərlə bu iki xəyalın hər ikisi gerçəkləşdi”.

Sinan Oğan əminliklə ifadə edib ki, işğaldan azad olunan ərazilərin bərpası və qaçqınların öz yurdlarına qayıdışı tezliklə və uğurla başa çatacaq.



Azərbaycanın böyük maarifçisi Cəlil Məmmədquluzadənin və Qarabağ xanı Pənahəli xanın nəslinin nümayəndəsi Həmidə xanım Cavanşirin nəticəsi, əslən həm polyak, həm də azərbaycanlı olan Martin Cavanşiri Polşa Prezidentinə Azərbaycanın ədalətli mübarizəsini dəstəkləməyə çağıran məktub ünvanlayıb.

Xatırladaq ki, Martin Cavanşiri və Həmidə xanımın kötükcəsi Pşemislav Cavanşiri Polşanın Lodz şəhərində yaşayırlar. AMEA-nın birinci vitse-prezidenti İsa Həbibbəyli uzun illər apardığı araşdırmalardan sonra C.Məmmədquluzadənin davamçılarını tapıb. 2019-cu ildə Martin Cavanşiri İsa Həbibbəylinin təşəbbüsü ilə Azərbaycana gəlib və ulu babası Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığı ilə tanış olub. O, həmçinin Azərbaycanın Polşadakı səfirliyi ilə daim sıx əməkdaşlıq edərək bütün tədbirlərə qatılır.

İkinci Qarabağ müharibəsi zamanı Martin Cavanşiri Polşa Respublikasının Prezidenti Andjey Dudaya məktub yazaraq Ermənistanın Azərbaycana hərbi təcavüzündən və müharibə zamanı döyüş zonasından uzaqda yerləşən şəhərlərə, dinc əhaliyə qarşı törətdikləri cinayətlər haqqında məlumat verib, Polşa Prezidentinin Azərbaycan xalqını ədalətli mübarizəsində dəstəkləyəcəyinə ümid etdiyini bildirib.

Martin Cavanşirinin Polşadakı səfirliyimizin xətti ilə AZƏRTAC-a daxil olan məktubunda deyilir:

“Mən əslən həm polyakam, həm də azərbaycanlı. Mənim babamın əsli Naxçıvandan, nənəm isə Qarabağdandır. Nənəm Həmidə xanım Cavanşir sadəcə qarabağlı deyil, Qarabağın xan nəslindəndir. Nənəmin babası Qarabağ xanı olub. Mən polyak olaraq nənəmin xan babasının Cavanşir soyadını daşıyıram. Ulu babam Cəlil Məmmədquluzadə Azərbaycanın görkəmli ictimai xadimi olub. Azərbaycanda onun adını daşıyan şəhər var, onun adı küçələrə verilib, abidələri ucaldılıb”.

Azərbaycan dilini bilmədiyini, babası və nənəsindən fərqli olaraq müsəlman deyil, xristian-katolik olduğunu, bu səbəbdən Azərbaycana çox nigarançılıq hissi ilə getdiyini qeyd edən Martin Cavanşiri yazır ki, Azərbaycanda polyaklara yüksək hörmət və məhəbbətin şahidi olub. Orada Azərbaycanın müstəqilliyi uğrunda canından keçmiş polyak Maçey Sulkeviçi unutmurlar. Mənə dedilər ki, Sizin də həm Maçey Sulkeviçə, həm də Polşa ordusunun əslən azərbaycanlı olan polkovniki Vəli bəy Yadigara böyük hörmətiniz var. Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə onların şərəfinə Varşavada abidə ucaldılıb. Polşanın şəhər və kəndlərində Azərbaycan-Polşa dostluğunu tərənnüm edən 30-dan çox abidə qoyulub. Bu abidələri də Azərbaycan tərəfinin təşəbbüsü ilə ucaldıblar.

Azərbaycanda çoxlu polyak izləri qorunur. Azərbaycanlılar Bakıda əslən polyak olan Pavel Pototskinin şəhərin mərkəzindəki məzarını qardaşlıq rəmzi olaraq ən əziz xatirə kimi qoruyurlar. Müsəlman şəhəri Bakıda Katolik kilsəsi yerləşir. Orada mənə dedilər ki, böyük polyak II İoann Pavel Bakıda olanda Heydər Əliyev ona bu torpağı hədiyyə verib və orada Katolik kilsəsinin tikintisinə müsbət yanaşıb.

“Hörmətli cənab Prezident, mən Sizə sadəcə öz taleyimi deyil, təmsil etdiyim iki xalq, polyak və Azərbaycan xalqlarını qardaşlaşdıran məqamlardan danışdım. Mənim nənəmin vətəni Qarabağ Ermənistan tərəfindən zəbt olunub. BMT-nin Təhlükəsizlik Şurası Ermənistandan tələb edib ki, o torpaqları azad etsin. Lakin 27 ildir ki, Ermənistan bunu etmir. Azərbaycan xalqı bu işi özü etməyə məcbur olub. Hansı xalq dözər ki, onun torpaqları yad əlində qalsın”, - deyə məktubda vurğulanır.

Martin Cavanşiri məktubunda xatırladır ki, son günlərdə Qarabağda gedən döyüşlər zamanı Ermənistan silahlı qüvvələri mülki yaşayış məntəqələrini və cəbhə bölgəsindən uzaq olan Gəncə şəhərini atəşə tutdular. Hər hansı bir qarşıdurmada hər iki tərəfdən mülki əhalinin çox əziyyət çəkdiyini başa düşürəm. Ancaq unutmayaq ki, müharibə Azərbaycan Respublikasının ərazisində gedir və ən çox əziyyət çəkənlər də onun mülki vətəndaşlarıdır.

Məktubda daha sonra deyilir: “Az da olsa, bəzən eşidilir ki, polyaklar xristian olduqları üçün gərək xristian-ermənilər tərəfində dayanıb müsəlman azərbaycanlılara qarşı çıxsınlar. Düşünürəm ki, bu, ancaq məni deyil, milyonlarla namuslu polyakı narahat edir. Axı biz xalq olaraq gərək ədalətin tərəfində olaq”.

Martin Cavanşiri Polşa Prezidentinə məktubunu bu sözlərlə tamamlayır: “İnanıram ki, Siz Azərbaycan xalqının ədalətli mübarizəsini dəstəkləyəcəksiniz”.



“Özbəkistan-Azərbaycan” Dostluq Cəmiyyətinin idarə heyəti adından qurumun icraçı direktoru, professor Erkin Nuriddinov Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinə böyük Qələbə münasibətilə təbrik məktubu göndərib.

AZƏRTAC xəbər verir ki, təbrikdə deyilir: “Azərbaycan xalqını müharibədə Qələbə qazanması, Qarabağın işğaldan azad olunması münasibətilə təbrik edir, uğurlar və daha böyük inkişaf arzulayırıq”.

Bildirilir ki, Azərbaycanın işğal olunmuş ərazilərdə əks-hücumunu və torpaqların azad olunması prosesini hər gün izləyir və sevinirdik. Biz Azərbaycan xalqının ağrı-acısını yaxşı başa düşürük. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev son 17 ildə ən müxtəlif səviyyələrdə danışıqlarda iştirak edib. BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını qeyd-şərtsiz azad etməsi ilə bağlı 4 qətnaməsi ortadadır. İşğalçı Ermənistan nəinki bu qətnamələri yerinə yetirib, hətta Azərbaycanın yeni ərazilərini işğal etmək arzusuna düşmüşdü.

Məktubun sonunda deyilir: “Dostluq Cəmiyyətinin idarə heyəti əmindir ki, gələcəkdə də Özbəkistan və Azərbaycan arasında bütün sahələrdə əlaqələr möhkəmlənəcək və inkişaf edəcək”.



“Türkiyə hər zaman BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin tətbiqini tələb edib. Ermənistan Türkiyə və Rusiya prezidentlərinə minnətdar olmalıdır, çünki onun ordusu uçurumun kənarında idi”.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev bu ölkənin “Beur” radiosuna müsahibəsində jurnalistin Fransanı bu münaqişədə Türkiyəni ittiham etməsi ilə bağlı sualına cavabında deyib.

Səfir bildirib ki, Fransa obyektiv olmalıdır. Azərbaycan regionun güclü dövlətidir. Fransa ilə ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində tərəfdaşlığımız var. Fransa qeyri-obyektivlikdən əl çəkməlidir.

Dağlıq Qarabağdakı ermənilərlə bağlı suala cavabında səfir deyib ki, 30 il əvvəl orada yaşayan azərbaycanlı və digər icmaların üzvləri erməni silahlı qüvvələri tərəfindən qovulub. Dağlıq Qarabağda yaşayan icmaların nümayəndələri yenidən doğma yurdlarına qayıdacaq və əvvəlki kimi etnik və çoxkonfessiyalı icma kimi yaşamaqda davam edəcəklər. Dağlıq Qarabağ tərəqqi edəcək və orada müxtəlif icmaların nümayəndələrindən ibarət Azərbaycan vətəndaşları birgə yaşayacaqlar.

Diplomat Azərbaycanın çoxkonfessiyalı, tolerant, dünyəvi ölkə olduğunu, qadınlara hələ 100 il əvvəl səsvermə hüququ verildiyini vurğulayıb. O, Azərbaycan tarixi haqqında da ətraflı məlumat verib.

# Azərbaycanın haqq savaşı xarici mətbuatda



"Pakistan Observer" qəzetinin redaktoru Riyaz Əhməd Azərbaycan Prezidenti İlham Əliyevin "BBC News"a müsahibəsinə istinadla hazırlayıb dərc etdirdiyi məqaləsi üçün "Müsəlman aləmində sözünü deyən lider meydana çıxdı" başlığı seçib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidentinin "BBC News" müxbirinin suallarına dərin məntiqə əsaslanan cavablar verdiyi, öz sözünü cəsarətlə dediyi vurğulanır, müsahibədən bu fikri təsdiqləyən sitatlara geniş yer ayrılır.

Qeyd edək ki, Pakistan dövləti və xalqı Azərbaycanın ərazi bütövlüyünü daim birmənalı olaraq dəstəkləyib, ölkəmizin yanında yer aldığını açıq şəkildə bəyan edib. Baş nazir İmran Xanın dəstək bəyanatları, Pakistan Milli Assambleyasının Ermənistanın Azərbaycana qarşı təcavüzünü və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı qəddar hücumlarını kəskin pisləyən qətnamə qəbul etməsi, parlamentin sədri Əsəd Qayserin Milli Məclisin sədrinə ünvanladığı məktubda Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki şəxslərinin atəşə tutulmasına qəti etiraz bildirməsi, xarici işlər naziri Mahdum Şah Mahmud Qureşinin bəyanatları, diplomatların və jurnalistlərin çıxışları, həmçinin sadə pakistanlıların sosial şəbəkələrdə xalqımızın yanında olduqları barədə ürək sözləri bizim üçün çox dəyərlidir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Rusiyanın "İnterfaks" agentliyinə müsahibəsində Pakistanın və Türkiyənin bu dəstəyini yüksək qiymətləndirib və onlara təşəkkürünü bildirib.

Azərbaycanın Vətən müharibəsi apardığı günlərdə Pakistanın "National Herald Tribune", "Pakistan Observer" və digər nüfuzlu qəzetləri, "Diplomatic News Agency" informasiya agentliyi, PTV, "Dawn News", "A Plus" televiziya kanalları Azərbaycanın haqlı mövqeyini təbliğ edib, Ordumuzun şanlı Qələbəsi haqqında xəbər, məqalə və reportajlar yayıblar.

Pakistanın Yaxın Şərq ölkələrindəki keçmiş səfiri Cavid Hafizin "Arabnews" qəzetində dərc olunmuş "Pakistan niyə Azərbaycanı dəstəkləyir?" sərlövhəli məqaləsində bildirilir ki, Türkiyədən sonra Azərbaycanın dövlət müstəqilliyini tanıyan ikinci ölkə olan Pakistan qardaş azərbaycanlılarla sıx və səmimi əlaqələr qurub. Rəsmi Bakı Pakistanın Cəmmu və Kəşmir, İslamabad isə Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında mövqeyini daim dəstəkləyib. Azərbaycan, eyni zamanda, 1996-cı ildən İƏT-də Kəşmir üzrə təmas qrupunun üzvüdür.

Diplomat yazır ki, Dağlıq Qarabağ ərazisinə sonradan köçürülən ermənilərin separatçı mövqeyi, Ermənistanın işğalçı siyasəti sonda iflasla nəticələnməli idi və belə də oldu.




Əldə edilən razılaşmaya uyğun olaraq ermənilər Kəlbəcər rayonunu tərk edirlər.

AZƏRTAC xəbər verir ki, razılaşmanın icra olunduğunu "BBC News" kanalının Kəlbəcərdən hazırladığı reportaj da təsdiq edir.

Reportajda ermənilərin Kəlbəcəri tərk etmələri əks olunub. Reportajdan da görünür ki, ermənilər aparılması mümkün olan hər şeyi özləri ilə götürürlər, hətta pəncərə çərçivələrini, unitazları belə aparırlar. Apara bilmədikləri hər şeyi isə yandırır, məhv edirlər. Onlar xüsusən də Kəlbəcərdə meşələri və evləri yandırmaqla daha çox ziyan vurmaq istəyirlər.

Bütün bu faktlar ermənilərin Azərbaycana aid ərazilərdə maddi-mədəni sərvətlərimizin dağıdılması və qarət olunmasını indi də davam etdirdiklərini bir daha sübut edir.

Xatırladaq ki, hələ oktyabrın 28-də Prezident İlham Əliyev "İnterfaks" agentliyinə müsahibəsində bu faktı bildirib. Dövlət başçısı müsahibəsində deyib: "Biz Füzuli şəhərini işğaldan azad edəndə orada bircə salamat bina tapa bilmədik. Təsəvvür edirsinizmi? Bütün şəhərdə, halbuki orada 10 minlərlə insan yaşayırdı. Bircə bina da qalmayıb. Mənə zəng vurdular, dedim ki, bayrağı dirək üzərində qaldırın. Görün, onlar nə ediblər. Ağdamın, Cəbrayıl rayonunun xarabalıqlarına baxın. Hər şey dağıdılıb. Elə bil buradan vəhşilər keçiblər. Elə bil bunlar insan deyilmiş. Onlar hər şeyi söküb-dağıdıblar. Evlərin damlarını, pəncərə çərçivələrini, hətta unitazları da. Bu, sadəcə, quldurluqdur".

Beləliklə, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi sahədəki möhtəşəm uğurlarımızı məharətlə siyasi-diplomatik müstəviyə keçirməyə nail oldu. BBC-nin reportajından da göründüyü kimi, torpaqlarımız müharibəsiz, qansız, şəhidsiz geri qaytarılır.




"Gənc zabit Natiq, tövləyə çevrilən Mərdinli məscidinə diqqəti çəkərək deyir: "Ermənilər orada donuz saxlayıblar". Sonra Mərdinli müsəlman qəbiristanlığına işarə edir. Qəbirlər "erməni işğalçıları" tərəfindən dağıdılaraq alt-üst edilib. Minalandığına görə bu sahəyə yaxın getməmək məsləhət görülür.

"Bütün bu dağıntılara, qazılmış çuxurlara baxın. Yalnız xarabalıq qalmışdır. Əgər burada heç kim olmayacaqdısa, niyə bizi buradan didərgin salmışdılar",-deyə gənc azərbaycanlı zabit Natiq ritorik sual verir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər "Le Monde" qəzetində dərc olunmuş "Dağlıq Qarabağ: 1993-cü ildən tərk edilmiş Füzulidə Azərbaycan xarabalıq və bunkerlərə sahib çıxır" adlı məqalədə yazılıb.

Jurnalist şəhərdə bütün tikililərin darmadağın edildiyini yazır. Hətta uçuntuları qalan məbədin hansı dinə aid olduğunu müəyyən etməyin çətinliyini diqqətə çatdırır. Rastlaşdığı uçuntular içərisində bir məbədin hansı dinə aid olduğu, hətta adı dəqiq bilinmədiyini yazaraq, bunun səbəbi kimi 1993-cü il avqustun 23-dən Füzulidə heç kimin yaşamadığını göstərir.

Bildirir ki, 1989-cu ildə son siyahıyaalmaya görə, 17 min sakini olmuş şəhər Dağlıq Qarabağdakı erməni qüvvələri tərəfindən işğal edilmiş və onun sakinləri evlərindən didərgin salınmışdır.

Məqalədə 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş Füzuli rayonunun Azərbaycan Ordusu tərəfindən azad olunması haqqında məlumat verilib.

Azad olunmuş Füzuli təsvir olunaraq yazılır: "Yenidən fəth etdiyi ərazilərdə Azərbaycan ordusu ruhların dolaşdığı şəhər, mərmi qırıntılarından qazılmış torpaqlar, dağıdılmış qəbiristanlıqlar və minalanmış sahələrlə üzləşir".



Fransa və Almaniyanın birgə televiziya kanalı olan ARTE "Qarabağa dönüş" adlı reportaj yayımlayıb.

AZƏRTAC xəbər verir ki, azərbaycanlı uşaqların Dövlət Himnimizi oxuması ilə başlayan reportajda şəhər sakinlərinin Qələbəni böyük sevinclə qeyd etdiyi bildirilir.

Vurğulanır ki, Azərbaycanın qazandığı Qələbənin sevincini yaşayanlar arasında 27 il əvvəl erməni silahlı qüvvələri tərəfindən doğma yurdlarından didərgin salınmış Füzuli sakinləri də var.

Rayonlarının azad olunduğunu eşidən füzulililər sevinclərini sözlə ifadə edə bilmədiklərini, bu günün onların həyatında ən xoşbəxt gün olduğunu deyirlər. Qeyd edirlər ki, 27 ildir paytaxt Bakıda yaşamaqlarına baxmayaraq, onların ürəyi həmişə Füzuli ilə döyünüb.

Telekanalın jurnalistləri Füzulidən olan ailənin qonağı da olurlar. Söhbət zamanı ailənin üzvü Qarabağa, doğma evlərinə qayıtmağı gözlədiklərini bildirib. Əminliklə qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Füzulidə bütün infrastruktur bərpa olunacaq. Diqqətə çatdırılıb ki, həyatının ən gözəl günlərini məhz Füzulidə keçib.

Reportajda işğaldan azad olan Füzulinin 27 il ərzində xarabalığa çevrildiyi, orada evlərin, eləcə də bütün infrastrukturun dağıdıldığı göstərilib.

Qeyd edək ki, Avropa Televiziya Assosiasiyası - ARTE televiziya kanalı Fransa və Almaniyanın birgə hazırladığı ictimai kanaldır və 1992-ci ildən fəaliyyət göstərir.




Malayziyanın BERNAMA Milli İnformasiya Agentliyi Ermənistanla müharibə dövründə - təqribən altı həftə ərzində fasiləsiz bombardmana məruz qalmış Azərbaycanın Tərtər şəhərində atəşkəs razılaşmasından sonrakı vəziyyətdən yazır.

AZƏRTAC xəbər verir ki, agentliyin xəbərində Azərbaycan ilə Ermənistan arasında bu günlərdə imzalanan sülh razılaşmasından sonra şəhərin gündəlik həyatının qaydaya düşdüyü bildirilir.

Qeyd edilir ki, noyabrın 10-da rəsmi Bakı və Yerevan Moskvanın vasitəçiliyi ilə müharibənin dayandırılması barədə razılaşma imzalayıblar. Sənədə əsasən, Dağlıq Qarabağ regionunun Ermənistan tərəfindən işğalına görə təqribən 30 il ərzində davam edən münaqişəyə son qoyulub. Azərbaycan Prezidenti İlham Əliyevə istinadla bildirilir ki, Azərbaycan bu sənədi özünün qələbəsi, Ermənistanın isə məğlubiyyəti kimi qəbul edir. Vurğulanır ki, Bakının hərbi qələbəsi onun üstünlük qazanmasına və öz ərazilərini işğaldan azad etməsinə imkan yaradıb.

Xatırladılır ki, keçmiş Sovet İttifaqının iki respublikası arasında münasibətlər Ermənistan qoşunlarının Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağ regionunu və ətraf yeddi rayonu 1991-1994-cü illərdə işğal etdikdən sonra gərginləşib.

Qeyd edilir ki, son həftələr ərzində Ermənistan ordusu tərəfindən ardıcıl olaraq intensiv hücumlara məruz qalan Tərtər sakinləri şəhərin keçələrini təmizləmək üçün "Saat meydanı"na toplaşıblar. Mağaza sahibləri sınmış şüşələri və digər qırıntıları təmizlədikdən sonra onların qapılarını yenidən açıblar.

Dağlıq Qarabağ uğrunda müharibənin qələbə ilə qurtarmasına çox sevindiklərini bildirən şəhər sakinləri Ermənistan ordusunun atəşlərinə baxmayaraq, öz evlərini tərk etmək niyyətində olmadıqlarını vurğulayıblar. Bildiriblər ki, qalib Azərbaycan Ordusunun qısa müddətdə bir neçə şəhəri və 300-ə yaxın yaşayış məntəqəsini azad etməsi onlar üçün əsl bayramdır.



Misirin nüfuzlu "Əl-Əhram" qəzetinin müxbiri Mahmud Diab "Nile1" informasiya portalında Azərbaycanın müharibədə qazandığı şanlı Qələbəsi haqqında analitik məqalə ilə çıxış edib.

AZƏRTAC xəbər verir ki, "Dağlıq Qarabağda nizamlamaya dair razılaşma. Azərbaycan böyük Qələbəni necə qazandı və Rusiya Ermənistandan nə üçün imtina etdi?" sərlövhəli məqalədə sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatından sonra əks-hücum əməliyyatı keçirən Azərbaycan Ordusunun cəmi 44 gün ərzində torpaqlarını işğaldan azad etməsi, noyabrın 10-da imzalanmış bəyanatın şərtləri, işğalçı Ermənistan hökumətinin rüsvayçı məğlubiyyətinin səbəbləri geniş təhlil olunur.

Prezident İlham Əliyevin çıxışları və müsahibələrinə geniş yer verən müəllif qeyd edib ki, Azərbaycanın dövlət başçısı Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı kimi dünyaya əsl sərkərdəlik nümunəsi göstərib.

Məqalədə məğlub və rüsvay olmuş Paşinyanın Azərbaycan, Rusiya və Ermənistanın liderlərinin imzaladığı bəyanatı kamera qarşısında deyil, gizli imzalaması barədə dövlətimizin başçısının sözləri də sitat gətirilib. Müəllif, həmçinin Rusiyanın müharibənin dayandırılmasında rolu, münaqişənin yenidən alovlanması ehtimalı, Ermənistanda davam edən iğtişaşlar barədə fikirlərini yazıb və qeyd edib ki, məğlub Ermənistanı gələcəkdə bütün sahələrdə ağır günlər gözləyir.




İspaniyanın geniş oxucu kütləsinə malik "La Razon" qəzetində Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidenti tərəfindən imzalanmış bəyanatın müddəalarının Ermənistanda etirazlarla qarşılanması geniş şəkildə işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, məqalədə sözügedən bəyanatın Azərbaycanda böyük sevinclə qarşılandığı, bunun əksinə olaraq, Ermənistanın uzun müddət işğal altında saxladığı Azərbaycan torpaqlarını itirməsi səbəbindən ölkədə sakinlərin etiraz aksiyasına başladığı qeyd olunur.

Yazıda 40 gündən artıq davam etmiş döyüşlərin Azərbaycanın tam qələbəsi ilə yekunlaşdığı diqqətə çatdırılaraq Ermənistanın ikitərəfli, habelə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində hərbi yardım almaq üçün dəfələrlə Rusiyaya müraciət etdiyi, lakin Rusiyanın döyüşlərin Azərbaycan ərazilərində aparılması səbəbindən Ermənistana hər hansı hərbi yardımın göstərilməsindən imtina etdiyi qeyd olunur.

Məqalədə Ermənistanın baş naziri Nikol Paşinyanın sözləri də yer alıb: "Bəyanatın mətni şəxsən mənim üçün və xalqımız üçün çox ağrılıdır. Bu qərar hərbi vəziyyətin dərindən təhlili və sahənin ən yaxşı mütəxəssisləri ilə aparılan müzakirələr əsasında qəbul edilib".

Ermənistanda kütləvi iğtişaşlara qatılan etirazçılar baş nazir Nikol Paşinyanı, habelə Ermənistan parlamentinin sədri Ararat Mirzoyanı Ermənistana xəyanətdə ittiham edərək onların istefasını tələb edirlər.




"Los-Angeles Times" qəzetində azərbaycanlı məcburi köçkünlər barədə material dərc edilib. Onlar ölkənin beynəlxalq aləmdə tanınmış və Ermənistan tərəfindən işğal olunmuş bütün ərazilərinin azad edilməsini səbirsizliklə gözləyirlər.

AZƏRTAC xəbər verir ki, məqalənin müəllifi, jurnalist Nabi Bulos Dağlıq Qarabağın özündən olan məcburi köçkünlərin taleyi barədə yazır. Onlardan biri Riza Həsənovdur. Məqalədə qeyd edilir ki, 1990-cı illərdə gedən müharibə nəticəsində Azərbaycan Dağlıq Qarabağa və ona bitişik yeddi rayona, o cümlədən, Həsənovun yaşadığı Kəlbəcər rayonuna nəzarəti itirib, təqribən 800.000 azərbaycanlı doğma yurdundan qovulub.

On üç il çadır şəhərciyində yaşamış Həsənov sonradan Azərbaycan hökuməti tərəfindən Təzəkənd kəndinin yaxınlığında "Dördyol-1" qəsəbəsində evlə təmin edilib. Sentyabrın axırlarında başlanmış yeni döyüş əməliyyatları nəticəsində bu ev də dağılıb. Riza Həsənov jurnalistə deyib: "Biz çox xoşbəxtik. Düşünürük ki, məqsədimizə çatmağa az qalıb. Biz ordumuza inanırıq, ona güvənirik". Müəllif yazır ki, indi Azərbaycanın hər yerində müharibə ab-havası var. "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" şüarını hər yerdə görmək olar. Bakı aeroportunda, binaların və maşınların üzərində, bulvarda, ərzaq mağazalarının rəfləri üzərindəki bannerlərdə, cəbhə xəttindən çox uzaqda yerləşən şəhərlərdə, bankomat ekranlarında bu şüarın yazıldığı elektron reklam lövhələri görmək olar.

Dağlıq Qarabağdan və ətraf rayonlardan olan məcburi köçkünlərin sayı 1 milyondan çoxdur. Bu illər ərzində məktəblərdə, yataqxanalarda və digər müvəqqəti məkanlarda yaşayan insanlar üçün həqiqət anı yetişib. Həsənovun həyat yoldaşı 54 yaşlı Rəna xanım deyir: "Biz yenidən atəşkəs elan olunmasını istəmirik. Biz yalnız irəli getmək barədə düşünürük. Burada, bu məktəbdə özümüzü qəfəsdə olduğu kimi hiss edirik. Biz Kəlbəcərdən çıxanda oğlumun dörd yaşı var idi. Fəxr edirəm ki, o böyüyüb, düşmənlə vuruşur, Vətənimizi azad edir".

Məqalədə daha sonra deyilir ki, Azərbaycanda birlik var, insanlar Prezident İlham Əliyevin ətrafında sıx birləşiblər. Hətta müxalifət partiyaları da istisnasız olaraq müharibə tərəfdarlarıdır.

Müəllif qeyd edir ki, iyul ayında Tovuz rayonunda Ermənistan qoşunları Azərbaycan qoşunlarının mövqelərinə və sərhədyanı yaşayış məntəqələrinə hücum edəndən sonra Bakıda minlərlə adamın iştirak etdiyi mitinqlər keçirildi, müharibəyə çağırış səsləndi. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev qəzetin müxbirinə bildirib ki, iyul hadisələri ictimai rəyi tamamilə dəyişdi. H.Hacıyev deyib: "Ermənilər qırmızı xətti keçdilər və yeni nəsil bu təhqirdən xilas olmaq istəyir".

Məcburi köçkünlər üçün bu müharibə onların 1990-cı illərdə tərk etdikləri evlərinə qayıtmaq üçün ümid yeridir.

Tərtər (keçmiş Ağdərə) rayonunun Ermənistan tərəfindən işğal edilmiş Umudlu kəndindən olan müəllim, 48 yaşlı Vəfadar Əliyev deyib: "Azərbaycan Ordusu torpaqlarımızı qaytarmaq məqsədilə əvvəllər də hücuma keçib, lakin bu dəfə hiss edirik ki, hər şey başqa cür olacaq".

Digər məcburi köçkün, 53 yaşlı Aydın Şahverdiyev deyib: "Ordumuz irəli gedib. İnanırıq ki, rəhbərlik bu işi sona çatdıracaq. Öz yurduma qayıdan kimi diz çöküb o torpağı öpəcəyəm".

Azərbaycanın işğal edilmiş ərazilərinin qaytarılması üçün əks-hücum göstərir ki, son on il ərzində ordu modernləşdirilmə məqsədilə alınmış arsenal hesabına möhkəmlənib. İsraildən və Türkiyədən alınmış dronlar Azərbaycan qoşunlarına erməni qoşunlarının müdafiəsini asanlıqla yarmağa imkan verib. Prezident İlham Əliyev bu yaxınlarda İspaniyanın EFE informasiya agentliyinə verdiyi müsahibədə deyib ki, Azərbaycanın danışıqlar yolu ilə qaytarmağa çalışdığı beş rayondan dördü indi tamamilə və ya qismən azad edilib. Prezident İlham Əliyev noyabrın 8-də bəyan edib ki, Azərbaycan Silahlı Qüvvələri Azərbaycan xalqı üçün xüsusi mədəni əhəmiyyət kəsb edən strateji Şuşa şəhərini azad edib.

сетевое издание РЕПОРТЕР

"Ermənilər məğlubiyyətə görə kimə "borclu" olduqlarını anlayırlar və bu səbəbdən Nikol Paşinyan bəyanatı imzaladığı gecənin səhəri ABŞ səfirliyinin binasında gizlənməli və oradan öz tərəfdarlarını dəstəyə çağırmalı oldu. Düşünürəm ki, istənilən halda Paşinyan hakimiyyətinin sonuna az qalıb. Noyabrın 10-dan onun üçün geri sayım başlayıb".

AZƏRTAC xəbər verir ki, bu sözləri analitik məqaləsində rusiyalı jurnalist Vladimir Volkonski yazıb. Jurnalist qeyd edir ki, ikinci Qarabağ müharibəsi Ermənistan üçün total məğlubiyyətlə başa çatdı. Paşinyan danışıqlara getməməklə və Şuşada rəqs etməklə müharibəni qaçılmaz etmişdi.

Ermənistanın məğlubiyyətinin texniki cəhətlərini araşdıran müəllif yazır ki, ermənilərin köhnəlmiş hava hücumundan müdafiə və raket sistemləri ilə PUA-ların qarşısına çıxmaq oxatanla pulemyot və avtomata qarşı vuruşmağa bənzəyirdi.

Azərbaycanı bu münaqişənin mütləq qalibi adlandıran müəllif daha sonra yazır ki, 44 günlük müharibədə Azərbaycan 1990-cı illərin əvvəllərində itirdiyi torpaqlarını geri qaytardı. Bundan əlavə, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə qırılmış nəqliyyat əlaqəsini bərpa etmək imkanı yarandı.




İndoneziyanın kütləvi-informasiya vasitələri Azərbaycan Ordusunun keçirdiyi növbəti uğurlu əməliyyat nəticəsində Şuşa şəhərinin işğaldan azad olunmasını geniş işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, İndoneziyanın "respublika.co.id", "inews.id", "kompas.tv", "minanews.net", "senayapost.com" və digər KİV bu tarixi hadisənin elan olunması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin Şəhidlər xiyabanında xalqımıza etdiyi müraciətindən sitatlara geniş yer veriblər.

Məqalələrdə 28 ildən bəri işğal altında saxlanılan Şuşanın düşmən tapdağından azad edildiyi vurğulanıb. Azərbaycan Prezidentinə istinadla bildirilib ki, 30 ilə yaxın müddətdə münaqişənin sülh yolu ilə həlli üçün aparılan danışıqlar prosesi heç bir nəticə verməyib. Qeyd edilir ki, hazırda Azərbaycan Ordusu problemin hərbi yolla mümkünlüyünü döyüş meydanında sübuta yetirir.

Məlumatlarda qeyd olunub ki, uzun müddət işğal altında qalan əzəli Azərbaycan torpaqları rəşadətli Azərbaycan Ordusunun böyük qəhrəmanlığı ilə azad edilir. Ermənistan tərəfi isə danışıqlar prosesindən sadəcə vaxt qazanmaq, status-kvonu möhkəmləndirmək üçün istifadə etməyə çalışıb.

Azərbaycan Prezidentinin Şuşanın azad edilməsi barədə müraciətindən sonra Bakının küçələrinə axışan paytaxt sakinlərinin bu qələbəni böyük sevinc və coşqu ilə qeyd etməsinə də geniş yer verilib.

Məqalələrdə Ermənistan-Azərbaycan münaqişəsinin tarixi barədə qısa məlumat verilərək, işğal altındakı Dağlıq Qarabağ regionunun və ətraf rayonların beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycan ərazisi kimi tanındığı vurğulanıb.




Almaniyanın "Zeit Online" xəbər portalında Azərbaycanın Qarabağ müharibəsində Qələbəsinə dair məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın Qarabağ müharibəsində parlaq qələbə qazandığı vurğulanır. Qeyd edilir ki, Ermənistan son illərdə ordusunu xeyli müasirləşdirən Azərbaycanın hərbi üstünlüyü qarşısında tab gətirə bilmədi.

Diqqətə çatdırılıb ki, Qarabağ 1990-cı illərin əvvəllərində Ermənistan tərəfindən işğal olunmuşdu. Lakin Azərbaycan Ordusu işğal altındakı şəhər və rayonları, o cümlədən tarixi Şuşanı azad edib.

Müəllif vurğulayıb ki, əldə edilən atəşkəs razılaşması Paşinyan hakimiyyətinin taleyini təhlükə altına qoya bilər. Belə ki, ermənilər Paşinyanı əraziləri itirən şəxs və ölkənin suverenliyini riskə atan xəyanətkar kimi görürlər. Razılaşmanın imzalanmasından sonra etirazçılar İrəvandakı parlament binasına hücum ediblər.

Məqalədə, həmçinin üçtərəfli atəşkəs razılaşmanın təfərrüatları barədə məlumat verilir.




Misirin "Nile1" informasiya portalı ermənilərin Azərbaycanın Kəlbəcər rayonunda tərk etdikləri evləri və meşələri yandırmasından bəhs edən xəbər yayıb.

AZƏRTAC xəbər verir ki, BBC telekanalının reportajına istinadla yayılan xəbərdə ermənilərin aparılması mümkün olan hər şeyi özləri ilə götürdükləri, hətta pəncərə çərçivələrini, unitazları belə apardıqları, Kəlbəcərdə meşələri və evləri yandırmaqla daha çox ziyan vurmaq istədikləri qeyd olunub.

Xəbərdə, həmçinin Ermənistanın işğal etdiyi və hazırda azad edilmiş ərazilərdə vurduğu böyük ziyanın hesablandığı və onun ödənilməsi üçün Azərbaycan hökuməti tərəfindən müvafiq tədbirlər görüləcəyi bildirilib.




Qarabağı tərk edən ermənilər həmin ərazilərdəki evləri yandırırlar.

AZƏRTAC xəbər verir ki, bu barədə Avstraliyanın nüfuzlu "SBS news" portalı məlumat yayıb. Bildirilir ki, ermənilər 30 ilə yaxın bir müddətdə işğal altında saxladıqları ərazilərdə yerləşən evlərə od vururlar. Burada yaşayan ermənilərə ərazini tərk etmələri üçün noyabrın 15-dək vaxt verilib.

Qeyd edilir ki, tərəflər arasında əldə edilən sülh razılaşmasına əsasən ermənilər istirahət günlərinədək həmin əraziləri Azərbaycana təhvil verməlidirlər. Xüsusən Kəlbəcər rayonunda yerləşən və separatçılar tərəfindən uzun müddət işğal altında saxlanan kəndlərdə yaşamış ermənilərin Ermənistana qaçmazdan əvvəl evlərə və sosial obyektlərə məhz azərbaycanlılara qalmaması üçün od vurduqları vurğulanır. Bildirilir ki, bu evlərin əksəriyyəti ötən əsrin 90-cı illərində bu ərazilərdən qovulan azərbaycanlılara məxsus olub. Azərbaycan Prezidenti İlham Əliyevin azad edilmiş ərazilərin 99 faizinin, evlərlə yanaşı, xəstəxanaların, məktəblərin, tarixi abidələrin ermənilər tərəfindən dağıdıldığını bildirdiyi və buna görə Ermənistanın kompensasiya ödəyəcəyini vurğuladığı qeyd edilir.

Ermənistan-Azərbaycan münaqişəsinin tarixinə toxunularaq, Ermənistan ordusu ilə Azərbaycan Silahlı Qüvvələri arasında döyüşlərin sentyabrın 27-də qızışdığı və altı həftə davam etdiyi qeyd edilir.

Ermənistan rəsmi mənbələrinin noyabrın 14-də bildirdiyinə görə, müharibə zamanı 2317 nəfərin həlak olduğu və bu rəqəmin əvvəlki rəsmi məlumatdan təqribən iki dəfə çox olduğu vurğulanır. Rusiya Prezidenti Vladimir Putinə istinadla isə bu rəqəmin 4 mindən artıq olduğu bildirilir.

Yazıda tərəflər arasında razılaşmadan sonra Ermənistanda baş verən etirazlar, baş nazir Nikol Paşinyanın istefasını tələb edən mitinqlərin keçirilməsi barədə də məlumat verilir. Noyabrın 14-də Ermənistanın keçmiş Milli Təhlükəsizlik naziri Artur Tanesyanın və digərlərinin N.Paşinyana qarşı sui-qəsd hazırlamaq cəhdi ilə əlaqədar həbs olunduğu da bildirilir.




Azərbaycanın işğalçı Ermənistan üzərində rəşadətli hərbi-siyasi qələbəsi, eləcə də təcavüzkar tərəfin məğlubiyyət öhdəliklərinə münasibəti Türkiyə kütləvi informasiya vasitələri (KİV) tərəfindən geniş şəkildə işıqlandırılmaqda davam edir.

AZƏRTAC xəbər verir ki, Ermənistanın işğalçılıq siyasəti əsasında Kəlbəcərdə qanunsuz məskunlaşan ermənilərin rayonu tərk edərkən zəbt etdikləri evləri və meşələri yandırması KİV tərəfindən insanlığa yaraşmayan vəhşilik kimi dəyərləndirilir. Vurğulanır ki, bu torpaqlar və evlər ermənilərə məxsus olmadığından və onlar geri qayıda bilməyəcəklərini dərk etdiklərindən Azərbaycana qarşı sonuncu düşmənçilik imkanlarını bu yolla həyata keçirirlər. Baş verənlər təcavüzkar Ermənistanın hərbi-siyasi məğlubiyyətini həzm edə bilməməsinin nəticəsi olmaqla bərabər, insanlıq cinayəti və ekoloji terrordur.

CAUSEUR.fr
Surtout si vous n'êtes pas d'accord

"Əvvəlki atəşkəslərdən fərqli olaraq, indi hər şey müharibənin bitdiyini göstərir. Səbəb sadədir: Azərbaycan Ordusu döyüş meydanında qələbə qazandı. Qondarma "Dağlıq Qarabağ respublikası" süquta uğradı. Ermənistanın baş naziri Nikol Paşinyanın başqa seçimi qalmadı və buna görə də o, təslim oldu".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Fransanın "Causeur" portalında dərc olunmuş analitik məqalədə yer alıb.

Məqalədə bildirilir ki, bu bəyanatı imzalamaq Nikol Paşinyan üçün ağrılı olduğu qədər də qaçılmaz idi. Paşinyan üçün bu bəyanatı imzalamaq həm də düzgün qərar idi. Ancaq təəssüf ki, vəzifədə olduğu müddətdə o, belə düzgün addımlar atmadı. O, Azərbaycan Ordusunun gücünü, ölkənin siyasi elitasını düzgün qiymətləndirə bilmədi. O, 1990-cı illərin əvvəllərindəki erməni hərbi üstünlüyünün indi artıq olmadığını başa düşmədi. Paşinyan 2016-cı ilin aprelində olduğu kimi, bir neçə gündən sonra döyüşlərin dayandırılacağını düşünürdü. O, "Qarabağ Ermənistandır" deməklə vəziyyəti daha da qəlizləşdirdi və azərbaycanlıların səbir kasasını daşdırdı.

Məqalədə qeyd edilir ki, 90-cı illərin əvvəllərində torpaqlarının 20 faizinin işğalına, nəticədə 1 milyon qaçqın və məcburi köçkünün yaranmasına baxmayaraq, Azərbaycanın ovaxtkı Prezidenti Heydər Əliyev müdrik siyasət yürüdərək, ilk növbədə, ölkənin iqtisadi potensialını və insan kapitalını inkişaf etdirdi.

Müəllif vurğulayır ki, bu gün Ermənistanda təslimdən sonra yaranmış daxili qeyri-sabitlik daha qorxulu görünür.




Çin Mərkəzi Televiziyasının ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının internet səhifəsində ermənilərin Kəlbəcəri tərk edərkən törətdikləri vandallıqlar barədə məqalə yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan, Rusiya və Ermənistanın rəhbərləri tərəfindən imzalanmış bəyanatın şərtlərinə uyğun olaraq Azərbaycana qaytarılmalı olan Kəlbəcər rayonunda sonradan məskunlaşmış ermənilərin yaşadıqları evləri yandırmalarından, dam örtüyü də daxil olmaqla tikinti materiallarını söküb aparmalarından söz açılıb.

Qeyd olunub ki, Azərbaycanın hüquqi ərazisi olan Kəlbəcər 1994-cü ildə başa çatan müharibə nəticəsində ermənilərin nəzarətinə keçib. Amma bu il sentyabrın sonunda başlayan döyüşlərin gedişində Azərbaycan davamlı hərbi uğurlar əldə edib ki, bunların da kulminasiyası strateji vacib mövqeyi və Azərbaycan mədəniyyətində həssas yeri olan Şuşa şəhərinin azad edilməsidir. Bundan sonra Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri atəşkəs barədə bəyanat imzalayıblar. Bəyanata əsasən, Ermənistanın işğalı altında olan ərazilər Azərbaycana qaytarılacaq. Artıq Kəlbəcərdən Ermənistana gedən yolda kilometrlərlə uzanan avtomobil karvanı yaranıb.

Məqalədə 1994-cü ildə başa çatmış döyüşlər nəticəsində yüz minlərlə azərbaycanlının öz yurdlarından didərgin düşdükləri bildirilib. Kəlbəcərin Azərbaycanın nəzarətinə qaytarılması ilə öz evlərinə qayıdacaq sakinlər yanmış, xarabalığa çevrilmiş evlərlə qarşılaşacaqlar. Qarşıdakı günlərdə Azərbaycana qaytarılmalı olan və vaxtilə minlərlə sakinin yaşadığı Ağdam birinci müharibədə dağılması və ya sonradan qarətçilərin binaların tikinti materiallarını söküb aparması nəticəsində xarabalığa çevrilib.

Məqalədə Azərbaycanın Baş Prokurorluğuna istinadla qeyd olunub ki, Füzuli rayonunda mina partlaması nəticəsində bir nəfər ölüb, digəri isə ağır dərəcəli bədən xəsarəti alıb.

“Bakı Abadlıq Xidməti” MMC



Azərbaycan xalqını
17 Noyabr - Milli Dirçəliş Günü
münasibətilə təbrik edir, sülh, xoşbəxtlik, əmin-amanlıq, firavan həyat arzulayır!

QARABAĞ AZƏRBAYCANDIR!



AZPETROL

“Azpetrol” şirkətinin rəhbərliyi və kollektivi Azərbaycan xalqını



17 Noyabr - Milli Dirçəliş Günü

münasibətilə təbrik edir. Xalqımıza sülh, əmin-amanlıq, firavan həyat, birlik, xoşbəxtlik, yüksək rifah və xoş gələcək arzulayır!




QARABAĞ AZƏRBAYCANDIR!


## Tender bildirişi

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Nümayəndəliyi kvalifikasiyalı şirkətləri döşək və yastıqların satın alınması üçün ITB/AZE/206/2020 nömrəli tenderdə iştirak etməyə dəvət edir. Satın alınan məhsullar Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə əməkdaşlıq şəraitində Azərbaycanda müvəqqəti köçkünlərin ehtiyacları üçün istifadə ediləcəkdir. Tələb olunan tender sənədlərinə aşağıdakı qaydada giriş əldə etmək olar:

- *E-mail:* ***azeba@unhcr.org*** *elektron poçt ünvanına sorğu göndərmək.*
- *Tender sənədlərini hər iş günü səhər 10:00-dan 16:00-dək buradan əldə etmək olar: Azərbaycan, AZ1014, Bakı, Mirzəağa Əliyev küç. 210, Winter Park Plaza, BMTQAK.*
- *Maraqlanan şirkətlər tender sənədlərini bu saytlardan da yükləyib götürə bilərlər: www.azerweb.com və* ***https://azerbaijan.un.org/az/jobs.***

Təkliflərin təqdim edilməsinin son müddəti 02 dekabr 2020-ci il saat 23:59-a qədərdir.

## Tender Notice

The Representation of the United Nations High Commissioner for Refugees invites qualified companies to participate in the tender ITB/AZE/206/2020 for procurement of Mattress and Pillows. The procured items will be used for the needs of the temporary displaced persons in Azerbaijan in cooperation with the Azerbaijan Red Crescent Society. Access to the required tendering documents can be obtained as follows:

- *E-mail: Send an e-mail request to* ***azeba@unhcr.org***
- *Tender documents are available at: UNHCR, Winter Park Plaza, 210 Mirzaagha Aliyev str. Baku, AZ1014, Azerbaijan, every working day between 10:00 am until 16:00 pm*
- *İnterested companies can download tender documents from www.azerweb.com and* ***https://azerbaijan.un.org/en/jobs***

The Deadline for submission of offers is 23:59Hrs on 02 December 2020

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi Agentliyin inzibati binasında quraşdırılmış 2 ədəd “KONE” markalı sərnişin liftlərinə göstəriləcək illik periodik servis xidmətlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) digər zəruri sənədlər 24 noyabr 2020-ci il saat 18:00-dək Bakı şəhəri, Yasamal rayonu, İsmayıl Qutqaşınlı küçəsi, 86 ünvanında yerləşən ofisinə təqdim olunmalıdır. (Telefon: 012 525-50-26) Zərflər 25 noyabr 2020-ci il saat 12:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları Bakı DOST Agentliyinin AZ1073 Bakı şəhəri, Yasamal rayonu, İsmayıl Qutqaşınlı küçəsi, 86 ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi Agentliyin inzibati binasında yanğın əleyhinə mühafizə sistemlərinə göstəriləcək illik periodik servis xidmətlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) digər zəruri sənədlər 24 noyabr 2020-ci il saat 18:00-dək Bakı şəhəri, Yasamal rayonu, İsmayıl Qutqaşınlı küçəsi, 86 ünvanında yerləşən ofisinə təqdim olunmalıdır. (Telefon: 012 525-50-26) Zərflər 25 noyabr 2020-ci il saat 11:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları Bakı DOST Agentliyinin AZ1073 Bakı şəhəri, Yasamal rayonu, İsmayıl Qutqaşınlı küçəsi, 86 ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər.

***Tender komissiyası***

# Ölkə ərazisində havanın yağıntılı olacağı proqnozlaşdırılır

Azərbaycanda noyabrın 17-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində intensiv olacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək.

Havanın temperaturunun Abşeron yarımadasında gecə 5-8°, gündüz 9-11° isti, Bakıda gecə 5-7°, gündüz 9-11° isti olacağı ehtimal edilir.

Noyabrın 17-də Azərbaycanın rayonlarında arabir yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı proqnozlaşdırılır. Arabir duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 5-8°, gündüz 10-15° isti, dağlarda gecə 2-5° şaxta, gündüz 2-5° isti olacağı bildirilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, noyabrın 17-də Abşeron yarımadasında tutqun və yağmurlu hava şəraitinin üstünlüyü bəzi meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 4° şaxtadan 1°-dək isti, gündüz 8-12° isti olacağı proqnozlaşdırılır.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında arabir yağış yağacaq. Gecə və səhər saatlarında duman olacaq. Bəzi yerlərdə qar yağacağı gözlənilir. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 2-5° şaxta, gündüz 2-5° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşama doğru yağış yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək.

Havanın temperaturunun gecə 3-7°, gündüz 8-13° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 0-5°, gündüz 6-10° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 0-3° isti olacağı ehtimal edilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarının bəzi yerlərində yağış yağacağı, şərq rayonlarında intensiv olacağı proqnozlaşdırılır. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək.

Havanın temperaturunun gecə 5-8°, gündüz 10-15° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında arabir yağış yağacağı, bəzi yerlərdə leysan xarakterli intensiv olacağı ehtimal edilir. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 7-9°, gündüz 10-13° isti, dağlarda gecə 3-5°, gündüz 5-7° isti olacaq.

# Beynəlxalq aləm

## İlkin nəticələrə əsasən, Maya Sandu Moldovanın Prezidenti seçilib



Seçkilərin ikinci turunun ilkin nəticələrinə görə, Fəaliyyət və Həmrəylik Partiyasının (PAS) sədri və sabiq Baş nazir Maya Sandu Moldova Prezidenti seçilib. Sandu Moldovanın tarixində ilk qadın-prezident olacaq.

Moldova MSK-nın məlumatına görə, seçkilərdə iştirak 52,78 faiz təşkil edib. Qərbpərəst siyasətçi hesab olunan Maya Sanduya seçicilərin 57,71 faizi səs verib. Hazırkı dövlət başçısı İqor Dodon isə 42,29 faiz səs qazanıb. Moldova MSK rəsmi nəticələri üç gün ərzində açıqlayacaq.

Yeni prezident seçkidən ən geci 45 gün sonra ölkə konstitusiyasına uyğun olaraq parlament və Konstitusiya Məhkəməsi qarşısında and içməlidir.

## Pakistanda Makronun fikirlərinə qarşı etirazlar davam edir



Pakistanın Ravalpindi şəhərində Fransa Prezidenti Emmanuel Makronun antiislam bəyanatlarına qarşı etiraz aksiyası keçirilib.

Təhrik-i-Ləbeyk Partiyasının minlərlə tərəfdarı Fransanın İslamabaddakı səfirliyinə yürüş keçirməyə cəhd etmiş, Parisə və Makrona qarşı şüarlar səsləndirmişdir. Etiraz aksiyaları ötən gündən davam edir. Təhlükəsizlik qüvvələri İslamabadın giriş və çıxışlarında 300-dən artıq konteynerdən ibarət istehkamlar quraşdırıb.

Polislə etirazçılar arasında qarşıdurma yaranıb. KİV bildirir ki, etirazçılar konteynerləri geri çəkməyə və özlərinə yol açmağa çalışıblar. Polis gözyaşardıcı qazdan istifadə edib. Etirazçılar polisə daş və taxta parçaları atıblar. Nümayişçilərin bir qrupu isə avtobus dayanacaqlarına ziyan vurub.

Polis əməkdaşları və nümayişçilər arasında bir çox zərər çəkmiş var.

## Dünyanın ən bahalı göyərçini 1,6 milyon avroya satıldı



Yüksək sürətli göyərçin Belçikada keçirilmiş hərracda rekord qiymətə - 1,6 milyon avroya satılıb.

“Yeni Kim” ləqəbli quşu ölkəsində çox populyar olan göyərçin yarışlarında iştirak etmək üçün Çin sakini əldə edib.

Əvvəllər ən bahalı göyərçin bir il öncə Belçikada 1,2 milyon dollara satılmış “Armando” hesab olunurdu.

Göyərçinlərin yetişdirilməsi ilə məşğul olan PİPA təşkilatında qeyd edilib ki, adətən, erkəklər daha bahalı olurlar.

## Boris Conson yenidən özünü təcrid edib

Böyük Britaniyanın Baş naziri Boris Conson koronavirus testi müsbət olan millət vəkili ilə görüşdükdən sonra özünü təcrid edib.

Baş nazir cümə axşamı günü millət vəkili Li Anderson ilə təxminən 35 dəqiqə vaxt keçirib. Daha sonra millət vəkilinin koronavirus testi müsbət nəticələnib. Conson öz “Tvitter” hesabından açıqlama verərək bildirib ki, onda koronavirusun əlamətləri yoxdur, lakin qaydalara riayət edərək özünü təcrid edib.

Nazirlər Kabinetindən edilən açıqlamada da Baş nazirin səhhətinin yaxşı olduğu və virusun əlamətlərinin olmadığı açıqlanıb.

Qeyd edək ki, Boris Conson martın 27-də koronavirusa yoluxsa da, müalicə alaraq sağalmışdı.

## Belçikanın qocalar evlərində insan hüquqları pozulur



Pandemiya dövründə Belçikada qocalar evlərində əsas insan hüquqları pozulmuş, yaşlılar lazımi qayğı və tibbi yardımdan məhrum edilmiş və bu səbəblərdən onların bir çoxu vaxtından əvvəl vəfat etmişdir.

Bu barədə “Amnesty International” hüquq müdafiə təşkilatının mart-oktyabr ayları üzrə sakinlər, işçilər və qocalar evlərinin sakinləri, işçiləri və rəhbərləri ilə görüşlərin yekunlarına dair hazırladığı məruzədə deyilir. Hüquq müdafiəçiləri qeyd edirlər ki, qocalar evlərində böhrana hazır deyilmişlər.

“Amnesty İnternational” iddia edir ki, mart-oktyabr aylarında Belçikada həlak olanların 61 faizini qocalar evlərinin sakinləri təşkil edib.

Belçika əhalisinin sayı 11,4 milyon nəfərdir. Pandemiyanın əvvəlindən ölkədə yeni tipli koronavirus infeksiyasından 14 mindən çox insan vəfat edib, ümumilikdə, COVID-19-a 535 min yoluxma halı qeydə alınıb.

Qocalar evlərində bu qədər insanın ölüm səbəbi odur ki, koronavirusa yoluxmuş ahılları xəstəxanaya yerləşdirməyiblər. Hüquq müdafiəçiləri qeyd edirlər ki, Belçika hökuməti qocalar evlərində yaşayan insanların müdafiəsi üçün tədbirlər görməyə gecikib.

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 03 noyabr 2020-ci il tarixdə keçirilmiş Bakı Metropoliteninin III yeni (Bənövşəyi) xəttinə aid "Xocasən" elektrik deposunun "Blok post" binasında, 1 və 2 saylı Nəzarət Buraxılış Məntəqələrində qapı və pəncərə sistemlərinin hazırlanıb quraşdırılması işlərinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "ALMETCON" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 11.11.2020-ci il tarixdə ƏDV daxil 246 325,66 (iki yüz qırx altı min üç yüz iyirmi beş manat 66 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi BDYPİ-nin Qeydiyyat-imtahan və texniki baxış şöbələrində olan avadanlıqlar üçün ehtiyat hissələrini təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 590-81-60 telefon nömrəsi və ya **itts703@rambler.ru** elektron ünvanla əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 16.11.2020-ci il saat 15:00-dan 20.11.2020-ci il saat 10:00-dək qəbul olunur.

Ünvan: Xırdalan, Binəqədi şosesi, 4.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün Gəncə, Lənkəran, Ağdaş və Yevlax şəhərlərindən bir, iki və üçotaqlı olmaqla ümumilikdə 214 mənzilin satın alınması üçün keçirilmiş açıq tenderdə "Prime İnşaat" MTK, fiziki şəxs Nizami Cavanşir oğlu Abdullayev və "AN İnşaat" MMC qalib olmuşdur.

Qalib təşkilatlarla və fiziki şəxslə müvafiq satınalma müqavilələri bağlanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 07 oktyabr 2020-ci il tarixdə **www.etender.gov.az** Portalında, 08 oktyabr 2020-ci il tarixdə "Azərbaycan" qəzetində dərc edilmiş Anbar sahəsinin icarə xidmətinin satın alınmasına dair keçirilmiş açıq tenderdə tender komissiyasının qərarı ilə fiziki şəxs Teymur Mirzəxan oğlu Mirzəxanov müsabiqənin qalibi elan olunmuşdur.

Qaliblə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## "Azərişıq" ASC 2020-ci ilin 31 dekabr yekunlarına görə Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BHMS) uyğun maliyyə hesabatlarının audit olması xidmətlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirə bilərlər. Müsabiqədə iştirak etmək üçün müsabiqəyə daxil olduqdan sonra "Asan Ödəniş"lə "ödə" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**LOT-1** "Azərişıq" ASC 2020-ci ilin 31 dekabr yekunlarına görə Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BHMS) uyğun maliyyə hesabatlarının audit olması xidmətlərinin satın alınması.

**İştirak haqqı - 850 manat**
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Anar Mahmudov, telefon: 440-39-93 daxili (22-40)
**anar.mahmudov@azerishiq.az**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *malgöndərənin VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış, sahibkarlıq kateqoriyası haqqında məlumat (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd (təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir (iri sahibkarlıq subyektləri qanuna əsasən elektron Portal vasitəsilə keçirilən tenderdə iştirak edə bilməz);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *audit xidmətlərinin göstərilməsi üzrə Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən təqdim olunan lisenziya (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçının analoji işlərdə təcrübəsi haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır).*

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **07 dekabr 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **15 dekabr 2020-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **16 dekabr 2020-ci il saat 16:00-da** açılacaqdır.
İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*

# ADA Universitetindən yeni təşəbbüs: "ADA Tarix Yazır"

Ölkəmizin tarixində yeni mühüm səhifə yazılır: Qarabağ uğrunda xalqımızın mübarizə və həmrəylik tarixi! Bu tarixi yazanlar haqqında hekayələrin sənədləşdirilməsi, xüsusilə də bu hekayələrin insanların öz şəxsi təcrübə və təəssüratları ilə çatdırılması vacibdir. Belə ki, ADA Universiteti "ADA Tarix Yazır" təşəbbüsünü irəli sürərək, tələbə, müəllim və bütün işçi heyətini hekayələri ilə bu tarixə töhfə verməyə çağırır. ADA Universitetinin Akademik işlər üzrə prorektoru Vəfa Kazdal bildirib: "Bugünkü tariximizi gələcək nəsillərə və dünyaya yaddaşlarda qalan hekayələrimizlə çatdıraq!".

Layihənin praktiki əhəmiyyətindən biri də odur ki, bu təşəbbüs tədris pro-




sesini daha maraqlı etməklə gənclərimizdə vətənpərvərlik ruhunu gücləndirməyə imkan yaradır. Layihədə iştirak edənlərə ideyalarını formalaşdırmaq və yazı bacarıqlarını təkmilləşdirmək üçün yerli və xarici mütəxəssislər tərəfindən onlayn seminarlar təşkil olunur. Seminarlardan ilki ABŞ-da nəşr edilən "Azerbaijan International" jurnalının redaktoru Betti Bleyr tərəfindən keçirilib.

Layihəyə öz hekayələrini paylaşmaq istəyən bütün həmvətənlərimiz, eləcə də xarici vətəndaşlar qoşula bilərlər. Bunun üçün yazılarınızı ingilis və ya Azərbaycan dilində, ad və soyadınızı qeyd etməklə adawriteshistory@ada.edu.az ünvanına göndərə bilərsiniz. Hekayələr layihənin yeni istifadəyə verilən bloqunda yayımlanacaq. Bloqa keçid: http://www.adawriteshistory.com/. Layihə barədə ətraflı məlumatı https://bit.ly/37ognAK keçidindən almaq olar.

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

### *açıq tender elan edir*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Biləsuvar Peşə Liseyinin dam örtüyünün təmiri işlərinin satın alınmasına dair açıq tender üsulu ilə elektron satınalma keçirir.

Tender proseduru 15 dekabr 2020-ci il saat 11:00-da dövlət satınalmalarının vahid internet Portalında (**etender.gov.az**) keçiriləcəkdir.

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün Portal vasitəsilə elektron elanla tanış ola və 200 (iki yüz) manat məbləğində iştirak haqqı ödəməklə iddiaçı qismində qeydiyyatdan keçərək tenderin Əsas şərtlər toplusunu əldə edə bilərlər.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 05 noyabr 2020-ci il tarixdə keçirilmiş Bakı Metropoliteninin III yeni ("Bənövşəyi") xəttinə aid "B-3" stansiyasının yerüstü sahəsinin abadlaşdırılması layihəsi çərçivəsində yaşıllaşdırma işlərinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə fiziki şəxs ELŞƏN FƏRHAD OĞLU RÜSTƏMOV qalib elan olunmuşdur.

Qaliblə 13.11.2020-ci il tarixdə ƏDV-siz 28611.90 (iyirmi səkkiz min altı yüz on bir manat 90 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## "Azərbaycan İnvestisiya Şirkəti" ASC Neftçala Sənaye Məhəlləsində yerləşən sutəmizləyici qurğunun bioloji yolla təmizlənməsi üçün dərman vasitələrinin və qurğuda yaranan nasazlıqların təmiri xidmətlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan şirkətlər (012) 488-80-10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
Kotirovka sorğusu prosesində iştirak etmək üçün sənədlər 20.11.2020-ci il saat 17:00-dək qəbul olunur.

*Tender komissiyası*

## "Azərişıq" ASC "Bakı RETSİ ərazisində enerji təchizatı şəbəkəsinə qoşulma ilə bağlı daxil olan, həmçinin Dünya Bankının "Doing Business" hesabatında "Azərişıq" ASC-nin reytinqinin qiymətləndirilməsi zamanı nəzərə alınan müraciətlərin icra müddətinə 2 (iki) aylıq nəzarət edilməsi xidmətinin satın alınması üzrə

### *kotirovka sorğusu keçirir*

Kotirovka sorğusu müsabiqəsində iştirak etmək istəyən iddiaçılar öz sənədlərini 20 noyabr 2020-ci il saat 15:00-dək aşağıdakı ünvana təqdim etməlidirlər. Zərflər 23 noyabr 2020-ci il saat 15:00-da aşağıda qeyd olunan ünvanda açılacaqdır. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Əliyev küçəsi, 130. Əlaqə telefonu: (012) 440-39-93 (24-00)**

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 27 noyabr 2020-ci il saat 11:30-da keçirilməsi nəzərdə tutulan "Bakı Metropoliteni" QSC-nin tunellərində korroziya əleyhinə mühafizə üzlüklərinin çəkilməsi zamanı texniki nəzarət xidmətinin satın alınması üzrə açıq tenderin vaxtı 07 dekabr 2020-ci il saat 11:30-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 26 noyabr 2020-ci il saat 11:30-a qədər, tender təklifi və bank təminatını isə 04 dekabr 2020-ci il saat 11:30-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

*Tender komissiyası*

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Şahin Məmmədova anası

**SƏRFİNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Siyavuş Novruzov Hacıbala Abutalıbova qardaşı

**OSMAN ABUTALIBOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Sadıxovlar ailəsinə əzizləri

**TAMELLA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Memarlar İttifaqının İdarə Heyəti üzvləri Memarlar İttifaqının qocaman üzvü

**KAMAL ƏLƏSGƏR OĞLU QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Masallı Rayon İcra Hakimiyyəti başçısı Şahin Məmmədova anası

**SƏRFİNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Masallı Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi rayon icra hakimiyyətinin başçısı Şahin Məmmədova anası

**SƏRFİNAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan" nəşriyyatının kollektivi iş yoldaşları Akif Bəbirova qardaşı

**ARİF BƏBİROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan" nəşriyyatının kollektivi iş yoldaşları Ziyad Kərimova bacısı

**SONA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7422
Sifariş 2642
Qiyməti 40 qəpik